Hər kəs ədalətli olacaq

ƏDALƏT

## Akar: "Terror balasından qurtulmaq üçün..."



**"Terror balasından ən qısa şəkildə qurtulmaq, ölkəmizin, sərhədlərimizin, vətəndaşlarımızın təhlükəsizliyini təmin etmək və regiona sülh, sabitlik gətirmək üçün səy göstəririk".**

Adalet.az "Akşam"a istinadən xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar dünən Moskvada Rusiya, İran və Suriyadan olan həmkarları ilə keçirdiyi dördtərəfli müzakirədən sonra jurnalistlərə açıqlamasında deyib. Onun sözlərinə görə, bu istiqamətdə işlər davam etdiriləcək: "Həmsöhbətlərimizin mövqeləri ilə tanış oldum. Həmçinin öz fikirlərimizi də bölüşdük. Hər zaman dediyimiz kimi, Suriyanın ərazi bütövlüyünə, suverenliyinə hörmətimizi ifadə etdik. Dedik ki, bizim Suriyadakı mövcudluğumuzun yeganə səbəbi orada İŞİD, PKK/YPG/PYD və digər terror təşkilatlarına qarşı mübarizə aparmaqdır". H.Akar bildirib ki, iclas zamanı suriyalı qaçqınların təhlükəsiz şəkildə ölkələrinə qayıtmaları məsələsi də müzakirə olunub: "Həmçinin müxtəlif ikitərəfli görüş imkanlarım da oldu. Bu müzakirələr səmərəli və məhsuldar keçdi. Razılaşdıq ki, regionda sülh və sabitlik üçün təmaslara ehtiyac var. Biz suriyalı qardaşlarımız üçün problem yaradacaq qərar qəbul etmərik. Bu, müzakirə mövzusu deyil. Hər kəs bunu bilməli və buna uyğun davranmalıdır. Lap əvvəldən bəri bizim bu məsələdəki mövqeyimiz konkretdir".

## *"İran və Ermənistan ölkəmizə qarşı kibertəhdidlərdən əl çəkmirlər"*



**"Ölkəmizdə kibertəhlükəsizliyə xüsusi diqqət yetirilməsinin digər səbəbi Ermənistan və İranın kibersahədə ölkəmizə qarşı təhdidləridir".**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin sektor müdiri Elmir Vəlizadə "Azərbaycanda kibercinayət və kibertəhlükəsizlik barometri" mövzusunda keçirilən konfransda bildirib.

"Onlar illər ərzində ciddi fəsadlar yaratmağa nail olmasalar da, bu cinayətkar fəaliyyətlərindən əl çəkmirlər. Xüsusən də İkinci Qarabağ müharibəsi dövründə cəbhədə ardıcıl məğlubiyyətə düçar olan ermənilər sərhədyanı bölgədəki əhali arasında həyəcan və təxribatlar yaratmaq məqsədilə rabitə vasitələri ilə dövlət qurumlarının, bankların adından yalan məlumat yayırdılar. Dövlət xidmətləri göstərən sistemlərin işlərinə müdaxilələrə cəhd edirdilər. Lakin bütün cəhdlərin qarşısı vaxtında alınırdı", - deyə Elmir Vəlizadə qeyd edib./apa

## *Türkiyə prezidenti hərbi qulluqçumuzu təltif edib*



**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, Türkiyədə baş vermiş zəlzələ nəticəsində xəsarət alanlara tibbi yardım göstərmək məqsədilə qardaş ölkəyə ezam olunmuş hərbi tibb personalımızın rəhbəri Türkiyə dövləti tərəfindən mükafatlandırılıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.**

Beştəpə Milli Konqres və Mədəniyyət Mərkəzində keçirilən mərasimdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tibb xidməti polkovniki Niyaməddin Ağamalıyevi "Türkiyə Cümhuriyyəti Dövlət Üstün Fədakarlıq Medalı" ilə təltif edib. Qardaş ölkədə baş vermiş güclü zəlzələ nəticəsində Azərbaycan Ordusunun hərbi tibb personalının Kahramanmaraşda Türkiyə Səhiyyə Nazirliyinin və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə fəaliyyəti yüksək qiymətləndirilib.

Qeyd edək ki, ümumi cərrah, travmatoloq, LOR cərrah, oftalmoloq, neyrocərrah, revmatoloq, anestezioloq, plastik-rekonstruktiv cərrah, feldşer, əməliyyat tibb bacıları və anestezistlər olmaqla, ümumilikdə 20 nəfərlik hərbi tibb personalı baş vermiş zəlzələdə 81 cərrahi əməliyyat icra edib, 517 nəfərə isə ambulator yardım göstərib.

*İradə TUNCAY*

## Hamımız yola veririk hər şeyi...



**Subyektiv fikirlərimdi. Sadə vətəndaşam- sadəcə bir az məlumatlı vətəndaşam deyək.**

**Hollywood filmlərində görmüşəm (onların filmləri isə ideoloji filmlərdi) - əgər önəmli bir şəxs cinayət edirsə və bunun üstü açılırsa onu mütləq aradan götürürlər. Amma cinayətkar kimi təqdim etmirlər cəmiyyətə. İş başında həlak oldu deyirlər. Çünki onun cinayətkar olduğunu etiraf etmək dövlətə zərbədi, nüfuzuna zərbədi. Suallar doğa bilər - əgər bu cinayətlər olunubsa dövlət hara baxırdı???**

**Hər yerdə yaranır bu suallar. Əslində dövlətə inam belə yaranır. Cinayət cəzasız qalmayanda... Əks halda zəncir halqaları qırılmır.**

**Əgər milyard söhbətləri olubsa??? Ya da olmayıbsa???**

**Hamımız yola veririk hər şeyi... Nəysə...**

*Aqil ABBAS*

## SƏNİN KİTABINI...

Bax:səh-3

*Vilayət Quliyev*

## VƏTƏNİMİZİ BƏYƏNMİRİK?

Bax:səh-3

Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 16 (6009) 28 aprel 2023-cü il | Qiyməti 40 qəpik

## Azərbaycanda yaşayan 11 mindən çox Türkiyə vətəndaşı seçkilərdə səs verə biləcək



**Türkiyədə mayın 14-də keçiriləcək prezident və parlament seçkiləri zamanı Azərbaycanda yaşayan 11 mindən çox Türkiyə vətəndaşı səs verə biləcək.**

Bu barədə Türkiyə Mərkəzi Seçki Komissiyası (Yüksek Seçim Kurulu) məlumat yayıb. Qeyd olunub ki, Azərbaycanda üç seçki məntəqəsində Türkiyədən kənarda daimi və ya müvəqqəti yaşayan, səsvermə hüququna malik 11 036 vətəndaş səs verə biləcək.

Xatırladaq ki, bir müddət əvvəl YSK 75 ölkədə 156 nümayəndəlikdə vətəndaşların səs verə biləcəyi və builki seçkilərdə 15 yeni ölkədə seçki qutularının qurulması qərarını qəbul edib.

## Medvedev nüvə silahı ilə hədələdi: "Əlimiz əsməyəcək"



**"Rusiya lazım gələrsə, əli əsmədən nüvə silahından istifadə edə bilər".**

Bu barədə Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev bildirib.

"Əlinizdə bir növ silah varsa (mən isə keçmiş prezident kimi bunun nə olduğunu bilirəm), ondan istifadə etməkdə əlinizin əsməyəcəyi müəyyən vəziyyətə hazır olmalısınız.

Bütün bu amillər potensial rəqiblərimiz tərəfindən qiymətləndirilməlidir... Dünya xəstədir və çox güman ki, yeni dünya müharibəsi astanasındadır. Bu qaçılmazdır? Xeyr, belə deyil", - deyə Medvedev bildirib.

# AY LAÇIN, CAN LAÇIN, MƏN SƏNƏ QURBAN, LAÇIN...



**Azərbaycanın Ermənistanla sərhədində qurulan sərhəd-buraxılış məntəqəsində Azərbaycan bayrağının qaldırılması mərasimi keçirilib.**

**Adalet.az-ın xəbərinə görə, mərasimdə Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşları iştirak edib.**

**Qeyd edək ki, 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən 22 aprel tarixində birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət buraxılış məntəqəsinin qurulmasına adekvat olaraq aprelin 23-ü saat 12:00-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurulub.**

**Bu barədə Rusiya sülhməramlı kontingenti və Rusiya-Türkiyə Monitorinq Mərkəzinin komandanlıqlarına məlumat verilib.**

## DYP-dən "Formula 1"-lə bağlı müraciət



**"2023 Formula-1 Azərbaycan Qran Prisi" ilə əlaqədar Bakı şəhəri ərazisində yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və nəqliyyat sıxlığının qarşısının alınması ilə bağlı DİN-in Baş Dövlət Yol Polisi İdarəsi hərəkət iştirakçılarına müraciət edib.**

Adalet.az xəbər verir ki, müraciətdə deyilir: "DİN-in Baş Dövlət Yol Polisi İdarəsi Bakı şəhərində keçiriləcək "2023 Formula-1 Azərbaycan Qran Prisi" ilə əlaqədar paytaxtda nəqliyyat sıxlığının qarşısının alınması məqsədilə aprel ayının 28-dən may ayının 2-dək Bakı şəhərinə bitişik kənd və qəsəbələrdən, həmçinin respublikanın digər şəhər və rayonlarından paytaxta gələn vətəndaşlarımızdan ictimai nəqliyyat vasitələrindən istifadəyə üstünlük verməlləri, paytaxt sakinlərindən isə yarışın keçirildiyi müddət ərzində fərdi minik avtomobillərindən mümkün qədər az istifadə etmələri, şəhərin mərkəzi hissəsinə yalnız ictimai nəqliyyat vasitələri ilə hərəkət etmələri, istismar müddəti çox olan və nasaz nəqliyyat vasitələri ilə ümumiyyətlə yola çıxmamaları xahiş olunur".

## Anar Əsədli həbs edildi



**Azərbaycan Yüksəliş Partiyasının sədri Anar Əsədli həbs edilib.**

Adalet.az-ın məlumata görə, o ayrı-ayrı şəxslərin külli miqdarda pul vəsaitini dələduzluq yolu ilə ələ keçirməkdə təqsirləndirilir.

Anar Əsədliyə qarşı Cinayət Məcəllisinin 178-ci maddəsi ilə cinayət işi başlanılıb. Barəsində məhkəmə qərarı ilə 2 ay 23 gün müddətə həbs qətimkan tədbiri seçilib. Cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.

Qeyd edək ki, A.Əsədli ötən günlərdə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırılaraq dindirilmişdi.

## Türkiyədən Ukrayna ilə bağlı 5 illik sülh təklifi

**Müharibəni davam etdirməkdənsə, üç-beş illik sülh danışıqları variantı üzərində dayanaq. Əsas odur ki, qan tökülməsi sona çatsın. Biz mövcud vəziyyəti nəzərə alaraq dialoqun irəliləyiş imkanlarını müzakirə edəcəyik.**

Bunu Türkiyə Prezidentinin mətbuat katibi İbrahim Kalın Rusiya-Ukrayna müharibəsi barədə danışarkən bildirib. İ.Kalın Qərb ölkələrinə müraciətində "Müharibədən deyil, sülhdən yapışın" deyə qeyd edib.

## GƏL AY MİRZƏ CƏLİL, GORUN ÇATLASIN



**Sənə dil uzadanlar az idi, Şəhriyar del Gerani də dil uzatdı.**

**Mirzə Cəlilin ən gözəl hekayələrindən biri də belə adlanır: "Zırrama".**

## *18 məktəb direktoru, 14 bağça müdiri işdən çıxarıldı*

**2023-cü ilin əvvəlindən etibarən Elm və Təhsil Nazirliyi, həmçinin yerli təhsili idarəetmə orqanları tərəfindən ümumi və məktəbəqədər təhsil müəssisələrində monitorinqlər aparılır.**

Nazirlikdən Adalet.az-a verilən məlumata görə, ümumi təhsil müəssisələrində məktəbə rəhbərlik və nəzarətin həyata keçirilməsi, fərdi təhsil, dərnək və dərsdənkənar məşğələlərin təşkili, müəllimlər arasında dərs yükü bölgüsünün qiymətləndirmə nəticələrinə uyğun aparılması, şagird və işçilərin davamiyyəti, tədris-pedaqoji sənədlərin tərtibi, sinif komplektlərinin normativ sənədə uyğun təşkili, həmçinin kadr inzibatçılığı, işçilərin əmək intizamı və əmək funksiyası üzrə vəzifə öhdəliklərini yerinə yetirməsi və digər sahələr üzrə yoxlamalar aparılıb. Yoxlamalar zamanı qeyd edilən sahələr üzrə aşkar olunmuş nöqsan və çatışmazlıqlar nəticəsində 18 ümumi təhsil müəssisəsinin direktoru tutduğu vəzifədən azad olunub. Bununla yanaşı, dövlət məktəbəqədər təhsil müəssisələrində də rəhbərlik və nəzarətin həyata keçirilməsi, normativ hüquqi aktların tələblərinə riayət olunması, uşaqların qida təminatı və anbar uçotunun qanunauyğun aparılması, təlim-tərbiyə prosesinin təşkili, işçilərlə əmək münasibətləri tənzimlənən zaman əmək qanunvericiliyinin tələblərinə əməl olunması, işçilərin əmək intizamı və əmək funksiyası üzrə vəzifə öhdəliklərini yerinə yetirməsi və digər sahələr üzrə yoxlamalar aparılıb. Yekun olaraq, aşkarlanmış nöqsan və çatışmazlıqlar nəticəsində 14 dövlət məktəbəqədər təhsil müəssisəsinin müdiri işdən azad edilib.

## *Naxçıvana yanacaq daşıyan sürücülərin xərcləri azaldılıb*

**Naxçıvana yanacaq daşıyan nəqliyyat vasitələrindən İran tərəfinin təhlükəli yüklərin daşınmasına görə aldığı yol vergisinin məbləği 320 ABŞ dolları, digər xərclər isə 25 ABŞ dolları azaldılıb.**

Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi məlumat yayıb.

Artıq Azərbaycan daşıyıcıları İrana və İrandan təhlükəli yüklərin daşınmasını həyata keçirərkən 520 ABŞ dolları deyil, 175 ABŞ dolları ödəyirlər. Həmçinin ağır çəkili avtonəqliyyat vasitələri ilə yüklərin daşınmasına görə verginin məbləğinin 38 tondan deyil, 41 tondan sonra hesablanması təsdiqlənib. Yüksüz maşınlar üçün rüsumun məbləği isə 105 ABŞ dollarından 85 ABŞ dollarına endirilib.

Razılaşdırılmış azadolmalar bu aydan tətbiq edilir. Nəticədə bu istiqamətdə beynəlxalq avtomobil daşımalarını həyata keçirən milli daşıyıcıların xərcləri təxminən 3 dəfəyə qədər azalıb. Bu da daşıyıcıların maliyyə vəziyyətinin yaxşılaşmasına və avtomobil nəqliyyatı parkının sürətli yenilənməsinə ciddi töhfə verəcək.

*İradə TUNCAY*

## Kapitalçılıq ideologiyası...

*Sevgi təktərəfli olanda ona qarasevda deyirlər. Sevgidən nifrətə də bir addım yol var deyirlər.*

*İndi hamıdan sevgi istəyirsiz - xub...*

*Bir az fikirləşək bəlkə niyə belə oldu axı?*

*İnternetin,sosial şəbəkələrin imkanlarından öz xeyirlərinə istifadə edildi,öz mənafelərini qorumaq naminə istifadə edildi. Dövlət mənafeyi naminə yox. Dövlətin içində olan adamlarda dövlət anlayışı bu şəkildədisə sıradan adamlardan nə gözləyək?*

*Hörməti olan bir adam qoymadılar qalsın. İndi narazılıq edirik... Təbii nəticə bu olmalı deyildimi?*

*Mətbuat milliləşdirilməydi ,özəlləşdirilməli deyildi. Və indi şəbəkələrin qarşısında bu aciz vəziyyət... Kapitalçılıq ideologiyası...*

## ADAM QORXMAYA DEYƏ Kİ, ABŞ, GET HOPPANMAĞININ DALINCA



**Deməli, ABŞ Meksika ilə sərhəddə divar hörüb və utanmadan da bizə deyib ki, niyə Ermənistanla sərhəddə sərhəd keçid məntəqəsi tikmisiniz. Amma ABŞ darıxmasın, sərhədlər tam müəyyənləşəndən sonra ola bilər ki, biz də Ermənistanla sərhədimizdə divar çəkək. Fransa da ABŞ-ın ağzını yalayır.**

Bəs, siz niyə sərhədlərinizi bağlamısınız? Hər il də yüz mindən çox adamın vizasını qəbul etməyib ölkəyə buraxmırsınız.

***Aqil ABBAS***

***aqilabbas@rambler.ru***

## BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI, YOXSA ÇAYXANASI?



***Təxminən 75 il bundan əvvəl dünyadakı dövlətlər yığışıb bir təşkilat yaratdılar, adını da qoydular Birləşmiş Millətlər Təşkilatı. Hər il də bu təşkilata üzv dövlətlər milyonlarla dollar üzvlük haqqı ödəyirlər ki, bu təşkilat onların sözünü deyəcək, onların dərdinə əlac edəcək, cırılmış şalvarına yamaq vuracaq. Bir sözlə, at gəldi örkən apardı, it gəldi çarıq. Bu təşkilatın içində də bir təhlükəsizlik komitəsi qayırıblar, dünyanın beş vor zakon dövləti də bu komitənin üzvləridi. Hər hansı bir məsələ burda müzakirə olunanda gərək bu beş dövlət həmin məsələyə yekdilliklə səs versin, yoxsa xiyar əyri bitəcək. Və bu beş dövlət də biri biriylə bir evin iti kimi deyil, itlə pişik kimi yola gedir.***

***Hələ bu günədək bu vor zakon dövlətlərin sözünün üst-üstə düşdüyünü görməmişəm və eşitməmişəm. Gərək ki, 1992-ci il idi, ömürlərində bircə dəfə Ermənistanın Azərbaycan torpaqlarını işğaldan azad etməsi ilə bağlı və Ermənistan ordusunun Azərbaycan ərazisindən çıxarılması ilə bağlı dörd qətnamə qəbul elədilər, ermənilər də o dörd qətnaməyə və onu qəbul edən vor zakonların üzünə tüpürdü, vəssalam. Bu komitə də heç bir qəti addım atmadı və məcbur olub BMT-nin qətnamələrini Ali Baş Komandanın sərkərdəliyi ilə öz əsgərlərimiz, öz ordumuz yerinə yetirdi.***

**Bax:səh-2**

## GÜNÜN LƏTİFƏSİ

***MERKELİN PUTİNLƏ SÖHBƏTİ***

Merkel deyir:

**- Vladimir Vladimiroviç, mən işə "Mersedes"lə gedirəm. Camaatla görüşə "Volsfagen"lə, xaricə səyahət zamanı isə "BMV"-lə. Siz necə?**

Putin:

**- Mən işə də, camaatla görüşə də "Çayka" ilə gedirəm, xaricə isə "Armata" tankıyla.**

## Audiovizual Şura və MEDİA-ya yeni səlahiyyət verildi



**Audiovizual Şura və Medianın İnkişafı Agentliyinə (MEDİA) yeni səlahiyyət verilib.**

Adalet.az xəbər verir ki, bu, Prezident İlham Əliyevin müvafiq fərmanında əksini tapıb.

Fərmana əsasən, Media subyektləri tərəfindən sağlamlığın və ətraf mühitin qorunmasına zidd olan hərəkətlərin təbliğ olunması və Qanuni qüvvəyə minmiş məhkəmə qərarı olmadan şəxsin təqsirli olması barədə məlumatların dərc edilməsi (yayımlanması) ilə bağlı inzibati xətalar haqqında işlərə audiovizual media subyektlərinə münasibətdə Azərbaycan Respublikasının Audiovizual Şurası, digər media subyektlərinə münasibətdə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi baxacaq.

## Prezidentdən vacib Fərman

**Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında gömrük əməkdaşlığı üzrə Birgə Məşvərət Komissiyasının yaradılmasına dair Anlaşma Memorandumu"nu təsdiq edib.**

Adalet.az xəbər verir ki, dövlət başçısı bununla bağlı yeni fərman imzalayıb.

Fərmana əsasən, Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etməlidir.

Xarici İşlər Nazirliyi isə Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Hökumətinə bildiriş göndərməlidir.

## İlham Əliyev fransalı naziri qəbul etdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Fransa Respublikasının Avropa və xarici işlər naziri Ketrin Kolonnanı qəbul edib.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan-Fransa əlaqələrinin perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılmasının zəruriliyini bildirərək Ketrin Kolonnanın ölkəmizə səfəri zamanı bir çox məsələlər ətrafında hərtərəfli müzakirələrin keçiriləcəyinə əminliyini ifadə etdi, bunun gələcək əməkdaşlıq üçün faydalı ola biləcəyini vurğuladı. Dövlətimizin başçısı əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsinin növbəti mərhələ üçün yol xəritəsinin tərtib edilməsi baxımından önəmli olduğunu bildirdi.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin gündəliyinin həmişə çox geniş olduğunu dedi, siyasi, iqtisadi, enerji, nəqliyyat sahələrində və digər sahələrdə əməkdaşlığın yaxşı tarixə malik olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirinin regiona səfər etdiyini vurğulayaraq bu çərçivədə eyni zamanda regional əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinin də müzakirə olunacağına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi başa çatandan dərhal sonra məhz ölkəmizin Ermənistanla qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaqla sülh müqaviləsi imzalamaq təklifini irəli sürdüyünü və bunun üçün rəsmi İrəvana 5 prinsip təqdim etdiyini vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından və 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistan öz üzərinə düşən öhdəliklərini yerinə yetirmir.

Bu xüsusda dövlətimizin başçısı vurğuladı ki, Ermənistan Naxçıvanla dəhlizin yaradılmasına imkan vermir, öz qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmır və Laçın dəhlizindən sui-istifadə edərək Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsulların daşımasını həyata keçirirdi.

Prezident İlham Əliyev Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulmasını ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsi olduğunu qeyd etdi.

Katrin Kolonna Fransa Prezidenti Emmanuel Makronun salamlarını dövlətimizin başçısına çatdırdı. Vurğuladı ki, Emmanuel Makron Azərbaycan Prezidenti ilə açıq və mütəmadi əlaqələrə çox önəm verir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Emmanuel Makrona çatdırmağı xahiş etdi.

Katrin Kolonna bildirdi ki, Fransa Azərbaycanda və ümumiyyətlə Cənubi Qafqaz regionunda sülhün, iqtisadi və sosial inkişafın mövcud olmasını istəyir və ölkəsinin məqsədi həmişə bundan ibarət olub. Qonaq Fransanın ikitərəfli əlaqələrə, eyni zamanda, Avropa İttifaqı çərçivəsində əlaqələrə böyük önəm verdiyini bildirərək bu istiqamətdə geniş potensialın mövcud olduğunu dedi.

**Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.**

## *Ermənistanın danışıqlar masasına qayıtması gözlənilir*

**Yaxın zamanda Ermənistanın sülh müqaviləsi ilə bağlı danışıqlar masasına qayıtması gözlənilir.**

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Azərbaycanda səfərdə olan Fransanın xarici işlər naziri Ketrin Kolonnanın iştirakı ilə bu gün keçirilən mətbuat konfransında deyib.

Nazir bildirib ki, Azərbaycan təkliflər irəli sürsə də Ermənistan cavab verilməsi prosesində də ciddi ləngimələrə səbəb olur. "Son dəfə Ermənistandan biz sülh müqaviləsi ilə bağlı şərtləri almaq üçün 6 həftə vaxtımız getdi. Bu da prosesin gedişatı ilə üst-üstə düşən hal deyil", - deyə nazir əlavə edib.

C.Bayramov qeyd edib ki, sülh sazişi ilə bağlı bütün təşəbbüslər Azərbaycan tərəfindən edilib.

"Ermənistan tərəfi sülh danışıqlarına qayıtmasını bəyan edib. Növbəti danışıqların keçirilməsi növbəti önəmli addımdır. Biz bu prosesdə iştirak edəcəyik və sülh prosesinin irəli aparılması üçün əlimizdən gələni edəcəyik", - deyə nazir bildirib.

**Xatırladaq ki, Fransanın xarici işlər naziri Ketrin Kolonna 26 aprel tarixində Azərbaycana rəsmi səfərə gəlib. Fransalı nazir Azərbaycandan sonra Ermənistana və Gürcüstana gedəcək.**

# Avrasiyanın enerji xəritəsi yenidən cızılır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bolqarıstan Respublikasına işgüzar səfər çərçivəsində "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan), "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimində iştirak edib. Mərasimdə çıxış edən Prezident İlham Əliyev bildirib ki, enerji resurslarının daha da şaxələndirilməsi, o cümlədən enerji təhlükəsizliyinin gücləndirilməsi istiqamətində imzalanmış Memorandum çox mühüm addımdır. Yunanıstan ilə Bolqarıstan arasında interkonnektor vasitəsilə inteqrasiya layihəsi Azərbaycanın təbii qaz təchizatının coğrafiyasını genişləndirmək imkanını yaratdı. Bu layihə Avropada enerji təhlükəsizliyinin gücləndirilməsinə artıq töhfə verir: "Azərbaycan Avropanın, nəinki enerji, o cümlədən bir sıra digər sahələrdə də etibarlı tərəfdaşıdır. İmzalanmış Anlaşma Memorandumu icra olunduqdan sonra Avropada enerji təhlükəsizliyini birmənalı olaraq gücləndirəcək və Azərbaycan üçün daha çox Avropa ölkəsinə daha çox qaz ixrac etməyə fürsət yaradacaq".**

Ölkə rəhbəri bildirib ki, Avropa İttifaqının 9 üzv dövləti ilə Azərbaycan "Strateji Tərəfdaşlıq haqqında" Bəyannamə və ya Sazişlərə imza atıb və qəbul edib. Bu, o deməkdir ki, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanın strateji tərəfdaşıdır və bu tərəfdaşlığın çox güclü gələcəyi var: "Ötən ilin iyul ayında Azərbaycan və Avropa Komissiyası arasında "Enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu" imzalanıb. Memorandum əsasında Azərbaycan 2027-ci ilə qədər




Avropa İttifaqı bazarına qaz təchizatını iki dəfə artırmağı planlaşdırır. 2021-ci ildə Avropaya 8 milyard kubmetr qaz çatdırıldı, bu il isə 12 milyard kubmetr hədəflənib.

Beləliklə, həmin həcm bu il üçün planlaşdırılmış 24,5 milyard kubmetr səviyyəsində ümumi qaz ixracının təxminən yarısını təşkil edəcək".

Azərbaycan qazının Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana və İtaliyaya ixrac edildiyini vurğulayan İ.Əliyev bildirdi ki, "bu ildən başlayaraq qaz Rumıniyaya da çatdırılır. Əgər bütün lazımi interkonnektorlar olarsa, bu ilin sonundan etibarən ölkəmiz Macarıstana və Slovakiyaya qaz təchizatını başlayacaq".

Ölkə rəhbərinin sözlərinə görə, yerli qazpaylayıcı sistemin qurulması məqsədilə müvafiq danışıqlar aparılır:

"Azərbaycan hökuməti Albaniya ilə danışıqlar aparır. Çünki Cənub Qaz Dəhlizi Albaniyanın ərazisindən keçir. Eyni zamanda, Slovakiya "Həmrəylik Halqası"nın üzvü kimi, yaxın vaxtlarda enerji sahəsində tərəfdaşımıza çevriləcək. Azərbaycan qaz təchizatının coğrafiyasını 6 ölkədən, ən azı 10 ölkəyə qədər genişləndirəcək. "Ən azı" ona görə ki, bu, planların sonu deyil. Ölkəmiz Avropanın qaz bazarında fəaliyyətini daha da genişləndirməyi planlaşdırır".

"Təbii qaz Azərbaycanın Avropaya ixrac etdiyi yeganə enerji məhsulu deyil" deyən İ.Əliyev bildirdi ki, "iyirmi ildən artıqdır ki, ölkəmiz xam nefti ixrac edən iri təchizatçı kimi etibarlı tərəfdaşdır. Neft-kimya məhsulları və elektrik enerjisi də ixracımızın bir hissəsidir. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra üç ildən az müddətdə, 1994-cü ildə müqavilə imzaladı. Sonradan həmin müqavilə "XX əsrin müqaviləsi" adlandırıldı. Ölkəmiz ilk dəfə olaraq Xəzər dənizində nefti hasil və ixrac etmək məqsədilə xarici neft şirkətlərini dəvət etdi. Bu gün XXI əsrin layihəsini həyata keçiririk və onun miqyası genişlənir".

Ölkə rəhbəri çıxışı zamanı xüsusi olaraq vurğuladı ki, rnerji sahəsində etibarlı tərəfdaş kimi Azərbaycan bütün hədəflərə nail olmaq üçün lazımi addımları davam etdirməyə hazırdır.

Üç əsas enerji infrastrukturu layihəsinin uğurlu tamamlanmasından sonra, yəni - iki neft boru kəməri - biri Xəzərdən Aralıq dənizinə, digəri isə Xəzərdən Qara dənizə gedən boru kəməri və uzunluğu 3500 kilometr olan Cənub Qaz Dəhlizindən sonra, hazırda Azərbaycanın bərpaolunan enerjinin istehsalı və ixracı mənbəyinə çevrilməsi üzərində çalışmalar aparılır;

Azərbaycanda bərpaolunan enerjinin hesablanmış potensialı təxminən 200 qiqavat olduğunu qeyd edən prezident bildirdi ki, "Azərbaycan 25 qiqavatdan artıq bərpaolunan enerjinin istehsalı məqsədilə bərpaolunan enerji sahəsində aparıcı beynəlxalq şirkətlərlə müqavilələri və anlaşma memorandumlarını imzalayıb. İlk külək və günəş enerjisi stansiyalarının tikintisi başlayıb. Xəzər dənizinin Azərbaycan sektorunda 157 qiqavatenerji potensialı mövcuddur. Yaşıl enerjinin əsas ixrac istiqaməti Avropadır.

Neft meqalayihələrindən tutmuş, hazırda qaz, sonra yaşıl hidrogenə qədər layihələr var. Bütün bunlardan əlavə, güclü ötürmə xətləri olacaq və bu, tamamilə yeni vəziyyət yaradacaq. Bir sözlə, Avrasiyanın enerji xəritəsi yenidən cızılır".

**Nicat Novruzoğlu**

## XİN: "İrəvanda "Nemezis" terror əməliyyatına həsr olunmuş abidənin açılmasını qətiyyətlə pisləyirik"

**Cari ilin 25 aprel tarixində Ermənistanın paytaxtı İrəvan şəhərində "Nemezis" terror əməliyyatına həsr olunmuş abidənin açılmasını qətiyyətlə pisləyirik.**

Bu barədə Adalet.az-a XİNdən məlumat verilib.

Qeyd edilib ki, bu abidənin Ermənistanın aidiyyəti dövlət qurumlarının icazəsi və təsdiqi ilə hazırlanması, habelə açılış mərasimində hakim partiyanın üzvü olan Ermənistan merinin müavini və digər rəsmilərin də iştirak etməsi Ermənistan tərəfindən terrorçuluq siyasətinin təşviq olunması və tarix boyu həyata keçirdiyi terror əməllərinin təbliğatıdır.

Azərbaycan Demokratik Respublikası və Osmanlı dövlət xadimlərini hədəf alan "Nemezis" terror əməliyyatı zamanı, Osmanlı dövlətinin rəsmi şəxsləri ilə yanaşı, 1920-1922-ci illərdə Azərbaycanın keçmiş baş naziri Fətəli xan Xoyski, Azərbaycan parlamentinin keçmiş sədr müavini Həsən bəy Ağayev, Azərbaycanın keçmiş daxili işlər naziri Behbud xan Cavanşir, Azərbaycanın keçmiş Baş naziri Nəsib bəy Yusifbəyli qətlə yetirilibbər.

Hər kəsə bəllidir ki, Ermənistanda dövlət siyasəti səviyyəsində irəlilədilən terrorçuluq, ASALA və digər erməni terror təşkilatları 1970-1980-ci illərdə dünyanın 22 ölkəsində 235-dən çox terror aktı törədərək, 24 türk diplomatını qətlə yetiriblər. 1980-ci illərin sonundan etibarən Ermənistan Azərbaycana qarşı metro və avtobusların partladılması daxil, 30-a yaxın genişmiqyaslı terrorçuluq aktları törədilib, mülki əhali terrorçuların hədəfinə alınıb.

Azərbaycanlılara qarşı Xocalıda soyqırımının törədilməsində ASALA və onun alt-qolları olan "Arabo" və "Aramo" terrorçu qruplarının yaxından iştirak etməsi məlumdur.

Türkiyə diplomatı Kamal Arıkanı qətlə yetirən erməni terrorçu, ASALA üzvü Ambik Sassunyanın Ermənistanda qəhrəmanlaşdırılması, Ermənistanda Nasizmin təbliğinin dövlət siyasətinin tərkib hissəsi olması, SS generalı Njde Qaregin və "Dro" ləqəbi ilə tanınan Drastamat Kanayanın "milli qəhrəman" kimi təbliğ edilməsi, onların adlarının əbədiləşdirilməsi və "Njdeizmin" təbliğatı Ermənistan rejiminin əsl mahiyyətini açıq şəkildə göstərir. Tarix boyu radikal erməni qruplarının istifadə etdiyi terrorçuluğun Ermənistanda dövlət səviyyəsində dəstəklənməsi beynəlxalq ictimaiyyət tərəfindən qətiyyətlə qınanmalı, bölgədə sülh və əmin-amanlığın təmin edilməsi üçün Ermənistan tərəfindən terrorçuluq siyasətinə son qoyulmalıdır. Erməni terrorizmi, ekstremizmi, aqressiv separatizmi və irqi ayrı-seçkiliyin bütün forma və təzahürlərinə qarşı birmənalı və ikili standartlardan kənar şəkildə qəti mübarizə aparılmalıdır. Ermənistanın bu cür addımları, bu ölkənin Azərbaycan və Türkiyə ilə davam edən normallaşma danışıqları ilə bağlı iddia etdiyi "səmimiyyətini" və "xoş iradəsini" ciddi sual altına qoyur.



**Qeyd edək ki, sülh və barışığa aparan yol sinayət və səhvlərin daha çox tərənnüm edilməsindən deyil, bunların etiraf olunmasından keçir.**

## Politoloq: "Azərbaycanın Laçın dəhlizini tam şəkildə nəzarətə götürməsi..."

**"Dövlət Sərhəd Xidmətinin Laçın dəhlizində qurduğu postla bağlı onu deyə bilərəm ki, əlbəttə, bu ilk öncə tarixi ədalətin bərpa edilməsidir. Azərbaycan müstəqillik əldə etdiyi gündən bu yana ilk dəfədir ki, tam şəkildə özünün sərhədlərinin mühafizəsini həyata keçirməyə başladı. Bu xüsusi önəm daşıyır və bununla bağlı həm dövlətimizi, həm də xalqımızı təbrik edirəm. Bu bizim ən böyük uğurlarımızdan biridir. Deyərdim ki, Vətən müharibəsində əldə etdiyimiz qələbədən sonra ikinci ən böyük zəfərimizdir"**

Bunu Adalet.az-a açıqlamasında politoloq Samir Hümbətov deyib. Politoloq daha sonra Azərbaycanın qarşısına qoyduğu hədəflərə bir-bir çatdığını deyib:

"Düşünürəm ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyevin də bu günə qədər söylədiyi fikirlər tam, dəqiq şəkildə öz yerini və əksini tapdı. Bu o deməkdir ki, bu məsələlər hamısı artıq reallığı əks etdirir. Azərbaycan Prezidentinin verdiyi sözlər bir-bir özünü doğruldur. Hesab edirəm ki, tarixi fürsətin yaranması xüsusi önəm daşıyırdı və məqam yarandı ki, Azərbaycan Laçın dəhlizinə post qoysun. Əgər xatırlayırsınızsa bir müddət öncə



Prezident İlham Əliyev çıxışlarının birində bildirdi ki, hər bir işi mərhələli şəkildə görürük. Bu gün artıq 134 gündür ki, azərbaycanlı eko-fəallar Şuşa-Xankəndi yolunda etiraz aksiyası keçirirlər.

Düşünürəm ki, indiki məqamda Azərbaycanın Laçın dəhlizini tam şəkildə nəzarətə götürməsi və orda post qoyması xüsusi əhəmiyyət daşıyırdı və biz bunu artıq reallaşdırdıq. Bundan sonra istər Ermənistandan gələn, istərsə də Qarabağdan çıxan ermənilər və istərsə də bura gəlmək istəyən başqa ölkənin vətəndaşları bir qayda olaraq Azərbaycanın nəzarətindən keçəcək və icazəsin alacaq. Hesab edirəm ki, iki il yarım ərzində Rusiya dırnağarası sülhməramlıları öz fəaliyyətlərini layiqincə yerinə yetirə bilmədilər və hətta deyərdim ki, onlara qoyulan tələblərdən kənara çıxmağa başladılar. Bu baxımdan düşünürəm ki, Laçın dəhlizinin nəzarətə götürülməsi həm də Qarabağın tam şəkildə Azərbaycanın nəzarətinə keçməsi anlamı da daşıya bilər. İndi təbii ki, müəyyən bir zaman ərzində hesab edirəm ki, Xankəndi, Xocalı və Ağdərə ərazilərindəki yaşayış məntəqələri də Azərbaycanın dövlət qurumlarının fəaliyyəti altında olacaq. Bundan sonrakı hədəf isə Zəngəzur dəhlizinin açılmasıdır. Düşünürəm ki, Rusiya dırnağarası sülhməramlılarının Azərbaycanın Qarabağ bölgəsindən çıxarılması prosesi həyata keçiriləcək. Çünki Azərbaycan Laçın dəhlizinə nəzarəti həyata keçirəndən sonra artıq ermənilərə də açıq şəkildə mesajımız var ki, bizimlə yaşaya bilərsiniz. Yox əgər istəmirsinizsə, harda istəyirsinizsə, gedin orda yaşayın. Bu baxımdan hesab edirəm ki, Laçın dəhlizinin Dövlət Sərhəd Xidməti tərəfindən nəzarətə götürülməsi qanunsuz narkoticarətin, Qarabağa silah-sursat daşınmasının qarşısını alır və bilavasitə buna Azərbaycan nəzarət edir".

**Vasif Əlihüseyn**

*Aqil ABBAS*

## *BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI, YOXSA ÇAYXANASI?*

*Təxminən 75 il bundan əvvəl dünyadakı dövlətlər yığışıb bir təşkilat yaratdılar, adını da qoydular Birləşmiş Millətlər Təşkilatı. Hər il də bu təşkilata üzv dövlətlər milyonlarla dollar üzvlük haqqı ödəyirlər ki, bu təşkilat onların sözünü deyəcək, onların dərdinə əlac edəcək, cırılmış şalvarına yamaq vuracaq. Bir sözlə, at gəldi örkən apardı, it gəldi çarıq. Bu təşkilatın içində də bir təhlükəsizlik komitəsi qayırıblar, dünyanın beş vor zakon dövləti də bu komitənin üzvləridi. Hər hansı bir məsələ burda müzakirə olunanda gərək bu beş dövlət həmin məsələyə yekdilliklə səs versin, yoxsa xiyar əyri bitəcək. Və bu beş dövlət də bir-biriylə bir evin iti kimi deyil, itlə pişik kimi yola gedir.*



*Hələ bu günədək bu vor zakon dövlətlərin sözünün üst-üstə düşdüyünü görməmişəm və eşitməmişəm. Gərək ki, 1992-ci il idi, ömürlərində bircə dəfə Ermənistanın Azərbaycan torpaqlarını işğaldan azad etməsi ilə bağlı və Ermənistan ordusunun Azərbaycan ərazisindən çıxarılması ilə bağlı dörd qətnamə qəbul elədilər, ermənilər də o dörd qətnaməyə və onu qəbul edən vor zakonların üzünə tüpürdü, vəssalam. Bu komitə də heç bir qəti addım atmadı və məcbur olub BMT-nin qətnamələrini Ali Baş Komandanın sərkərdəliyi ilə öz əsgərlərimiz, öz ordumuz yerinə yetirdi.*

*Vor zakon dövlətlər, yəni ABŞ, Rusiya, İngiltərə, Fransa, Çin BMT-ni heç it yerinə də qoymur. Özləri nə istəyir edir. BMT-yə yanaşmadan istədikləri dövlətləri bombalayır, əhalisini qırır, hətta prezidentlərini də tutub ya asır, ya küçənin ortasında öldürdür, ya da həbsxanada çürüdüb öldürür. Və heç kim də onlara gözün üstə qaşın var demir.*

*Dünya dağılır, özü də BMT-nin gözü qabağında. Bir başıqapazlı Əfqanıstan var. Sovetlər girdi on il dağıtdı, axırda bacarmayıb çıxdı. Ondan sonra ABŞ girdi, Sovetlərin dağıda bilmədiyini o da dağıtdı, sonda o da rədd olub getdi. İndi də Taliban dağıdır. BMT isə yuxa qulağı sulayır.*

*İraq, Suriya dağılır. Daha doğrusu, vor zakonlar dağıdır. Yəmən nə gündə, Liviya nə gündə. Hindistanla Pakistan həftə səkkiz, mən doqquz bir-birinin təpəsinə raket yağdırır. Arada da hər iki tərəfdən qırılan müsəlmanlardı. Nigeriyada müsəlmanları qırırlar, Sudanda vətəndaş müharibəsidi.*

*İndi də tarixləri bir, mədəniyyətləri bir, dinləri bir, hətta dilləri də bir olan iki qardaşı - Rusiya və Ukraynanı digər vor zakon dövlətlər bir-birlərinə qırdırırlar. Az qala erməni-müsəlman davası Ukrayna-Rusiya davasının yanında toya getməli olub. BMT isə susur. Daha doğrusu , susmur ey, boş-boş zəvzəyirlər.*

*70-90-cı illərdə Filarmoniya bağının aşağısında məşhur bir çayxana vardı - Rəfaelin çayxanası deyirdilər. Bura yalnız şair və yazıçılar və bir də universitetin rüşvət almayan, daha doğrusu, almaq istəməyən kasıb müəllimləri yığışırdı. Bir inqilab yuvası idi - danışırdıq, ürəyimizi boşaldırdıq gələcək Azərbaycan naminə. Əlimizdən də bir iş gəlməzdi, topumuz yox, tüfəngimiz yox. Sonra da gecə hamı dağılışıb gedirdi evinə.*

*Yenə bu çayxananın 80-cı illərin sonu 90-cı illərin əvvəllərində milli azadlıq hərəkatında rolu oldu. Bu hərəkatın öncülləri Rəfaelin çayxanasının daimi müştəriləri idi. Bu gün üzdə olan siyasətçilərin çoxu da həmin çayxanadan çıxıb.*

*BMT-nin bu çayxana qədər də nüfuzu yoxdur. Ona görə də mən yazılarımda həmişə Birləşmiş Millətlər Təşkilatı deyil, Birləşmiş Millətlər Çayxanası yazıram.*

*BMT heç kimə lazım deyil. Dünya dövlətləri yığışıb yenidən bir təşkilat yaratmalıdırlar. Sərt nizamnaməsi, proqramı və ordusu olan bir təşkilat - qaynayan ocaqları söndürmək üçün.*

*Və sonda. BMT-nin indiki sədrinin də, ağzı pendir kəsməyən sədrinin də, adındakı "u" hərfi ilə bəzən "ö" hərfini səhv saldığıma görə qorxuram yazmağa, eldən ayıbdı.*

## *Səfir: "İrəvan şəhəri "Nemezis" terror əməliyyatına həsr olunan abidənin açılışı ilə murdarlandı"*

**"Dünən İrəvan xanlığının paytaxtı tarixin zibilliyinə atılacaq yeni "abidə" ilə "zənginləşdi", daha doğrusu murdarlandı. Yatıb yuxularında türk öldürməkdən, türk qanı içməkdən başqa heç bir şey görməyən hay yamyamları kollektiv terror təşkilatı "Nemezis"in "şərəfinə" abidə ucaltdılar".**

Bunu Azərbaycanın keçmiş XİN başçısı, ölkəmizin Bosniya və Hersoqovinadakı səfiri Vilayət Quliyev bildirib.

O xatırladıb ki, bu terror dəstəsinin qurbanları arasında Türkiyə və Azərbaycanın bir sıra tanınmış ictimai-siyasi xadimləri, dövlət adamları (o cümlədən ilk Cümhuriyyətimizin qurucuları) var.

"2015-ci ildə Şirak əyalətinin Maralik qəsəbəsində Osmanlı sədrəzəmi Tələt Paşanın qatili Soqomon Teyleryana (Tələt Paşa Berlində öldürülüb, Avropa məhkəməsi isə qatilə bəraət verib) biabırçı, düşük erməni fantaziyasının bəhrəsi olan "abidə" qoyulub. Teyleryanın əlində "böyük erməni yazıçısı və humanisti" Avetik İsaakyanın qisas üçün hədiyyə etdiyi tapança, ayağının altında isə Tələt Paşanın kəsilmiş başı var. Türk qardaşlarımız soyuqqanlılıqla "erməni soyqırımı"nı tarixçilərin işi adlandırırlar. Qonşu xalqa nifrət aşılanması, onun tarixinin təhrif olunması, tarixi şəxsiyyətlərinin alçaldılması isə "sənətşünasların işi" adlandırıla bilməz", - deyə səfir qeyd edib.

## *Tramp ABŞ-ı zibilxanaya bənzətdi*

**ABŞ-ın keçmiş prezidenti Donald Tramp amerikan dövlətinin hazırki prezidenti Co Baydenin miqrasiya siyasətini tənqid edib.**



Siyasətçi bildirib ki, onun prezidentliyi dövründə ölkə sərhədləri ABŞ tarixində ən qorunan sahə idi. Lakin Baydenin rəhbərliyi dövründə, miqrantların kütləvi axını ölkəni zibilliyə döndərib. Tramp bəyan edib ki, Baydenin hakimiyyəti ərzində cənub sərhədləri faktiki olaraq yoxa çıxıb, milyonlarla miqrant ölkə ərazilərinə soxulub.

"Bizim şəhərlər evsiz-eşiksiz, narkoman və qatı cinayətkarlar insanlarla dolub. Bu adamların əksəriyyəti çox təhlükəli cinayətkarlardı"- deyə eks prezident bildirib. Tramp əlavə edib ki, Baydenin hərəkətləri nəticəsində baş verən Əfqanıstan fəlakəti ciddi böhrana səbəb olub və dünyanı ücüncü dünya müharibəsi ərəfəsinə gətirib çıxarıb.

Donald Tramp söz verib ki, 2024-cü il prezident seçkilərində qalib gələrsə, ABŞ-ın Çindən iqtisadi asılılığını tamamilə aradan qaldıracaq və Çinin qarşılıqlı ticarətdə üstünlüyünü yox edəcək. Bununla yanaşı o, Çin lideri Si Tsinpini çox ağıllı adam hesab etdiyini vurğulayıb.

**Rüstəm Hacıyev**



*Vilayət Quliyev*

# VƏTƏNİMİZİ BƏYƏNMİRİK?

Son zamanlar bədnam qonşular demək olar ki, hər gün sosial şəbəkədə müxtəlif dağ, dərə, kilsə, ağac, ev və s. şəkli qoyub onun "müqəddəs Hayastanın " bir parçası olduğunu elan edirlər.

Hətta özlərinə məxsus olmayan yerlərin (Ağrı dağı, Van gölü, Bayburd qalası) şəkillərini də özlərininki adı ilə paylaşırlar. Və bu şəkillərə minlərlə, bəzən hətta on minlərlə like işarəsi qoyulur, hədsiz təriflər yazılır, ətrafında müzakirələr açılır.

Təbii ki, hər bir işdə onları təqlid etmək fikrindən uzağam. Amma baxıram ki, Bakının, Xəzərin bu göz oxşayan mənzərəsi saatlar boyu fb-dədir. Amma cəmisi 10 nəfər bəyənib. Vətənimizin gözəl bir guşəsi təqdim olunursa, ona niyə laqeyd yanaşırıq? Yoxsa bəyənmirik? Düşük mövzular, səviyyəsiz manıslar və s. ətrafında yaxa yırtmaqdansa bir az yurd, vətən təəssübkeşi olmaq daha yaxşı deyilmi?



*Elxan Şükürlü*

# Yalanı müdafiə etməyin ki, doğruların...

*Azərbaycan Yüksəliş Partiyasının (AY Partiya) sədri Anar Əsədlinin dələduzluq ittihamıyla həbsi və özünə yaxın şəxslərin ortaya qoyduqları təkzibedilməz faktlar bizim uzun illərdir vurğuladığımız bir məsələni yenidən aktuallaşdırır: ölkənin siyasi həyatında sözüylə əməlləri üst-üstə düşməyən, xalqla və yaxın ətrafıyla münasibətlərdə dürüst və səmimi olmayan, hər işini yalan və saxtakarlıq üzərində quran, keçmişi bulaşıq və ləkəli adamlar çoxluq təşkil etdikcə, cəmiyyətimizdə siyasətçilərimizə inam və rəğbət, siyasi partiyalarımıza isə kütləvi axın qətiyyən olmayacaq!*

*Ölkəni daha yaxşı idarə etmək iddiasında olan və bu məqsədlə ali siyasi hakimiyyət uğrunda mübarizə aparan bir siyasətçini, bir partiya sədrini xalq o vaxt sevər və arxasınca gedər ki, hər şeydən öncə, onun xalqla səmimi olduğuna, siyasi fəaliyyətində xalqın adından və maraqlarından öz şəxsi mənfəətləri üçün sui-istifadə etməyəcəyinə, təmiz və dürüstlüyünə əminlik olsun!*

*Sən yalançısansa, başqasını yalan danışmaqda ittiham edə və ondan dürüstlük, şəffaflıq tələb edə bilməzsən! Sən oğru, əliəyrisənsə, başqasının oğurluğuna, əyriliyinə irad tuta və onu da doğru yola dəvət edə bilməzsən! Sən əxlaqsızsansa, başqasına əxlaq dərsi keçməyə qalxa və onun hansısa dəyərinə toxuna bilməzsən!*

*Yox, para ağlına və iradənə hökm edəcəksə, daha siyasətlə məşğul olma, get, başqa fəaliyyət növü seç!*

*Ancaq çox təəssüf ki, bu gün Azərbaycanın təkcə əksər siyasi partiyalarında yox, ölkənin ictimai-siyasi həyatının özəyini təşkil edən əksər institutsional mexanizmlərdə - media və QHT sektorunda eyni rüsvayçı durum hakimdir - dələduzlar at oynadır, fırıldaqçılar öndədirlər və öz ictimai-siyasi statuslarını, populyarlıq amilini də maddi qazanc, siyasi özünümüdafiə və dövləti şantaj vasitəsinə çeviriblər!*

*Görün, son vaxtlar nə qədər media, QHT rəhbəri, siyasətçi konkret "iş üstə" yaxalanıb, həbsə atılıb! Hamısı da iddia edir ki, guya, onları hökumət məhz "barışmaz siyasi fəaliyyətlərinə görə" hədəfə alıb!*

*Ən pisi də odur ki, konkret əməllərinə görə tutulduqları halda, səmimi peşimançılıq keçirmək, səhvlərini etiraf etmək və xalqdan da üzr istəmək əvəzinə, özlərini haqlı çıxarmağa çalışır və hələ bir bizi də qınayırlar ki, niyə onların müdafiələrinə qoşulmuruq!*

*Əlbəttə, mən Anar Əsədlinin və eləcə də ictimai-siyasi sektordan tanıdığım digər şəxslərin həbslərinin tərəfdarı deyiləm - xüsusən də daha böyük cinayətlərdə suçlanan şəxslərin çöldə rahat gəzdikləri şəraitdə! Azərbaycanda hər kəsin qanun qaşısında bərabər olmadığını yaxşı bilir və indiyədək sifarişlə işləyən, pulun qulu olan Azərbaycan məhkəmələrinə "ədalətin təmin olunduğu müqəddəs ünvan" kimi də baxmıram!*

*Yaxşı, bəs, müdriklərin bütün qanunlardan üstün, ən ali mühakimə ünvanı saydıqları vicdan məhkəməsinin qarşısında duranda, nə cavab verəcək, nə danışacaqsınız?! Onun ədalətli hökmündən qaçmaq ki mümkün deyil!*

*AY Partiyada yaxından tanıdığım, istedadlarına və qabiliyyətlərinə inandığım müəyyən təmiz insanların məyusluğunu, öz sədrlərinin azdlığa çıxması üçün ictimai dəstək arayışlarını anlayır, darda qalan yoldaşa kömək etmək cəhdlərini yüksək qiymətləndirirəm. Ancaq onlar da qəbul etməlidirlər ki, yalan üzərində qurulan heç nə dayanıqlı ola bilməz və hər işi siyasiləşdirmək də heç doğru deyil!*

*Yalanı müdafiə etməyin ki, doğruların müdafiəsinə qalxanda, ictimai dəstəyiniz olsun!*

## *Erməni lobbisin danışan dili: Konqresmen Keti Porterin "Artsax" tamaşası*



**"Azərbaycan tərəfindən Laçın dəhlizinin qarşısını almaqla separatçı rejimin (Artsaxın) etnik ermənilərinin həyatını çətinləşirərək vətənlərini tərk etməyə məcbur edir".**

Adalet.az xəbər verir ki, bunu ABŞ Konqresinin üzvü Keti Porter qondarma "erməni Soyqırımı"nın 108-ci ildönümü münasibətilə ABŞ Konqresində təşkil olunan tədbirdə deyib. Konqresmen Laçın yolunun Azərbaycan tərəfindən "bağlanmasını" pisləyib.:

"Bizim buna cavabımız da aydın olmalıdır. Biz Azərbaycanın təcavüzünə görə cavab verməsini tələb etməliyik. Biz həmçinin Bayden administrasiyasına təzyiq göstərməliyik ki, fəal olsun və bu blokadanın aradan qaldırılması üçün addımlar atsın.

Amerika vergi ödəyiciləri Azərbaycanın erməni xalqına qarşı düşmənçiliyinə sponsorluq etməməlidir. Nə qədər ki, təcavüz davam edir, Azərbaycan heç bir hərbi dəstək almamalıdır" - Porter bildirib.

Qeyd edək ki, konqresmen ötən ay çıxışlarında da bu tip mövzuları aktual saxlamağa çalışaraq mediaya açıqlamalar vermişdi.

Eyni fikirləri səsləndirən ermənipərəst siyasətçi "Mən erməni xalqı və Amerikadakı erməni icması ilə həmrəyliyimi ifadə etməkdə davam edirəm" -deyə Azərbaycanı qaralama kampaniyasına qoşulduğunu ortaya qoyub.

**Əntiqə Rəşid**



*Etibar Əliyev*

# ŞUŞASIZ BİZİM İŞİMİZ YARIMÇIQ OLAR...

**"Ya bir yol tapacağam, ya da bir yol açacağam." Bu, karfagenli general Hannibalın məşhur sözüdür.**

**Hannibal böyük bir strateq, böyük komandan idi. Apennini, yəni Alp dağlarını öz ordusu ilə tarixdə ilk dəfə o keçib. Dağları aşdı, İtaliyaya girdi və Romanı çaşbaş qoydu. Heç kəs onu orada gözləmirdi, Sözünü bu şəkildə yerinə yetirdi. Bir də düşünün ki, bu ordu Alp dağlarını Hannibalın Afrikadan gətirdiyi fillərlə keçir. Kim edə bilərdi bunu? Kim cürət edərdi? Yolunu özü açdı və oradan keçdi.**

**Romanı birdən -birə dərd və qorxu bürüdü. Bu hadisə romalıların xatirəsində elə yer etdi ki, uşaqlarını da uzun müddət Hanniballa qorxutdular. hannibalın bir hədəfi vardı, hədəvinə çatmaq üçün yollar axtarırdı. Ona güc verən, onu hərəkətə gətirən məhz bu hədəfi idi.Atatürk Hannibalı çox bəyənirdi. Həyatını, strategiyalarını tədqiq etmiş, gördüyü işləri mənimsəmişdi.**

**Düşüncə tərzi də müəyyən formada ona bənzəyirdi: vətəni mütləq xilas etməlisən, başqa variant yoxdur. Hannibal o dağdan ordusunu aşıracaq, Mustafa Kamal Paşa Anadolunu xilas edəcəkdi. İkisinin də bir hədəfi var idi, o hədəfi yerinə yetirə bilməsəydilər, nələrin baş verəcəyinin fərqində idilər.**

**Karfagen Romanı yox edə bilməsəydi, özü yox olacaqdı. Eyni şəkildə Mustafa Kamal vətəni müdafiə etməsəydi, vətən deyə bir şey qalmayacaqdı. "Olmaz" ifadəsini heç biri qəbul etmirdi. Heç birinin vaxtı yox idi. Buna görə özlərinə bir yol açdılar. Həyatı bu cəhdlər irəli aparır."**

*İlbər Ortaylının İnsan gələcəyini necə qurmalıdır? kitabından*

**Prezident İlham Əliyev: "İşğal edilmiş torpaqların hər bir qarışı, hər bir şəhər bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlə müqayisədə, o biri şəhərlə müqayisədə eynidir, bərabərdir. Ancaq siz də yaxşı bilirsiniz ki, Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimizdir, qədim mədəniyyət ocağıdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edibdir. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar." Müzəffər Ali Baş Komandanımız dedi və etdi...**

**Yolu özü və Azərbaycan əsgəri açdı.**

# İlk mərmini atan bu işlərdən zərərli çıxacaq



*Səxavət Məmməd*

**Ermənistanla sərhəddə sərhəd-buraxılış məntəqəsinin qurulması son aylar baş verən proseslərin məntiqi sonluğu idi.**

Azərbaycan ordusu Xəlfəli yolunda və Laçın istiqamətindəki əməliyyatları sərhəd-buraxılış məntəqəsinin xəbərçisi idi. Hətta bu iki əməliyyatdan sonra Azərbaycanla Ermənistan arasında ilk sərhəd-buraxılış məntəqəsinin yerinin müəyyən olunduğunu yazmışdım.

Əvvəlcə, Ermənistan tərəfi sərhəd-buraxılış məntəqəsi qurmağa başladı. Azərbaycanda yenə çoxbilmişlər ekranları zəbt edib səslərini başlarına atdılar ki, bu, qeyri-qanunidir. Ermənistan dövləti öz ərazisində sərhəd-buraxılış məntəqəsi qurur, bundan sənə nə? Öz hüquqlarını bilməyən adamların qanundan danışması da ayrı aləmdir.

Azərbaycan tərəfi də Həkəri çayının üzərindəki körpünün üstündə sərhəd-buraxılış məntəqəsi qurdu. Məsələ ondadır ki, bu proses heç də asanlıqla başa gəlmədi. İki gün ərzində Rusiya sülhməramlıları Azərbaycan tərəfinin sərhəd-buraxılış məntəqəsi qurmağına ciddi şəkildə mane olmağa çalışıb. İki gün ərzində ruslar əllərindən gələni ediblər ki, Azərbaycan tərəfi geri çəkilsin. Gərginliyin olmasını videolardan da görə bilərik.

Belə ki, Rusiya ordusu Azərbaycan tərəfinin qarşısında yolu bloklayıb, Azərbaycan tərəfi də eynilə hərbi texnikalarla yolu kəsib. Rusiya tərəfinin atdığı bu addımla Qarabağda yaşayan ermənilər çarəsiz vəziyyətə düşüblər. Hesab edirəm ki, Azərbaycan tərəfi bundan informasiya müharibəsi üçün istifadə edə bilər.

Yeri gəlmişkən, Rusiya Müdafiə Nazirliyi baş verənlərlə bağlı açıqlama yaydı və sərhəd-buraxılış məntəqəsini "razılaşdırılmamış" adlandırdı. Təkcə ərazidən alınan informasiya yox, rəsmi olaraq "razılaşdırılmamış" adlandırma belə Azərbaycan ordusu ilə ruslar arasında gərginliyin olmasından xəbər verir. Hesab edirəm ki, bu gərginlik qısa zamanda keçməyəcək. Çünki rusların bütün dayaqları laxlamış olur. Rusiya nəinki Qarabağda daha beş il qalmağı qaranti etmək istəyir, hətta iki ölkənin dövlət sərhədinə də nəzarət etmək niyyətindədir. Dolayısı ilə planın baş tutması üçün ruslar gərginliyi artıracaqlar. Yeri gəlmişkən, ruslar bunu sərhəd istiqamətində baş verən insidentlərdən sonra da təklif etmişdilər. Azərbaycan tərəfi buna etiraz etmişdi.

O zaman Paşinyan hətta Rusiyanın bu təklifinə ikiəlli razı idi. KTMT-nin belə missiyasının gəlməsini arzulayırdı. Düzdür, ondan sonra körpünün altından çox sular axıb: Ermənistan KTMT-nin birgə bəyanatına imza atmadı, KTMT-nin ərazisində təlimlərinə razılıq vermədi, üstəgəl, NATO təlimlərinə qatıldı. Rusiya hələ də NATO təlimlərinin hesabını Ermənistandan istəyir.

Dolayısı ilə Rusiya təkcə Qarabağda qalmaq niyyətində deyil. Ruslar həm də dövlət sərhədinə yerləşmək niyyətindədirlər. Hesab edirəm ki, son gərginlik də bu planın tərkib hissəsidir. Azərbaycan tərəfi, xüsusilə sahədə bu işlərlə məşğul olanlar son dərəcə diqqətli olmalıdır. İlk mərmini atan bu işlərdən zərərli çıxacaq.

Rusiya tərəfi Qarabağda atəşkəsin pozulmasını da elan etmişdi. Hesab edirəm ki, bu, gözlənilən idi. Rusiya tərəfi də gözəl bilir ki, Qarabağda hər an hərbi əməliyyatlar ola bilər. Laçında sərhəd-buraxılış məntəqəsinin qurulması çox şey deməkdir, ancaq hər şey demək deyil.

Məsələlərə soyuq başla baxmaq lazımdır. Azərbaycanın qarşısında duran əsas təhlükə Qarabağdakı separatçı rejim və silahlılardır. Azərbaycan, eyni zamanda, Sərsəng su anbarını və Ağdərə-Kəlbəcər yolu məsələsini qısa zamanda həll etməlidir.

**Azərbaycan sərhədlə bağlı riskli, nəticə verən addımlarını Qarabağ istiqamətində də atmalıdır. Yoxsa sərhəd və Qarabağ daxili və xarici siyasət kimi görünəcək...**

# "Sərhəd-keçid məntəqəsinin yaradılması bölgədə təhlükəsizliyi təmin edəcək"

**Ermənistan öz ərazi bütövlüyünü qorumağa çalışdığı kimi, Azərbaycanın da ərazi bütövlüyünə hörmətlə yanaşmalıdır. Bunu sözdə yox, əməldə də etməlidir. Heç kimin, o cümlədən də Ermənistanın Azərbaycan ərazisindən ölkəmizin suverenliyinə zidd olaraq istifadə etməyə ixtiyarı və hüququ yoxdur.**

Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsənin qurulması ölkəmizin suveren hüququ və suverenliyinin növbəti təsdiqidir. Bu, tarixi və strateji əhəmiyyətli qərardır.

Məlumdur ki, aprelin 22-də Ermənistana məxsus yük avtomobilləri ilə iki ədəd hərbi məqsədlər üçün yaşayış konteynerləri və hərbi avtomobillər konvoyu Azərbaycan ərazisinə keçirildi. Eyni zamanda Ermənistan tərəfindən Laçın-Xankəndi yolunun başlanğıcında Azərbaycan ərazisinə ən yaxın məntəqədə hərbi infrastruktur qurmaq fəaliyyəti də nəzarət-buraxılış məntəqəsinin qurulumasını zəruri edirdi. Ümumiyyətlə, ötən il dekabrın 12-dən etibarən etiraz aksiyasının başlanması ilə yolda nə-



zarət de-fakto Azərbaycan tərəfdən həyata keçirilirdi.

44 günlük Vətən Müharibəsindən sonra, 10 noyabr 2020-ci il üçtərəfli bəyanatın müddəalarına zidd olaraq, Ermənistan və qanunsuz erməni hərbi birləşmələri yoldan hərbi məqsədlər, o cümlədən minaların daşınması üçün istifadə edir. Azərbaycanın talan olunan təbii sərvətləri də bu yolla daşınırdı. Mina terroru və diversiyalalar törədilir. Artıq mina qurbanlarının sayı 300-ə çatıb.

Bu yoldan sui- istifadənin nəticəsidir ki, indi Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində 10.000 nəfərdən artıq şəxsi heyəti olan ordu yaradılıb. Onlar terrorçulardır və Ermənistan tərəfi bu terrorçu qüvvələrin imkanlarını davamlı olaraq artırmaqla məşğuldur. Belə olan halda Azərbaycan tezliklə Laçın daxil olmaqla digər azad olunmuş ərazilərə köçürüləcək mülki əhalinin təhlükəsizliyini təmin etməlidir. Bu məsələdə heç kim Azərbaycanın daxili işinə qarışa bilməz.

Digər tərəfdən, Ermənistan birtərəfli qaydada Laçın-Xankəndi yolunun üzərində post qurub. Belə olan halda Azərbaycan da təbii ki, adekvat addım atmalı idi.

Ermənistan bu məsələ ətrafında da "humanitar fəlakət" şousu yaratmağa çalışır, amma nəticəsi olmayacq. Beynəlxalq hüquqa görə də dövlətin öz suveren ərazilərini qanunsuz müdaxilələrdən qoruması və sərhəd-keçid məntəqələrində nəzarəti təmin etməsi onun suveren və ayrılmaz hüququdur. Postun qurulması Qarabağda yaşayan mülki ermənilərin yoldan istifadəsini məhdudlaşdırmır. Əksinə, qanuni və tənzimlənən gediş-gəliş üçün imkan yaradır. Odur ki, Qarabağ erməniləri artıq yaranmış imkanı düzgün dəyərləndirməlidir.

**İrəvanda revanşistlər bayraq yandırmaqdansa, sərhəddə atəşkəsi pozmaqdansa, postmünaqişə reallıqları ilə barışmalıdır.**

**Könül Nurullayeva,**
**Millət vəkili**

# Kanada ermənilərə qoşulub "qışqırmağa" başladı: Bakıya qarşı bəyanat

**Yazıçı Jemçuynikovun ermənilərlə bağlı sözləri ilə desək, qışqıra-qışqıra danışmaq bu xalqın xəstəliyidir: " Özgə millətləri də özlərinin xeyrinə qışqırmağa, yalan informasiya yaymağa cəlb edə bilirlər". Yazıçının bu fikrini addımbaşı təsdiqləmək məcburiyyətində qalırıq. Bu gün Kanada da ermənilərə qoşulub "qışqırmağa" başlaması bizi qətiyyən təccübləndirmir.**




Adalet.az xəbər verir ki, erməni toplumunun "məzlum və əzilən" siması, Kanada dövlətini hərəkətə keçirib. Erməni mediası hazırda bu haqda yazır. Hətta bu barədə Kanada Xarici İşlər Nazirliyinin bəyanat imzalayıb. Xəbərdə deyilir ki, Kanada Azərbaycanın xarici dünya ilə yeganə əlaqə vasitəsi olan Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsi yaratmasından dərin narahatdır:"Bu hərəkət regionda sabitliyə və sülh prosesinə xələl gətirir.

Biz Azərbaycan hakimiyyətini Laçın dəhlizini yenidən açmağa çağırırıq. İnsanların və malların sərbəst hərəkətini təmin etmək üçün açıq və maneəsiz qalmalıdır. Kanada tərəfləri danışıqları bərpa etməyə və sərhəddə daha da gərginləşməyə və ya hərbi əməliyyatlardan çəkinməyə çağırır", - Kanada Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda deyilir.

Qeyd edək ki, hazırda Kanada da 50.500-dən artıq erməni yaşadığı, onların böyük qisminin ölkənin ən böyük Toronto, Monreal və Vankuver şəhərində məskunlaşdığı deyilir. 24 aprel saxta erməni soyqırımı ilə bağlı ermənilər Kanadanın Britaniya Kolumbiyası əyalətinin Milli Assambleyasının qarşısında erməni separatçılarının əski parçasını da qaldırıblar.

Məlumata görə, Kanadada yaşayan ermənilər bayrağın qaldırıldığı gün əyalət parlamentinin qarşısına toplaşaraq qondarma "erməni soyqırımı"nın ildönümünü qeyd ediblər.

***P.S.* Əziz soydaşlarım, siz Kanadada 50, 500 erməni yaşamasını kiçik rəqəm hesab etməyin. Bu 50,500 nəfərin Kanada da böyük bir diaspora və lobbiləri var. Hətta Kanadanın Toronto şəhərində "Hayastan" ümumerməni fondunun yerli filialı Qarabağdakı ermənilərə hər il böyük məbləğdə ianə göndərir. Məsələn 2018-ci ildə təkcə Toronto şəhərində keçirilən 1 gecədə 1 milyon dollardan artıq vəsait toplanaraq separatçılara göndərilib.Hər il ianə kampaniyası bütün sürəti ilə davam edir.**

**Əntiqə Rəşid**

*Aqil ABBAS*

# SƏNİN KİTABINI...

**XX əsrin əvvəllərində millətin nə kitabı vardı, nə qəzeti, nə də məktəbi. Yalnız böyük şəhərlərdə məktəblər fəaliyyət göstərirdi, onların da sayı çox az idi. Ölkədə cəhalət hökmranlıq edirdi. Ayrı-ayrı ziyalılar xalqı cəhalətdən qurtarmaq üçün özlərini şam edib yandırırdılar. Xalqı cahillikdən xilas etmək yolları axtarırdılar və tapırdılar. Mirzə Fətəli Axundovdan, Həsən bəy Zərdabidən nur alan yeni bir nəsil yetişirdi. Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Mirzə Cəlil, Haqverdiyev, Üzeyir Hacıbəyov, Hüseyn Cavid, Məmməd Əmin Rəsulzadə, Cəfər Cabbarlı, Məhəmməd Hadi, Sabir, Ömər Faiq Nemanzadə, Ceyhun Hacıbəyov... İlahi, Allahın bu millətə nə qədər yazığı gəlib ki, qısa zaman arasında milləti cəhalətdən çıxara biləcək böyük şəxsiyyətlər bəxş edib. Və adlarını çəkmədiyim nə qədər qəxsiyyət Danko kimi ürəyini çıxarıb məşəl edib ki, milləti cəhalətdən çıxarsın. Və bu dahilər az-çox istəklərinə çatıblar. Ən azı Şərqdə ilk demokratik respublika yaradıblar.**

**İndi XXI əsrin əvvəlləridi. Yenə bir cəhalət hökm sürür. Yenə millət kitabsız, qəzetsiz qalıb. Düzdür, məktəblərin sayı artıb, amma təhsilin səviyyəsi artmayıb. Kitabsız-qəzetsiz qalan millət yığışıb bir telefonun başına. İndi milləti kitab yox, qəzet yox, telefon idarə edir. Və bu telefonu yönləndirənlər də oturub ABŞ-da. Üç-dörd şəhər və rayonu çıxmaq şərtilə, demək olar ki, rayonların 90 faizində kitab mağazası yoxdur. Kitab mağazası cəhənnəm, heç bir normal kitabxana da yoxdur. Ümid qalır məktəb kitabxanalarına. Və təbii ki, məktəb kitabxanalarında da istədiyin ziyalının, filosofun, şairin, yazıçının əsərini tapa bilməzsən. Bu kitabxanalara yalnız dövlətin nəşr etdiyi kitablar göndərilir.**

**Buyurun, hansısa bir kitabxanada, söhbət rayonlardan gedir, Vaqif Səmədoğlunun, Ramiz Rövşənin, Vaqif Bayatlının, Zakir Fəxrinin, Afaq Məsudun, Şərif Ağın, Aqşin Yeniseyin, İlqar Rəsulun, Salam Sarvanın, Ayaz Arabaçının, Kəramət Böyükçölün, Seymur Baycanın, Zahir Əzəmətin, Kənan Hacının və adını çəkmədiyim şair və yazıçıların bircə əsərini, bircə kitabını tapın. Tapa bilməzsiniz.**

**Əvvəllər bir kitab kollektoru vardı, təzə çıxan kitabları rayonlardakı kitab mağazalarına və kitabxanalara dağıdırdı. Dəmir yolu idarəsinin arxasında bir binası və anbarı yerləşərdi, nə qədər də adam çalışardı. İndi həmin binada hansısa xarici maşının hissələri satılır.**

**Yaxşı ki, hərdən bir Bakıda, Sumqayıtda, bəzən də Gəncədə kitab festivalları keçirilir. Camaat kitabı görür. Bu festivallarda elə bir qələbəlik yaranır, amma yaxşı olar ki, bu festivallar kənd rayonlarında da keçirilsin. Kitabsız qalan camaat kitab görsün. Heç olmasa bu festivallarda istədiyi kitabı tapıb alsın. Azərbaycan təkcə Bakıdan, Sumqayıtdan və uzaqbaşı Gəncədən ibarət deyil.**

**Düzdür, rayonlarda elektron kitabxana dəbə düşüb. Amma o kitabxanada adam görmürəm. Əlində telefon var da, o, kitabxanaya niyə getsin ki? Əlindəki telefonda da reytinq dalınca qaçan saytlar və sosial şəbəkələr at oynadır.**

**Kitabın ayrı bir gözəlliyi və özəlliyi var, hətta qoxusu var. Bir neçə il bundan əvvəl Muzey Mərkəzində Mədəniyyət Nazirliyi bir tədbir keçirirdi, sağ olsunlar, məni də dəvət etmişdilər. Söhbət ondan gedirdi ki, day kitab nəyə lazımdır? İnternet var, elektron kitabxana var. Bir sözlə, mədəniyyət nazirimiz başda olmaqla, çıxış edənlərin hamısı kitabın əleyhinə danışdı.**

**Mənə də söz verdilər. Dedim ki, kitabın ətri var, qoxusu var, sevdiyin qız kimi sinənin üstünə qoyub yata bilirsən. Bəzən qayıdıb yenidən hansısa səhifəni təkrar oxuyursan. Orda bir az kobud dedim, burda mədəni yazıram. Dedim ki, Əbülfəz müəllim, ya kompüterdə kitab oxudun, ya da əleyhqaz geyinib qızılgülü iylədin, eyni şeydi.**

**Bakıdakı məşhur kitabxanalarda da yuxarıda adlarını çəkdiyim şair və yazıçıların, ziyalıların kitablarını tapmaq mümkün deyil. Gərək özləri göndərələr kitabxanalara.**

**Düzdür, indi Mədəniyyət Nazirliyi sifarişlə kitab alır kitabxanalar üçün. Amma kimlərin kitabını sifariş verir, bunu bilən yoxdu. Yeni mədəniyyət nazirimiz Adil Kərimli Teatr Forumu keçirtdi, Kino Forumu keçirtdi, yaxşı olar ki, bir Kitab Forumu da keçirsin. Milləti yenidən kitaba qaytarmağın yollarını araşdıralar, axtaralar və tapalar. Və millət hansısa xarici dövlətlərin ideologiyasına, dininə, məzhəbinə, təriqətinə qulluq edən kitabların ümidinə qalmaya.**

**Və sonda. Keçmişdə belə bir söyüş vardı: "Sənin kitabını...". Bu söyüşü tərbiyəsiz, mədəniyyətsiz, özündən müştəbeh adamlara ünvanlayardılar. Yəni mənası o idi ki, sən hansı kitabdan tərbiyə almısan?! Adamın tərbiyəsini, mədəniyyətini oxuduğu kitabla müəyyənləşdirirdilər. Nə isə...**

**Kitab barədə bir-iki kəlmə dedik, keçək qəzetlərə. Hansı rayonda qəzet köşkü var? Hansı qəsəbədə qəzet köşkü var? Hələ kəndləri demirəm.**

**Yoruldum, qəzet məsələsi qalsın növbəti yazıya.**

*Əntiqə Rəşid*

# Dünyanın ən ağıllı və uzaqgörən 30 ermənisi...



*Bildiyiniz kimi, Laçın yolunda sərhəd-keçid məntəqəsinin yaxınlığında məlumat lövhəsi quraşdırılıb. Lövhədə "Diqqət! Azərbaycan Respublikasının ərazisinə daxil olursunuz" xəbərdarlığı əksini tapması hər birimizin ürəyincə oldu. Düzü müharibədən sonra belə sevindiyim olmamışdı.*

*Amma məntəqə yaradılmamışdan əvvəl Qarabağdakı separatçıların həmişəki kimi hay-həşiri yenə dünyanı başına götürmüşdü. Zatən müharibə bitəndən elə bu işlə məşğuldurlar, amma son günlər, "blokada", "soyqırım" deyib dünya ictimaiyyətini girinc eləmişdilər. İddia etdilər ki, Azərbaycan Ordusu Laçın rayonu ərazisində Həkəri çayı üzərindəki körpünü bağlayıb. Əlbəttə belə olmalıydı. Çünki, ondan əvvəl Azərbaycan Ordusunun hərbçiləri Şuşa rayonu ərazisində minaya düşdü. 3 hərbçimizin yaralandığı insidentin araşdırılması zamanı bəlli oldu ki, minalar 2021-ci ildə Ermənistanda istehsal olunub və 2020-ci il müharibəsindən sonra ermənilər tərəfindən Azərbaycan Ordusunun təchizat yoluna döşənib. Həmçinin 21 və 22 aprel tarixlərində rus sülhməramlıların müşahiyəti ilə ermənilərin Azərbaycan ərazisinə hərbi təyinatlı yüklər daşıdığı da üzə çıxıb. Yüklərin Həkəri çayının üzərindəki körpüdən keçməklə daşındığı da üzə çıxdı. Bundan sonra məntəqə yaradılması da, xəbərdarlıq lövhəsi qoyulması separatçılara və onların havadarlarına çox haqlı və yerində bir cavabdır!*

*Ötən gün xəbərləri izləyəndə, bir məlumat gözümə sataşdı: "Xankəndidə yaşayan otuz nəfər erməni rus sülhməramlıların maşınında ölkəmizi tərk edib".*

*Olayla bağlı İctimai TV görüntü də paylaşmışdı.*

*Xəbərə xeyli sevindim. Ona görə yox ki, separatçılar yurdumuzdan gedir. Sevincimin səbəbi nəhayət separatçıların Azərbaycan dövlətinin siyasətini, qətiyyətini, siyasi iradəsini, nəhayət gələcək planlarını anlamaqları və buna uyğun addım atmalarıdır! Bir sözlə, ermənilər indiyənə qədər bu dərəcə anlayışlı hərəkət göstərməmişdilər. Onların bu hərəkətini qiymətləndirir və həmin o 30 nəfəri "dünyanın ən ağıllı və uzaqgörən" erməniləri adına layiq görürəm...*

*Kaş ki, Qarabağdakı separatçıların hamısı sizin kimi ağıllı və uzaqgörən ola biləydi...*

# Anar Əsədlini həbsə aparan heyrətamiz faktlar

## Elçibəyin köməkçisi hər şeyi açıqladı

## “Anar Əsədlinin yaxınları bu məsələni siyasiləşdirməyə çalışır, lakin...”

***Xəbər verdiyimiz kimi, aprelin 21-də Azərbaycan Yüksəliş Partiyasının sədri Anar Əsədli həbs edilib. Partiya sədri dələduzluqda təqsirləndirilib. Onun barəsində Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə cinayət işi başlayıb.***

***Xatırladaq ki, Anar Əsədli bir müddət əvvəl tanışları Oqtay Qasımov və İlham Hüseynovun şikayətləri əsasında DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə çağırılmışdı. Şikayətçilər Anar Əsədlini onlara olan borclarını qaytarmamaqda ittiham edirlər.***

***Mərhum eks-prezident Əbülfəz Elçibəyin köməkçisi Oqtay Qasımov Anar Əsədlinin həbsi ilə bağlı Musavat.com-a müsahibə verərək, sual doğuran bir sıra məsələlərə aydınlıq gətirib. Həmin müsahibəni təqdim edirik:***

**- İstərdik ki, daha əvvəldən başlayasınız. Necə oldu ki, bu hadisə baş verdi?**

- 7 aydır ki, hüquqi proses başlanılıb. Mən hər zaman bu məsələ ilə bağlı mətbuata açıqlama verməkdən yayınmağa çalışdım və düşündüm ki, məsələ normal şəkildə həllini tapa bilər və başqa yönə istiqamətləndirilməz. Lakin təəssüf ki, həm bu müddət ərzində, həm də Anar Əsədlinin həbsi ilə bağlı informasiya yayıldıqdan sonra onun yaxınları tərəfindən ”Facebook”-da müxtəlif statuslar paylaşıldı və mən bu günə qədər olan düşüncənin dəyişmədiyini gördüm.

Əvvəla belə bir hadisənin baş verməsinə təəssüf edirəm. Çünki Anar Əsədli ilə bizim uzun müddət münasibətlərimiz olub və bu münasibətlər nəticəsində hansısa iş birliyimiz yaranıb. Lakin sonda belə bir məqama gəldik.

Mən ötən gün Anar Əsədlinin müavinlərindən birinin ”Facebook” statusunu oxuduqdan sonra düşündüm ki, artıq hüquqi proseslərdə bir mərhələ bitib və cəmiyyət üçün müəyyən aydınlıqlar gətirmək lazımdır. Çünki Anar Əsədlinin ətrafı, yaxınları o cümlədən vəkilləri hüquqi prosesdən qaçaraq, məsələni siyasiləşdirməyə cəhd etdilər, hansı ki, burada heç bir siyasi məsələdən söhbət gedə bilməz. Bizim aramızda baş verənlər sırf işlə bağlı məsələdir. Yəni iş adı ilə götürülmüş pulun geri qaytarılmaması ilə bağlı məsələdir ki, sonda bizi hüquq mühafizə orqanlarına gətirib çıxardı. Bunun da məsuliyyətini mən daşımıram. Çünki mən Anar Əsədliyə, həm də yaxınlarına dəfələrlə bildirdim ki, bizi başqa istiqamətlərə yönəndirməsinlər, məsələni həll etsinlər. Lakin başqa mənzərə ilə qarşılaşdım. Belə ki, ötən ilin oktyabr ayında hüquq mühafizə orqanlarına müraciət etdikdən sonra sosial şəbəkələrdə və ictimai rəydə mənə qarşı mənəvi terror başladıldı. Mənim və İlham Hüseynovun müraciətləri guya hansısa dövlət qurumu tərəfindən təşkil olunmuş iş, təzyiq adlandırıldı, məsələyə başqa don geyindirməyə çalışdılar. Ötən gün də onun müavini ”Facebook” sosial şəbəkəsində status yazdı ki, ”hər şey gözəl olacaq, Azərbaycanda partiya liderinin həbs olunması ilk dəfə deyil, yaxın zamanlarda hər kəs öz saatlarını AY saatına uyğunlaşdıracaq” və sairə.

**- Gizlin deyilsə, açıqlayardınız. Anar Əsədli sizdən nə qədər pul almışdı? Bəzi iddialar var ki, bu pulu partiya işlərinə xərcləyib. Başqa versiyalar da var ki, şərik biznes qurmaq istəmisiniz. Bu iddiaların hansı doğrudur?**

- Bir daha qeyd edirəm ki, Anar Əsədli ilə bizim tanışlığımız çox uzun zamana, 1997-ci ilə təsadüf edir. Həmin dövrdə onunla mərhum eks-prezident Elçibəylə Kələkidən qayıtdıqdan sonra tanış olmuşuq. Daha sonra münasibətlərimizdə bir yaxınlaşma baş verdi. Qeyd edim ki, onun ictimai fəaliyyətində mənim müəyyən yardımlarım, dəstəyim olub.

2016-cı ildə Anar Əsədli mənə Türkiyədə ”ev alqı- satqısı, təmiri” biznesi ilə məşğul olduğunu bildirərək, ortaq işəlməyi təklif etmişdi və bununla əlaqədar olaraq məndən üst-üstə 150 min ABŞ dolları vəsait alıb. Bir müddət sonra Anar Əsədli bildirdi ki, Türkiyədə iqtisadi vəziyyət yaxşı olmadığına görə 2018-ci ilin sentyabrın sonlarında həmin vəsaiti Azərbaycana qaytarıb və burada qızıl və zinət əşyalarının satışı ilə məşğul olan qohumu ilə birgə biznes işinə yatırıb. Bundan əlavə, həmin vəsaiti alan zaman guya bu vəsaitin 50 min dollarını da Türkiyədə xəstəxana tenderi xərclərinə yönəldib. Ondan sonrakı dövrdə müşahidə etdim ki, Anar Əsədlinin dediyi məsələlər bu prosesə uyğun gəlmir və 2020-ci ilin sonlarında müəyyən ortaq tanışlar vasitəsilə mənə məlum oldu ki, onun digər şəxslərlə pul məsələsində problemləri var.

Ona görə də mən 2021-ci ilin yanvar ayında bu vəsaiti nə zaman qaytaracağı ilə bağlı soruşmuşam, o da bildirib ki, 2021-ci ilin mart ayında bu vəsaiti qaytaracaq.

Lakin bu barədə mart ayında soruşanda qaytaracağı vaxtı iyun ayı deyib, iyunda soruşanda isə sentyabrda qaytaracağını deyib. Sentyabrda razılaşdıq ki, noyabr ayının əvvəlində vəsait tam şəkildə geri qaytarılacaq. Lakin sonrakı dövrdə Anar Əsədli bu istiqamətdə heç bir addım atmadı, 2021-ci ilin mart ayından başlayaraq artıq mənimlə təmaslardan yayındı, buna görə də məsələ daha gərgin xarakter aldı.

**- Son olaraq Anar Əsədli ilə nə zaman danışmışdınız?**

- Son olaraq üzbəüz görüşümüz ötən ilin mart ayında olub. Daha sonra isə oktyabrın 28-də, yəni biz artıq şikayət verdikdən sonra görüşmüşdük.

**- Sizə nə deyirdi? Bu pulu niyə qaytara bilmirdi. Özünün hər hansı bir formada izahatı var idimi?**

- Bizim aramızda olan danışıqlarda, yazışmalarda bildirirdi ki, guya 1 gün, iki gün, 1 saat, 2 saatdan sonra qaytaracaq. Bu cür vədlər verərək deyirdi ki, guya pul gələcək, borcunu göndərəcək. Amma bunların heç biri həyata keçirilmədi. Daha sonra faktiki olaraq pulu geri qaytarmaqdan imtina etdiyini bildirib. Hələ o zaman hüquq mühafizə orqanlarına müraciət etmək haqqında düşündüm. Lakin bizim ortaq tanışlarımız dövriyyəyə girdilər, onunla söhbət apardılar. Bu zaman da öhdəlik götürdü ki, sentyabr ayında bu vəsaiti tam şəkildə geri qaytaracaq.



Sonuncu dəfə oktyabr ayında ondan soruşanda ki, nədən borcu ödəməkdən qaçırdın?, mənə cavab verdi ki, pul yox idi. Mən də dedim ki, pul yox idisə, təklifim var idi ki, oturub bu məsələləri danışaq. Lakin təəssüf ki, Anar Əsədli o zaman da mənim bu təklifimdən imtina etmişdi.

Bir dəfə mənə yazdığı mesajda bildirmişdi ki, guya evini satışa çıxarıb, onu satıb, mənə borcunu geri qaytaracaq.

Təbii ki, bu da baş vermədi. Hətta torpaq sahəsi olduğunu, onu borc əvəzi mənim adıma keçirmək istədiyini və həmin torpaq sahəsinin çox bahalı olduğunu demişdi. Mən isə cavabımda demişdim ki, əgər belədirsə, sən o torpaq sahəsini sat, necə ki, borcu sənə pul şəklində vermişdim, eləcə də pul şəklində mənə geri qaytar. Təbii ki, onun dediyi rəqəmlər yalandır. Biz həmin əraziyə mütəxəssislər aparmışdıq və dəyərləndirmə zamanı bildirilmişdi ki, həmin torpaq sahəsinin qiyməti Anar Əsədlinin dediyi qiymətdən dəfələrlə ucuzdur.

Anar Əsədlinin bu gün həbsdə oturmağının səbəbi biz şikayətçilər ilə bağlı deyil. Onun vəkilləri, partiya ətrafında olan bir çox şəxslər ilə bağlıdır. Onlar bu məsələni siyasiləşdiməyə cəhd etdilər. Guya Anar Əsədli müxalif lideri imiş, hakimiyyətə təhlükə yaradırmış və məhz buna görə ona bu cür təzyiq edilir. Əlbəttə ki, bu, tamamilə yanlış yönləndirmədir.

Həmçinin qeyd etdiyim kimi, bu məsələdə onun vəkillərinin də təsiri var. Belə ki, vəkilləri onu inandırıblar ki, burada heç bir hüquqi əsas yoxdur və açıq şəkildə vəkillərimə demişdilər ki, ”bu istintaq hamısı boş şeydir, onun əməlində heç bir cinayət tərkibi yoxdur”. Bundan sonra isə arada olan bütün əlaqələr tamamilə kəsildi.

Çox təəssüf. Amma bu, Anar Əsədlinin özünün seçimi oldu. Biz heç istəməzdik ki, məsələ bu yerə gəlib çıxsın.

**- Anar Əsədli ilə üzləşmisinizmi? İstintaqda iştirak edirsinizimi?**

- İstintaqa müraciət etdikdən sonra dəvət olunmuşam, izahatmı vermişəm. Daha sonra yenə bəzi məsələlərin dəqiqləşdirilməsi ilə bağlı çağırılmışam və verilən suallara aydınlıq gətirmişəm. Anar Əsədli üzləşmədə iştirak etməyib.

**- Yəni bundan imtina edib?**

- Görünür ki, belədir.

**- Sizdən başqa bu məsələdə daha kimlər var?**

- Məndən başqa İlham Hüseynov var və onun adı artıq mətbuata məlumdur . Belə ki, İlham Hüseynov Zəngilan rayonun keçmiş icra başçısı və vaxtilə Anar Əsədlinin seçki qərargahında önəmli şəxslərdən biri olub.

Mətbuatdan oxuduğum məlumata görə artıq 4 nəfərin də şikayəti istintaqa daxil olub. Hər halda istintaq işi gedir, daha başqa nüanslar ortaya çıxa bilər.

**- Bir partiya sədrinin həbs olunması böyük hadisədir. Bunun səs-küyündən qorxmursunuz? Özünüzü nə qədər haqlı hesab edirsiniz?**

- Əlbəttə ki, istənilən şəxsin həbs olunması xoş deyil, xüsusilə də Anar Əsədli ilə bizim münasibətlərimiz olub. Lakin mən vicdanımda çox rahatam ki, Anar Əsədliyə qarşı sona qədər dürüst davrandım, ona sona qədər şans tanıdım və təəssüf ki, o, bunların heç birini dəyərləndirmədi. Əksinə, sonradan mənim şəxsimə qarşı sosial şəbəkələrdə mənəvi terror yaratdı, onun müavinləri tərəfindən mənim haqqımda ağlagəlməz iddialar səsləndirildi, barəmdə təhqiramiz ifadələr yazıldı. Mən bunların hamısını sinəmə çəkib, dayandım. Mənim nə Anar Əsədli, nə də onun yaxınları qarşısında heç bir başıaşağılığım yoxdur. Çünki dəfələrlə birgə oturub bu məsələni həll etməyi xahiş etdim.

Hətta bildirmişdim ki, onun üçün kimlərdən borc almışdım, onların pullarını geri qaytarsın, mənə aid olan hissənin isə qaytarılması ilə bağlı öz aramızda bir qrafik yaradaq. Sadəcə olaraq, Anar Əsədli bütün yolları qapatdı, mənə başqa yol buraxmadı və mən məcbur olub hüquq mühafizə orqanlarına müraciət etdim.

Əlbəttə ki, siyasi partiya liderinin həbs olunması kifayət qədər ciddi hadisədir və buna görə istintaq bu qədər uzun çəkdi və kifayət qədər də dəqiq aparılmağa cəhd edildi ki, sonradan hansısa bir əlavə problem çıxmasın.

Hər kəs etdiyi əməllərə görə qanun qarşısında cavabdehdir. Hamımız qanun qarşısında bərabərik, heç birimizin qanundan üstün mövqeyimiz yoxdur.

**- Əgər Anar Əsədli borcunu ödəyərsə, şikayəti geri götürərsinizmi?**

- Əvvəldə də bildirmişdim ki, bu məsələdə mən kifayət qədər tolerantam, güzəştlərə hazıram. Təəssüf ki, mən bunların qarşılığını görmədim. Əlbəttə ki, Anar Əsədli və yaxud yaxınları bu məsələ ilə bağlı konkret addımlar atsalar, bundan sonra bu barədə düşünmək olar.

Digər məsələ, məhz mənim müraciətimdən sonra Anar Əsədli və onun yaxınları, vəkili tərəfindən mənə bir ev təklif olundu. Və bu evin mənim adıma keçirilməsi söhbəti ortaya çıxdı. Mən də təkrarən bildirdim ki, həmin mənzil satılsın, mənə pul verilsin. Amma bu addım atılmadı. Sonradan da mənə aydın oldu və vəkili də bunu mənə etiraf etdi, ortada belə bir plan olub - həmin mənzilin mənim adıma keçirilmə prosesi başlayır, hüquqi proses dayanır, işə xitam verilir və bundan sona həmin evin sahibi hansı ki, Anar Əsədliyə yaxın bir şəxsdir, o, məhkəməyə müraciət edir və məhkəmə mənim adıma keçirilmə prosedurunu ləğv edir və ev geri, sahibinə qaytarılır. Məhz bu davranışlar bu məsələnin kifayət qədər mənzərəsini dəyişdi... ”

**Xalidə Gəray,**
**Elçin Əkbərov,**
**Musavat.com**

---

### ELANLAR

**18.12.1992-ci il tarixdə 9 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Birlik Partiyası ləğv olunduğunu elan edir.**

**Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, Nizami rayonu, R.Rüstəmov küçəsi, ev 35, mənzil 53.**

***

**01.09.1995-ci il tarixdə 29 nömrə ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Azərbaycan Sosial Demokrat Partiyası ləğv olunduğunu elan edir.**

**Kreditorlardan xahiş olunur ki, bu elan dərc olunduqdan sonra 60 gün ərzində quruma olan tələblərini aşağıda göstərilən ünvana bildirsinlər: Bakı şəhəri, 28 May küçəsi 3.**

---

***Hidayət Elvüsal***

## HASARDA XORUZ BANNAYIR



**Bu ABŞ Meksika ilə arasına 6 metr hündürlüyündə bir hasar çəkib ki , ordan gəlib , burda onu narahat eləməsinlər . Hərçənd ki , meksikanların torpaq iddiası , terroru , filanı yoxdur . Sadəcə olaraq ABŞ hasar üstünə qonub , başqalarının , elə bizim də qulağımızı dəng eləyib .**

**İndi də deyir ki , Azərbaycan niyə öz torpaqlarını qoruyur ? Bəs əzabkeş ermənilər harada terror törətsinlər ? Bu nə keçid məntəqəsidir ?**

**Bütün bunları 6 ( !!! ) metrlik hasarın başına dırmaşıb deyir .**

**Və bu 6 metrlik hasar ölkəsi , Azərbaycanın sərhəd-keçid məntəqəsi qurmağına hansı mənəfi haqla mız qoyur ? Mız qoyur deyəndə ki , çıxıb həmin hasarın başına , bannayır :**

**- Hay qulu quuu...**

---

## Kəndçimiz Kərim Kərimova nə demişdi...



***Soldan birinci kəndimizin yeganə kosmonavtı Şahvələddir. Düzdür, o kosmosa uça bilmədi, amma şansı vardı.***

***Kosmosa uçan hava gəmilərinin uçuş sınaqları üzrə dövlət komissiyasının sədri Kərim Kərimov məsləhət görmüşdü ki, Şahvələd yol mühəndisi işləsin. Məsələ belə olmuşdu, sovet vaxtı uzun müddət işsiz qalandan sonra Şahvələd Baykonura məktub yazmışdı ki, Yerdə mənə iş tapılmır, təşkil edin, Canibekovla kosmosa uçum, bəlkə orda bir iş ola.***

***Çox keçmədən rayona Kərim Kərimovun imzasıyla qırımızı surğuclu, göy lentli məktub göndərmişdilər ki, adama təcili iş verin. Beləcə, kəndçimin iş problemi düzəlmişdi...***

---

## İKİ MİKROAVTOBUS TOQQUŞDU



**Bu cür qəzaları biz tez-tez eşidirik və onu da tez-tez eşidirik ki, bəzi sürücülərin səhlənkarlığı üzündən avtomobil yollarında ağır qəzalar baş verir. Heç şübhəsiz, bu cür qəzaların yaranmasında əsas məsuliyyət nəqliyyat vasitələrini idarə edən sürücülərin üzərinə düşür.**

Yaxın günlərdə isə respublikanın avtomobil yolunda iki mikroavtobusun toqquşması hadisəsi qeydə alınıb. Belə ki, yolun kənarında dayanmış mikroavtobusu arxadan gələn digər mikroavtobus vurub. Nəticədə yolun kənarında duran avtobusun içərisindəki sərnişinlərin bir neçəsi xəsarət alıb və onlar təcili yaxınlıqdakı rayon xəstəxanalarından birinə çatdırılıb.

Bu cür qəzalarla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin baş inspektoru, polis kapitanı Toğrul Nəsirliyə müraciət etdik. Cənab kapitan dedi ki, bəzi sürücülər diqqətsizlik edir, ya da sükan arxasında yuxulayıb, belə qəzalar törədirlər. Ümumiyyətlə, sərnişin daşıyan hər bir sürücü digər nəqliyyat vasitələrini idarə edənlərdən daha məsuliyyətli olmalıdır. Ən azından ona görə ki, onlar aviomobildə çoxlu sayda sərnişin aparırlar. İlk növbədə bu sərnişinlər sürət həddinə əməl etməli, respublikanın avtomobil yollarında ara məsafəsi saxlamalı, yuxulu və sərxoş halda sükan arxasında əyləşəməməlidirlər. Biz həmişə mürəkkəb hava şəraiti ilə əlaqədar olaraq sürücülərə xəbərdarlıq edirik və öz tövsiyyələrimizi veririk. Bir mənalı olaraq deyə bilərəm ki, bəziləri bundan nəticə çıxarır, bəziləri isə bu tövsiyyələrə əhəmiyyət vermir. Ümumiyyətlə, hər bir sürücü diqqətli olsa, təhlükəsiz mənzil başına çata bilər.

## MASSİVLƏRİN ADI DƏYİŞDİRİLMƏLİDİR



**Bu gün Suraxanı rayonunun Yeni Günəşli qəsəbəsində çoxlu sayda massivlər var: ”A”, ”B”, ”D” və sair və ilaxır. Vaxtilə bu yaşayış sahələri inşa ediləndə küçələr elə beləcə də adlandırılıb. Amma bunlar hamısı Sovet dönəmindən qalan ənənələrdir. İndi isə zaman başqa şeyi tələb edir. Müstəqil dövlətik və hər şey müstəqilliyə uyğun qurulmalıdır. Heç kimə sirr deyil ki, Azərbaycanın çox böyük qəhrəman oğulları, şəhidləri, ziyalıları və mütəfəkkirləri var. Bax, həmin yaşayış sahələrinə də o qəhrəman insanların adları verilməlidir.**

Şəhid ailələri həmişə giley-güzar edir ki, onların övladlarının adına küçə və digər yerlər yoxdur. Çox uzağa getməyək, Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsində nə qədər desən, şəhidlərimizin adına o ünvanlara vermək olar. Bu addımın atılması ilə həm şəhidlərimizin ruhunu şad edərik, həm də şəhid ailələrini sevindirərik. Düzdür, küçələrin adlarının dəyişdirilməsinin bir çox texniki problemləri var. Amma bizə elə gəlir ki, texniki problemləri də həll etmək o qədər də müşkül məsələ deyil. Sadəcə olaraq, burada bir vətənpərvərlik və şəhid sevgisi lazımdır.

**EMİL FAİQOĞLU**

---

## *Ekspert: “Təbii fəlakətlər nəticəsində dəymiş ziyana görə fermerlərə...”*

**Xəbər verdiyimiz kimi aprelin 21-də axşam saatlarında Cəlilabadda baş verən güclü qasırğa nəticəsində sakinlərə ziyan dəyib. Rayonun bir neçə kəndində evlərin dam örtüyü dağılıb, kartof sahələri məhv edilib.**

Bu gün vətəndaşları maraqlandıran bir sual var. Soruşurlar ki, dəymiş ziyana görə onlara kompensasiya ödənilə bilərmi?

Adalet.az-ın sualını iqdisatçı Əli Əlirzayev cavablandırdı. Ə.Əlirzayev dövlət tərəfindən bu cür hadisələrin nəzər alınmasının vacibliyini vurğuladı:

”Qanuna görə fermer təsərrüfatını sığortalamalıdır. Amma bunlar pay torpaqlarıdır, insanlar üçün istifadəyə verilib və təbii ki, buna görə torpaq vergisi verilir, sığorta fondundan ödəmələr var. Bunları nəzərə alaraq onu deyə bilərəm ki, təbii fəlakətlər nəticəsində dəymiş ziyana görə fermerlərə sığorta haqqı ödənilməlidir. Söhbət ondan getmir ki, vətəndaşın sığortası var və ya yoxdur.

Bununla bağlı ayrıca komissiya yaradılmalıdır və kimlərə nə qədər ziyan dəyməsi dəqiqləşdirilməlidir ki, sui-istifadə hallarına yol verilməsin. Bu təbiət hadisəsidir və ona görə də vətəndaşlara dəymiş zərər dövlət tərəfindən ödənilə bilər. Çünki dövlətimizin buna imkanı da var. Vətəndaşlar özü də öncədən təsərrüfatını sığorta etdirə bilər. Bu daha yaxşıdır. Bəzən deyirlər ki, insan özünü də sığortalamalıdır. Biz avtomobilimizi sığortalamışıq ki, hadisə baş verəndə dəymiş ziyanı ödəyə bilək. Bu cür riskləri nəzərə alıb təsərrüfatları sığortalamaq vacibdir. Amma hazırda bu cür hadisə baş veribsə, dövlət səviyyəsində bunun qarşısı alınmalıdır”.

**Vasif Əlihüseyn**

---

# YÜKSƏK SÜRƏT BAŞA BƏLADIR



**Bu gün respublikamızda nəqliyyat vasitələrinin sayı əvvəlki vaxtlardan qat-qat çoxdur. Daha dəqiq desək, onların sayı bir milyon iki yüz mindən artıqdır. Təbii ki, nəqliyyat vasitələrinin sayı çoxaldıqca qəzaların da artmaq ehtimalı yüksəlir. Başqa sözlə, demiş olsaq, istər Bakıda, istərsə də respublikanın avtomobil yollarında maşınların sıxlığı özünü açıq-aydın göstərir. Baş verə biləcək yol-nəqliyyat hadisələrindən çıxış yolu isə birmənalı olaraq yol hərəkəti qaydalarına düzgün riayət edilməsidir.**

Aydındır ki, bu da sürücülərdən və hərəkət iştirakçılarından asılıdır. Düzdür, yol polisi hərəkətin təhlükəsizliyini təmin edir və çətin vəziyyətdə sürücülərə, hərəkət iştirakçılarına öz köməkliyini göstərir. Amma hamısından yaxşısı sadəcə olaraq hər bir sürücünün diqqətli olması, qaydalara əməl etməsi və ən nəhayət, yol polisinin xəbərdarlıqlarına qulaq asmasıdır.

Baş Dövlət Yol Polis İdarəsi Yol Patrul Xidmətinin Alayının tağımları da respublikanın avtomobil yollarında hərəkətin təhlükəsizliyinin təmin edilməsi üçün qabaqlayıcı tədbirlər görür. Bu mənada Yol Patrul Xidməti Alayının 12-ci tağımının əməkdaşlarının da işi təqdirəlayiqdir. Tağım Hacıqabul-Horadiz avtomobil yolunda xidmət aparır. Havanın soyuq və isti keçməsindən asılı olmayaraq, demək olar ki, yol polisi əməkdaşları öz vəzifə borclarına yüksək məsuliyyətlə yanaşırlar. Onlar bayram günlərində gücləndirilmiş iş rejimində çalışır, sutkanın 24 saatı fasiləsiz olaraq, xidmət aparırlar.

Heç şübhəsiz xidməti vəzifəni yerinə yetirərkən ilk növbədə 12-ci tağımın əməkdaşları rəhbərliyin onların qarşısında qoyduğu vəzifələri icra etməyə çalışırlar. Bu vəzifə də ondan ibarətdir ki, tağım əməkdaşları kobud qayda pozuntularına qarşı mübarizəni ön plana çəkir və bu sahədə qabaqlayıcı tədbirlər görürlər. Sərxoş sürücülərə, sürət həddini aşanlara, sürücülük vəsiqəsi olmadan sükan arxasında əyələşənlərə, avtoxuliqanlara qarşı mübarizə günbəgün daha da geniş vüsət alır. Bununla yanaşı, avtomobil yolunda ara məsafəsi saxlamayan, tez-tez manevr edən, texniki cəhətcə nasaz olan, təhlükəsizlik kəmərindən istifadə etməyən, sərnişindaşıma qaydalarını pozan və normadan artıq yük daşıyan avtomobillərin sürücüləri də məsuliyyətdən kənarda qalmır və onlar barəsində qanunamüvafiq tədbirlər görülür.

Xüsusən də, son zamanlar sərnişin daşıyan sürücülər 12-ci tağımın stasionar postunda saxlanıır və onlarla səmimi söhbətlər edilir. Yol polisi əməkdaşları həmin sürücülərə xəbərdarlıq edərək bildirirlər ki, sükan arxasında 8 saatdan artıq əyləşməsinlər, yorulanda nəqliyyat vasitələrini stasionar postda saxlasınlar, bir qədər istirahət etsinlər, əl-üzlərini yuyub, ondan sonra yollarını davam etdirsinlər. Heç kimə sirr deyil ki, bir çox sərnişin daşıyan avtobus, mikroavtobus və xırda avtomobillərin sürücüləri bəzən 16-18 saat sükan arxasında olur və nəticədə yuxu onları tutur, ağır qəzalar törədirlər. Bütün bunların qarşısını almaq üçün tağım əməkdaşları həmin sərnişinlərlə davamlı olaraq, maarifləndirici söhbətlər apırırlar. Yol tövsiyələrini verirlər. Məhz bu qabaqlayıcı tədbirlərin nəticəsidir ki, xidmət apardığımız Hacıqabul-Horadiz avtomobil yolunda ağır qəzaların sayı əvvəlki vaxtlarla müqayisədə azalıb. Amma bunlar bizdə qətiyyən arxayınlıq yaratmır. Bir qayda olaraq, tağımda nizam-intizamın və peşəkarlığın yüksəldilməsinə daim diqqət yetiririk və eyni zamanda işimizdə olan çatışmazlıqları vaxtında aradan qaldırırıq. Əsas məqsədimiz ondan ibarətdir ki, xidmət etdiyimiz avtomobil yolunda hərəkət iştirakçılarının, sərnişinlərin təhlükəsizliyi təmin edilsin.




Patrul Xidməti Alayının 12-ci tağımının komandiri, polis kapitanı Namiq Əzizov çox təcrübəli, savadlı və vətənpərvər bir zabitdir. Namiq Əzizov həm də ziyalı bir insandır. Onunla söhbətimiz zamanı bildirir ki, hərəkətin təhlükəsizliyi ilə bağlı bütün lazımi tədbirləri vaxtında həyata keçirilirlir.

Qəzaların başvermə ehtimalı olan yerlərə mürəkkəb hava şəraitində - qar, yağış yağanda əlavə naryadlar göndəririk. Üstəlik də bu cür havalarda qəzaların baş vermə ehtimalı bir qədər də artır. Ona görə də bu istiqamətdə hərəkət edən nəqliyyat vasitələrinin sürücülərini əməkdaşlarımız saxlayır, hava şəraiti ilə əlaqədar onlara xəbərdarlıq edir və tövsiyələrini verirlər.

**Göründüyü kimi, Yol Patrul Xidməti Alayının 12-ci tağımının əməkdaşları yaz və yay mövsümünün gəlişi ilə əlaqədar olaraq hərəkətin təhlükəsizliyi ilə bağlı bütün lazımi tədbirləri vaxtında həyata keçirir. Gərək sürücülər və hərəkət iştirakçıları da yol hərəkəti qaydalarına diqqət yetirsinlər. İlk növbədə hər bir sürücü sürət həddini aşmasın, sərxoş və yuxulu halda sükan arxasında əyləşməsin. Təbii ki, qaydalara əməl edilərsə, ölümlə nəticələnən qəzaların da sayı azalar, hər bir hərəkət iştirakçısı mənzil başına sağ-salamat çatar.**

**FAİQ QİSMƏTOĞLU**

# KİŞİNİN BİRİNCİ VƏZİFƏSİ VƏTƏNİNİ QORUMAQDIR!

**O, bir sıra özəl xüsusiyyətlərinə görə tay-tuşlarından fərqlənir. Atası Əbülqasım müəllim deyir ki, Səmədin sərbəst vaxtı olmur. O, bütünlüklə oxumağa qapılır, musiqinin dilini-sirrini daha mükəmməl öyrənmək üçün axtarışlar aparır. Səmədi heç bir vəchlə öz "studiyasından" çıxarmaq münkün deyil. O, polad iradəyə, dəmir düşüncəyə malikdir. Başladığı işi yarıda saxlamağı sevmir. Əbülqasım müəllim onu da deyir ki, mütəxəssislər Səmədə böyük ümid bəsləyirlər. Onun çox qabiliyyətli vokalist olacağına inanırlar. Səmədin müəllimi, Azərbaycan Respublikasının xalq artisti Xuraman Qasımovanın fikrincə onun bal kimi səsi var. Fikir və ideyalarını ortalığa qoyan bu ecazkar səsdə Qarabağın zümrüd meşələrinin, Şuşanın ab-havasının, Cıdır düzünün gözəlliyinin ətri duyulur. Səmədin səsində bir xışma, bir ovuc, bir qətrə də olsa, Qarabağın ruhu hiss edilməkdədir.**

Musiqiyə qəlbən bağlandığı üçün saatlarla piano arxasında oturmaq ona xüsusi zövq verir. Bu sözləri bizimlə söhbətində gənc vokalist Bakı Musiqi Akademiyasının ikinci kurs tələbəsi Səməd Novruzov dedi. Doğrudur, Səmədi konsert salonlarında maraqlı çıxışlarına qəzet səhifələrində verdiyi müsahibələrə görə yaxşı tanıyırlar. Bununla belə, bir daha xatırladıram ki, Səməd Şuşa şəhərində uşaq futbol komandasını yaradan və onu inkişaf etdirən tanınmış idmançı, mütəxəssis Əbülqasım Novruzovun ailəsində dünyaya gəlib. Əslən şuşalıdır. O, Bakı şəhəri Sağlamlıq İmkanları Məhdud uşaqlar üçün 5 nömrəli Respublika Xüsusi İnternat Məktəbinin məzunudur. Orta məktəb illərindən şeirə, musiqiyə, teatr tamaşalarına böyük həvəsi olub.

Söhbət Qarabağdan düşmüşkən bir neçə il bundan öncə Səmədin qəzetlərin birində "Səsinizi qoruyun, Cıdır düzündə lazım olacaq" sərlovhəli müsahibəsi yadıma düşdü. Müsahibədə gənc musiqiçilərə öz tövsiyələrini verir və Şuşanın yaxın zamanlarda azad olunacağını diqqətə çəkirdi. Dostlarına tövsiyyəsi bu idi ki, onlar səslərini qorusunlar, bu səs bizə Şuşada lazım olacaq. Nəhayət Səmədin arzusu gerçəkləşdi. 44 günlük müharibədən sonra Şuşa ilə bərabər 30 ilə yaxın bir müddətdə düşmən tapdağı altında inildəyən torpaqlarımız azad olundu. Bu adi qələbə deyildi, müzəffər Ali Baş komandanımızın rəhbərliyi altında ordumuzun, xalqımızın möhtəşəm qələbəsi idi. Bu qələbə xalqın rəhbərə inamının, Rəhbərin isə xalqına sədaqətinin məntiqi nəticəsi idi. Şuşa azad olandan sonra Səmədin arzusu reallaşdı. Cıdır düzündə musiqi festifalları keçirildi.

İştirak etdiyi müsabiqələr, festifallar, konsert salonları, qazandığı mükafatlar, fəxri fərmanlar, sertifikatlar şübhəsiz ki, bu uğurlar onun gələcəkdə bir musiqiçi olduğundan xəbər verir. Səmədin incəsənət sahəsindəki uğurları sadalamaqla tükənmir.

Biz Səmədin yalnız iki ildə 2018-2019-cu illərdə qazandığı nailiyyətləri oxucuların diqqətinə çatdərırıq:

2018-ci il 12 yanvarından martın 19-a kimi Moskva şəhərində keçirilən Beynəlxalq "Tı super" layihəsinin iştirakçısı olub.

Azərbaqycan Gənclər Fondunun maliyyə dəstəyi ilə həyata keçirilən "İnklüziv Orkestr" layihəsində iştirakına görə sertifikat qazanıb.

Azərbaycanda keçirilən EKSPO Beynəlxalq sərgisində görüşdə Üzeyir Hacıbəylinin "Sənsiz" romansını müvəffəqiyyətlə ifa edib və fəxri fərmana layiq görülüb.

Heydər Əliyev Fondunun vitse-Prezidenti Leyla xanım Əliyevanın göstərişi ilə Heydər Əliyev Mərkəzində keçirilən MDB dövlətlərinin tədbirində çıxışı alqışlarla qarşılanıb.



"Mənim səsim, mənim hüquqlarım: Parlamentdə müzakirə" mövzusunda keçirilən tədbirdə fəal iştirakına görə UNİSEF-in Azərbaycandakı nümayəndəsi Edvard Karvardinin imzası ilə diploma layiq görülüb.

Azərbaycan Respublikasının xalq artisti bəstəkar Tofiq Quliyevin 2018-ci ildə 100 illik yubileyinə həsr edilmiş konsert tədbirində fəal iştirakına görə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin diplomunu qazanıb.

Heydər Əliyev Fondunun vitse Prezidenti Leyla xanım Əliyevanın dəvəti ilə iki tədbirdə iştirak edib və orada uğurlu çıxışı alqışlarla qarşılanıb.

2019-cu ilin may ayında Milli Konservatoriyada keçirilən "Yüksəl, ey Azərbaycan!" adlı tədbirdə məktəbin xor kollektivi ilə birlikdə solist olaraq məşhur "Azərbaycan" mahnısını ifa edib.

Ötən il çap olunan "Yazdım ki, izim qalsın" Azərbaycanın yeni istedadları kitabında onun haqqında məqalə dərc olunmuş, kitabın üz qabığında şəkli yer almışdır.

13 oktyabr 2019-cu ildə Moskvada Kremlin Qurultaylar sarayının səhnəsində X Beynəlxalq xeyriyyə festifalında ("Belaya trost") Radion Qazmanovla birlikdə "Mayak" mahnısını ifa edib və böyük alqışlarla qarşılanıb. Burada baş verən maraqlı hadisəni oxucuların nəzərinə çatdırmağı özümə borc bilirəm. Atası Əbülqasım müəllim deyir ki, Səmədlə birlikdə səhnədə çıxış edən Radionun atası Oleq Qazmanov Bakıda Yəhudi ailəsində doğulub. O da musiqiçidir. Azərbaycan Estrada səhnəsində maraqlı çıxışları ilə tanınıb, uzun müddət müvəffəqiyyətlə çıxış edib. Hətta, mənim yadımdadır, onlar Şuşada istirahət evində də çıxış ediblər. Sonradan o, ailəsi ilə birlikdə Moskva şəhərinə köçmüşlər və orada yaşayırlar. Səməd özü ilə Moskvaya Şuşanın mənzərələrini özündə ehtiva edən xeyli otkrıtkalar aparıb və orada iştirakçılara paylayıb. Radion bu şəkilləri atası Oleqə göstərərkən atası qürur hissi ilə bildirib ki, bəs bu şəkillər Şuşa şəhərinə aiddir. Orada konsertlər vermişik. O, bu şəkilləri verən oğlanın harada olduğunu soruşub. Radion da bildirib ki, o, müəllimləri ilə birlikdə oteldədir.

Bir neçə saatdan sonra Bakıya uçacaqlar. Bunu eşidən kimi Oleq tələsik paltarını geyinib maqazinə gedir. Çox keçmir ki, əlində bükülmüş bir hədiyyə ilə qayıdır və oğluna tapşırır ki, bu hədiyyəni o şuşalı oğlana çatdırsın. Radion tələsik Səmədin otağına gəlir.

**Səmimi görüşdükdən sonra əlindəki bağlamanı atam sənə göndərib, deyə Radion hədiyyəni Səmədə verir. Səməd hədiyyəni qəbul edir, təşəkkürünü bildirir və təyyarə ilə Bakıya qayıdır. Biz evdə ona verilən hədiyyəyə baxanda Səməd heyrətləndi. Bu avtomat Kalaşnikovun modeli idi. Üstündə də qiyməti yazılmışdı. 90 ABŞ dolları. Səməd hələ də ona nə üçün avtomat silahının modelinin verilməsi səbəbini bilmirdi. O, mənə dedi ki, ata, mən ona Şuşanın otkrıtkalarını bağışladım, O, isə mənə bahalı bir avtomat hədiyyə bağışladı. Mən onu bu məsələdən hali etdim: Oleq ağıllı insandır, Azərbaycan tərbiyəsi görüb. O, bu silahı sənə təsadüfi olaraq verməmişdir. O, bununla demək istəyir ki, Səməd silahı götür Vətənini qoru, Şuşanı azad et! Oxumaq vaxtı deyil. Vətənin Şuşanı xilas edəndən sonra sənin səsini dünyanın hər yerindən, eləcə də okeanın o tayından da eşidəcəyik! Bəli, belə Vətənpərvər, gözəl insanlar var...**

**Faiq Şükürbəyli**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Kəşfiyyat rəisi: "Hər dəfə Ağdamın xarabalığa çevrilən kəndlərini görəndə..."

**"Birinci Qarabağ savaşında Ağdam rayonu istiqamətində döyüşlərdə iştirak etmişəm. Onu də nəzərinizə çatdırım ki, mənim dayım Rafiq Səfərov da Qaraqaya istiqaməti hücumlarında Qatır Məmmədin dəstəsində döyüşüb və şəhid olub. Özüm zabit kimi ordu sıralarında xidmət etmişəm və hər dəfə Ağdamın xarabalığa çevrilən kəndlərini görəndə mənə çox pis təsir edirdi. Çünki biz öz torpaqlarımızda gedib gəzə bilmirdik"**

Bunu Adalet.az-a açıqlamasında ehtiyatda olan kapitan, Birinci Qarabağ və Vətən müharibəsi iştirakçısı, Cəlilabad rayon icra hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Fizulu Cəfərov deyib. F.Cəfərov Vətən müharibəsində kəşfiyyat rəisi kimi əməliyyatlara qatıldığını bildirib:

"2000-ci ildə kapitan rütbəsiylə ordu sıralarından tərxis olundum. Tərxis olunarkən yüksək rütbəli rəislərdən biri mənə dedi ki, "Kapitan Cəfərov, sən gedirsən, amma bizim qarşımızda şərtlər var, döyüş alnımıza yazılıb, biz qisas almalıyıq". O zaman dedim ki, nə vaxt müharibə başlasa, onda burda olacam. Şükürlər olsun Allaha ki, bu arzuma çatdım".

F.Cəfərov ordu sıralarından tərxis olunandan sonra rayonda orta məktəbdə gənclərin çağırışaqədərki hazırlıq müəllimi işlədiyini deyib:

"Ondan sonra Cəlilabad şəhər 4 saylı tam orta məktəbində 19 il gənclərin çağırışaqədərki hazırlıq müəllimi işləmişəm.

Tovuz döyüşləri zamanı isə bizim generalımız Polad Həşimovla bilrikdə polkovnik İlqar Mirzəyev də şəhid oldu. İlqar Mirzəyevlə mənim şəxsi tanışlığım var idi. Onun şəhid olması mənə çox pis təsir etmişdi. Ona görə də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Cəlilabad rayon şöbəsinə yaxınlaşaraq ordu sıralarına qayıtmağım üçün ərizəylə müraciət etdim. 2020-ci ilin sentyabr ayının 21-də Cəlilabad rayonundan ordu sıralarına çağrılan hərbçilərin ilk maşınında artıq mən də var idim".

F.Cəfərov bir çox rayonlar istiqamətində gedən döyüşlərdə əməliyyatlar icra etdiyini bildirib:

"Mən divizionun kəşfiyyat rəisi olaraq Füzuli, Xocavənd, Cəbrayıl, Hadrut və Şuşa istiqamətində gedən döyüşlərdə iştirak etdim. Vətən müharibəsində göstərdiyim xidmətlərə görə Ali Baş Komandan İlham Əliyev tərəfindən "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Hərbi xidmətlərə görə" medallarıyla təltif olunmuşam". F.Cəfərov Cəlilabad rayon icra hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin fəaliyyətindən də danışıb:



"Cənab Prezidentin Cəlilabad rayonuna təyin etdiyi hörmətli icra başçımız Rafiq Cəlilovun dəvəti ilə mən bu vəzifəyə təyin olundum. Bu vəzifəyə təyin olunan gündən hörmətli icra başçımız bizi dəstəkləyib, şəhid ailələri və müharibə iştirakçılarının yanında olub. Demək olar ki, bir çox problemləri həll etmişik. Hazırda rəsmi olaraq Cəlilabad rayonunun 260 nəfər şəhidi, 300 nəfər müharibə əlili və 2430 nəfər müharibə iştirakçısı var. Yəni digər rayonlara baxanda bizdə bu rəqəm çoxdur və ona görə də iş də çox olur. Problemlər var, müvafiq qurumlarla əlaqə saxlayıb bu problemlərin həllinə həmişə çalışırıq. İndi onu deyə bilərəm ki, bu problemlərin əksəriyyəti həll olunub. "YAŞAT" Fondunda büdcə azaldı və Cənab Prezident ötən həftə fonda beş milyon manat vəsait ianə etdi və artıq şəhid ailələri və qazilərimizin dərman məsələsini "YAŞAT" Fondu həll edəcək. Bizim şəhid ailələrimiz ev növbəsinə yazılıb və əksəriyyəti mənzillə təmin olunub. Digər şəhid ailələrimizin də mərhələli şəkildə mənzillə təmin olunmasını gözləyirik". F.Cəfərov Cəlilabadda təbii fəlakət nəticəsində evlərinə ziyan dəyən qazilərin də problemlərinin nəzarətə götürüldüyünü bildirib:

**"Təbii fəlakət nəticəsində evlərinə ziyan dəyən qazilərimizin evində olub, baxış keçirmişəm. Göytəpə qəsəbəsində iki qazimizin, Uzuntəpə kəndində bir qazimizin və bir iştirakçımızın evinə, Günəşli kəndində isə bir nəfər müharibə iştirakçımızın evinə ziyan dəyib. Göytəpədəki müharibə iştirakçımızın evinin dam örtüyünün təmir olunması üçün iş adamları 40 ədəd şifer verdilər. Evləri ziyan görən digər qazilərimizin də komissiya hadisə yerində olub, araşdırıb və əlaqədar təşkilatlara bu barədə məlumat veriləcək. Hal hazırda Cəlilabad rayon İcra Hakimiyyətində bu problemlərin həlli üçün büdcə nəzərdə tutulmayıb. Amma buna baxmayaraq yuxarı təşkilatların qarşısında qazilərimizin probleminin həll edilməsi üçün məsələ qaldırılacaq".**

**Vasif Əlihüseyn**

## Papa qadınlara səsvermə hüququnu hələ indi verir

**Katoliklərin ruhani lideri və Vatikanın prezidenti Papa Fransisk qadınların da növbəti Sinoddan səsvermə hüququna malik olması barədə qərar verib.**

Vatikandan verilən açıqlamaya görə, Roma Papası Katolik Kilsəsinin mühüm məşvərət orqanlarından biri olan və dünyanın hər yerindən yepiskopların müəyyən məsələləri həll etmək üçün vaxtaşırı bir araya gəldiyi Yepiskoplar Məclisinin idarəçiliyi ilə bağlı bəzi dəyişiklikləri təsdiqləyib.



Papa Fransisk tərəfindən edilən düzəlişlə yepiskop olmayanlara da səsvermə hüququ verildi.

Bunda ən diqqətçəkən dəyişiklik, yepiskop olmayanlara, xüsusən də qadın üzvlərə indiyə qədər yalnız yepiskopların səs verə bildiyi Sinodda səsvermə hüququnun verilməsi idi.

İtaliya mətbuatında bu dəyişikliklərin Vatikan üçün "tarixi dönüş nöqtəsi" və "Katolik Kilsəsində görünməmiş bir yenilik" olduğu bildirilib.

Mediada çıxan xəbərlərdə, yarısının qadın olması şərti ilə Sinodda daha 70 yepiskop təyin ediləcəyi və bu şəxslərin də səsvermə hüququna malik olacağı bildirilib.

### 41 QADIN MÜƏYYƏN OLACAQ

Buna görə təxminən 370 üzvdən ibarət olacaq Sinodda səsvermə hüququna malik olan qadınların 6-sı kilsə daxilindən və 35-i yeni təyin olunmuş qadın olmaqla ümumilikdə 41 qadının olacağı gözlənilir. Beləliklə, oktyabrda toplanması planlaşdırılan növbəti Sinodda səs hüququ olan qadınların təmsilçiliyi 10 faiz civarında olacaq.

**Sinodun təşkilatçılarından biri olan kardinal Jean Claude Hollerich mətbuata açıqlamasında "Bu, mühüm dəyişiklikdir, lakin inqilab deyil" deyib.**

**Emin**

# Şəhid idmançının atası: "Əlimi qaldırıb Allaha dedim ki, bu cəsədi sən vermisən..."

***Vətən müharibəsi şəhidi Ümüd Qasımzadənin atası İlqar Qasımovun Adalet.az-a müsahibəsini təqdim edirik:***

**- İlqar müəllim, ilk öncə özünüzü təqdim edərdiniz...**

- Qasımov İlqar Misir oğlu. Birinci Qarabağ müharibəsi qazisiyəm. Şəhid Ümüd Qasımzadənin atasıyam.

**- Ümüdgil ailədə neçə uşaq idi?**

- Ailədə üç uşaqdılar. Ümüd evin ilk övladıdır. Ortancıl qardaşı Türkiyədə təhsil alır, kiçik qardaşı isə orta məktəbdə oxuyur.

**- Ümüd idmançı olub. Biz istəyərdik ki, onun idmandakı uğurlarından danışasınız...**

- Ümüd uşaqlıqdan idmançı ruhunda böyüyüb. Özüm idmançı olmuşam deyə ona idman hərəkətlərini öyərtmişəm. Onun idmana cəlb edilməsinin səbəbkarı bizim Göytəpə şəhərinin tanınmış idmançısı Qadir Babayev və Elxan Abbasov olub. 2015-ci ildə biz bu idman növünü yenidən canlandırmaq üçün iş görmək istədik. Ümüdü görəndə isə Elxan Abbasov dedi ki, "bu bizim vizit kartımızdır". Onda Ümüdün 15 yaşı var idi, o vaxtdan yüngül məşqlərə başladı. 16 yaşından isə Ümüd respublikada öz çəkisində 12-liyə düşməyi bacardı. Yəni qısa müddətə ağır atletdə respublika səviyyəsində uğur qazanmaq hər idmançıya qismət olmur. Bu isə Ümüdə verilən ilahi gücdən irəli gəlirdi. Ümüdün həddən artıq fiziki qüvvəsi var idi. Yavaş-yavaş nailiyyətlər qazanmağa başladı. 2017-ci ildə zona çempionatında yer tutmağa başladı. 2018-ci ildə respublikada tanınmağa başladı. Beşinci, altıncı yerləri qazandı, 2019-cu ildə isə respublikada yeniyetmələr arasında mükafatçılar sırasına düşdü. May ayında Respublika birinciliyinin gümüş mükafatçısı oldu. Noyabr ayında isə respublika kubokunun gümüş mükafatçısı oldu. Ümumilikdə Ümüdün 10 nailiyyəti var.

**- Ümüd əsgəri xidmətinə nə vaxt getdi?**

- Ümüd 2020-ci ilin may ayında əsgər getdi. Gənc əsgər kimi Gəncədə xidmətə başladı. Ordan isə Xüsusi Təyinatlı Qüvvələrə seçildi. Qazaxda və digər ərazilərdə təlimlərdə oldu.



**- Vətən müharibəsi zamanı Ümüd sizinlə əlaqə saxlayırdımı?**

- Bəli. Həmişə əlaqə saxlayırdı. Sentyabrın 20-də onunla danışanda dedim ki, Ümüd, yanına gəlmək istəyirik. Dedi ki, "pandemiyaya görə görüş yoxdu. Ata gəlmə. Sentyabrın 25-dən sonra təlimimiz olmasa, 10 günlük məzuniyyət veriblər gələcəm". Sentyabrın 27-də döyüşlər başladı. Müharibə başlayanda ilk günlər narahat oldum, Ümüddən xəbər yox idi. Sentyabrın 30-da zəng vurdu və dedi ki, "ata, narahat olma, hər şey yaxşıdır". Onda Kəlbəcər istiqamətində olduğunu dedi. Bir dəfə oktyabrın 9-da danışdı. Dedi ki, "ata, hər şey yaxşıdır, bir az arıqlamışam. Buna görə narahat olma, hər şey var, sadəcə biz yorğun olub yemək yeyə bilmirik. Ona görə arıqlamışam". Şəklini də çəkib göndərdi. Oktyabrın 12-də bir də danışdıq. Onda yerin demədi, ancaq dedi ki, "düzəngahdayıq". Dedi ki, "ata, irəli gedəcəyik, səndən halallıq istəyirəm". Onda çox pis oldum və dedim ki, bu nə sözdü danışırsan. O yerləri yaxşı tanıyırdım və dedim ki, düzəngahda ancaq özünü minalardan gözlə. Əsgər yoldaşları deyir ki, oktyabrın 11-də Ümüdgili Füzuli istiqamətinə göndəriblər.

**- Şəhid xəbərini nə vaxt aldınız?**

- Oktyabrın 15-də şəhid xəbəri gəldi. Çünki oktyabrın 12-də sonuncu danışığımız oldu və Ümüdlə əlaqə kəsildi. O xəbər elə bir hissdir ki, onu sözlə ifadə etmək mümkün deyil. (Ağlayır)

İnsan son döyüşünə girən zaman onda elə danışıq tonu, hərəkətləri yaranır ki, adi hərəkətlər olmur. Bunu öz döyüş yoldaşlarımda da görmüşdüm. Həmin gün Ümüdlə danışanda hiss edirdim ki, nəsə olacaq, amma Allaha dua edirdim ki, salamatçılıq olsun.

**- Ümüd Füzuli istiqamətində şəhid olub...**

- Bəli. Seyidəhmədli doddarı deyilən yerdə Ümüd şəhid olub. Özüm də o ərazilərdə olmuşam və yaralanmışam. 1996-cı ildə altı ay həmin doddarın qarşısında xidmət etmişəm. Əsgər yoldaşları deyir ki, oktyabrın 11-də hücuma keçiblər, amma əməliyyat alınmayıb. Dodların qarşısında kameralar olduğuna görə ora girə bilməyiblər. Oktyabrın 12-də Ümüdlə komandiri ətrafı gəzib qayıdıblar. Onda Ümüd deyib ki, "gedib yol açacam". Ümüd səhərəyaxın gedərək düşmən postunun altına qədər yol açıb və geri qayıdıb. Postun altında bayrağımızı da sancıb. Döyüş yoldaşı deyir ki, həmin cığırla hərəkət etdik bayrağa çatandan sonra iki qrupa bölündük. Hərəmiz bir bunkerə hücuma keçdik. Hücum edib postu azad etdik və orda yerləşdik. Gündüz saat 11-dən sonra düşmən minamyotla postu atəşə tutmağa başladı. Atəş nəticəsində qrup komandiri şəhid oldu. Ümüdün və digər döyüş yoldaşlarına isə yüngül qəlpə dəyib. Şəhidlərimizi ordan çıxarandan sonra Elçin adlı əsgəri gətiriblər. Ümüdü soruşanda deyiblər o deyib siz postdan çıxın mənimlə işiniz olmasın. Döyüş yoldaşı deyir ki, "Ümüdü gözlədim və gəlmədiyinə görə yaralı da olsam onun yanına qayıtdım. Dedim ki, Ümüd, sən burdan çıxmasan, mən də çıxmayacam. O sözümə görə Ümüdlə birlikdə postdan çıxdıq. İkimiz də yaralıydıq. Yolda mən özümdən getdim. Sonra hospitalda ayılanda dedilər ki, Ümüd də qanitirmədən şəhid olub". Onda əlimi qaldırıb Allaha dedim ki, ilahi, bu cəsədi mən böyütmüşəm, sən vermisən, mənə cəsədi qaytar, başqa heç nə istəmirəm. *(Ağlayır)*

**- Ümüdün ümüdsizliyini necə doldurursunuz?**

- 2015-ci ildə qərara gəldik ki, Göytəpədə zal yaradacağıq və Ümüdü də məşqçi kimi yetişdirəcəyik. İndi təsəllimi zalda məşq keçdiyim uşaqlardan alıram. Yəni özünə qismət olmasa da Ümüdün adını daşıyan idman zalıyla onun adını yaşatmaq istəyirəm.

***Qeyd edək ki, Ümüd Qasımzadə 2001-ci il aprelin 13-də Cəlilabad rayon Göytəpə qəsəbəsində anadan olub. O, uşaq yaşlarından idmanın ağırlıqqaldırma növü ilə məşğul olub. 2020-ci ildə Vətən müharibəsi zamanı oktyabrın 13-də Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub. Göstərdiyi xidmətlərə görə şəhid Ümüd Qasımzadə "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medallarıyla təltif edilib.***

**Vasif Əlihüseyn**

*Aysel KƏRİM*

## Heydər Əliyevin musiqi mədəniyyətimizdə silinməz izi



*İnsan hisslərinin, düşüncələrinin əks olunduğu hər bir sənət əsəri mədəniyyət sahəsində yer alır. İstər ədəbiyyat, teatr, kino, musiqi, rəssamlıq, memarlıq olsun, fərq etməz, özünü və kainatın dərki yolunda ərsəyə gətirilən sənət nümunələri mədəniyyət sahəsində cəmləşir. Bu sahə yer üzündəki yaradıcı insanların fərqli işlər ərsəyə gətirərək dünya içində ayrı bir dünya yaratmağına bənzəyir. Sənətkarlar yaradılışdan həssas ruha malik olur. Təbii ki, hər insan diqqət və qayğını önəmsəyir. Lakin yaradıcı insanların bu gözləntisi digər insanlara nisbətdə bir qədər fərqli olur. Onlar alqışın səsini həm də ürəkləri ilə hiss etmək istəyir. Bəli, onları yaratmağa sövq ettirən ürəkləri ilə!*

*Dövlətimiz müstəqillik qazandıqdan sonra hər sahədə olduğu kimi, mədəniyyət sahəsində də önəmli işlər görülüb. Yaradıcı insanlar sırasında professional musiqi sənətinin gözəl biliciləri də yer alır. Milli musiqimizin dünyada tanınması, bəstəkarların, ifaçıların və musiqişünasların fəaliyyətinin yüksək dəyərləndirilməsi sözsüz ki, müstəqil Azərbaycan dövlətinin yaradıcısı, əbədiyaşar lideri Heydər Əliyevin xidmətləri sırasına daxildir. Tarixi şəxsiyyət Azərbaycan incəsənətinin tərəqqisi və inkişafı yolunda əlindən gələni əsirgəməmişdir. Azərbaycan mədəniyyəti onun sayəsində yüksəliş dövrü yaşamışdır. Musiqi mədəniyyətimizi xəzinə kimi qoruyub saxlamaq, onun müdrikliyini isbat edən amillərdən biri idi. Mənsub olduğu millətin sənətkarlarına göstərdiyi hörmət, ehtiram ümummilli liderimizin mənəvi ucalığından xəbər verirdi. Musiqi xadimlərimiz ulu öndərin timsalında bu sahənin qüdrətli dayağının varlığını hiss edirdi.*

*"Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur" deyən dövlət rəhbəri hakimiyyətdə olduğu bütün dövrlərdə xalqın mədəniyyətinin inkişafını diqqət mərkəzində saxlamışdır.Milli-mənəvi dəyərlərimizə qayğı dolu münasibəti böyük layihələrin ərsəyə gəlməsinə səbəb olmuşdu. Azərbaycanda ev muzeylərinin yaradılmasının təşəbbüskarı da məhz Heydər Əliyevdir.Sovet dövründə nüfuzlu teatrların səhnələrində, əzəmətli konsert salonlarında görkəmli bəstəkarlarımızın səhnə əsərlərinin tamaşaya qoyulması, əsərlərinin səsləndirilməsi onun şəxsi dəstəyi ilə həyata keçirilib.Heydər Əliyevin bir amalı vardı: "Qazanılan gəlir birinci növbədə mədəniyyətə sərf olunmalıdır. Çünki mədəniyyət hər şeydən üstündür."Bu mükəmməl fikirlərin sahibi haqda nə qədər bəhs etsək də sözsüz ki, yetərsizdir.*

*"Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər". "Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də, mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz" Müşahidələrimiz onu göstərir ki, bu fikirlər bilavasitə onun həyat amalı, əqidəsi ilə üst-üstə düşüb.*

*Harada sənətə və sənətkara hörmət varsa, o yerdə yazıb-yaratmağa həvəs var. Mədəni irsimizin himayədarı Heydər Əliyev həyatı boyunca görkəmli musiqiçilərlə yaxın ünsiyyətdə olar, bəstəkarlar vəmusiqişünaslar, ifaçılar haqqındaçoxdəyərli fikirlər səsləndirərdi. Musiqiçilərimizə diqqət və qayğısı ilə daima ruh yüksəkliyi bəxş edərdi.Fəaliyyətinin bütün dövrlərində mədəniyyət xadimlərinə, musiqiçilərə xüsusi rəğbətlə yanaşardı. Milli musiqi mədəniyyətimiz musiqimizi dünyada tanıdan şəxsiyyətin varlığından güc alırdı. O, yalnız musiqi mədəniyyətinin inkişafı naminə qərar və sərəncamlarla kifayətlənməmiş, həmçinin musiqi həyatının, mədəni tədbirlərin, yaradıcılıq proseslərinin, xalqlararası mədəni əlaqələrin, sənətkar yubileylərinin, yaradıcılıq görüşlərinin əsas təşkilatçısı, ən fəal iştirakçısı olmuşdur.*

*"Yüksək mədəniyyətə malik olan xalq həmişə inkişaf edəcək" devizi ilə dahi şəxsiyyətin dövlətçilik fəaliyyəti boyunca mədəniyyət siyasəti nəticəsindəmusiqi sənətinin inkişafı naminə vacib qərarlara imza atılıb. Mükafatlar, fəxri adlar, orden və medallar sənətkarlara bir növ təşəkkür hədiyyəsi kimi hesab olunur. "Dövlət olaraq biz sizin yorulmaz xidmətinizi, əziyyətini görürük" anlamını daşıyır. O, özünəxas xarakteri ilə mədəniyyət xadimlərini yeni yaradıcılıq axtarışlarına ruhlandırmaq üçün zəhmətlərini çox yüksək qiymətləndirərdi. Bu incə yanaşım tərzi, bu həssasiyyət ulu öndərin zəka dərinliyindən qaynaqlanıb, yüksək alicənablığını ifadə edirdi.*

*Dahi rəhbərə ithaf olunan çox sayda musiqi əsərləri onun mədəniyyət qarşısında tarixi xidmətlərinə, vətən uğrunda fədakar fəaliyyətinə həsr olunub. Bu əsərlər sənətkarların ulu öndərə musiqi və şeir dili ilə etirafıdır. Mən də yaradıcı şəxs kimi öz növbəmdə xalqımızın böyük oğlu, türk dünyasının fəxri,"Heydər baba" kimi xatırladığım vətən xilaskarına "Türkün dədəsi Heydər" adlı yaradıcılıq nümunəmlə onun mənalı ömür yolunu, vətənə və millətə dəyərini, möhtəşəm tarixi şəxsiyyət kimi mənsub olduğu xüsusiyyətlərini musiqi-bədii ifadə vasitələri ilə çatdırmağa çalışmışam.*

*Ulu öndər deyirdi ki, "xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir". Bu fikrin sahibinə yalnız və yalnız dahi adı yaraşır.*

*Dəyər verməyi bacaran hər insan verdiyi dəyər qədər üstündür, ucadır, böyükdür. Vəfat edən görkəmli bəstəkarların xatirələrinin əbədiləşdirilməsi üçün ev-muzeylərinin yaradılması, yubileylərinin təntənəli şəkildə qeyd edilməsi, respublikamızın iri şəhərlərində onların adına küçə, məktəb, mədəniyyət ocaqları, musiqi kollektivlərinin verilməsi dahi şəxsiyyətin adı ilə bağlıdır.İndi biz bu dəyərli şəxsiyyəti ömrün hər çağında xatırlayırıq, ehtiramla yad edirik.. "Heydər Əliyev ili" münasibətilə xalqımızı təbrik edirəm. Qədirbilən millətimizin adından müasir Azərbaycanın memarına məkanında rahat uyumasını diləyirəm.*

## Media nümayəndələrinin iştirakı ilə ağacəkmə aksiyası keçirildi



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib. Adalet.az xəbər verir ki, tədbir çərçivəsində jurnalistlərə açıqlama verən ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, ümumilikdə 480 hektara yaxın ərazidə ağac əkilib:**

"Bu gün 3 000 ağac əkilib.

Yaşıllıqların artırılmasına, ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm vermiş Ulu Öndər Heydər Əliyevin 100-cü ildönümü münasibətilə sözügedən qurumların rəsmilərinin, media subyektlərinin rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə Müşfiqabad qəsəbəsində keçirilən ağacəkmə aksiyası zamanı Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib".

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov jurnalistlərə açıqlamasında qeyd edib ki, Azərbaycanın aparıcı media subyektlərinin təmsilçiləri bu aksiyada böyük həvəslə iştirak edirlər:

"Bildiyiniz kimi Azərbaycanda müstəqil mətbuatın formalaşması və sürətli inkişafının təmin edilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Ulu Öndər həmişə jurnalist peşəsinə dərin hörmət bəsləmiş, mətbuat işçiləri ilə yaxın təmasda olub".



Əbülfət MƏDƏTOĞLU

# DÜNYA KƏDƏRƏ QALIB

Bəli, qışın çox üzücü, necə deyərlər, zəhlə tökən havası var bu gün. Mənimlə razılaşmaya bilərsiniz. Elə çevrəmdəkilər də razılaşmırlar. Vurğulayırlar ki, cibində babat pulun, rahat şəraitin olandan sonra bütün havalar gözəldi. Rəhmətlik Rüfət Zəbioğlu demişkən, "Ələti də Yalta hesab etmək olar!". Təəssüf ki, bizim nə durumumuz, nədə ovqatımız Yaltalıq deyil. Ona görə də havanı qınayırıq, zamanın yaxasını sökürük və bir az da bir-birimizin üstünə gedirik, xətrinə dəyirik əsəblərimizi sakitləşdirmək üçün...

Təəssüf ki,bunlar hamısı qəlbə toxunur... ürəyə dəyir... qanqaraçılıq yaradır əsəb üstünə əsəbgəlir. Necə deyərlər, dərd dərd gətirir. Təəssüf ki, gələn dərdi bölüşməyə həmdərd gəlmir. Onu da başa düşürəm. Çünki həmdərdinözü də öz dərdini çözməklə məşğuldur. Deməli, belə bir məqamda ümid yenə Allahaqalır. Yaxşı ki, ümid kəndirimiz kəsilməyib.

Bu yerdə yadıma rəhmətlik Vahid Əlifoğlu düşür. Onunxalq nağıllarımızın qəhrəmanlarından olan Məlikməmmədə ünvanladığı şeirin adı belə idi: Qaldı Məlikməmməd, qaldı quyuda... İndi biz quyunun dibindəyik. Ammaora iynə ucu boyda işıq da düşür, kəndir də sallanır. Faciə onda baş verəcəkki, həmin iynə ucu boyda işıq qeybə çəkiləcək, kəndirdə ki, lap dəhnədən,kötükdən doğranacaq.

Hə, mən bax belə bir ovqatla sözümün ucunu tapmağa çalışıram. İstəyirəm ki, dediklərimi,yazdıqlarımı tam səmimi qəbul edəsiniz. Düşünməyəsiniz ki, ruh düşkünlüyünün, həyatsıxıntılarının, iqtisadi zərbələrin təsiri altında olan-qalan ağlımı da itirmişəm.Bu dünyanın durumu elə bir nöqtəyə gəlib çıxıb ki, indi ağıllıların da fikirləşməsinə zaman qalmayıb. Dəlilərin çapdığı at, daha doğrusu, idarə etdikləri ən sürətli aparatlar, maşınlar heç tozlarını da görməyə imkan vermir. Ona görə də indi deyəsən ağıllıların da erası bitmək üzrədir.Və mən də bunu bir vəhylə hiss etməkdəyəm. Həmin hisslərin diqtəsiylə də adını çəkmədiyim və heç çəkmək də istəmədiyim bir ünvana yazdığım misraları ürəyimdə təkrarlayıram.

*İndi - bəxtəvər vaxtındı,*
*Dərdin nübar dişi çıxıb.*
*Hamı gülür - demək bu gün*
*Hamının da işi çıxıb.*

*İnsanın dabölgüsü var*
*Oturağı, çölçüsüvar.*
*Hərənin özölçüsü var -*
*Dünya arvad,kişi çıxıb...*

*Ox yoxdusa, kaman nədi*
*Həyat nədi,zaman nədi?!*
*Tüpürməli zəmanədi -*
*Erkək olan dişi çıxıb.*

***

Həyatın bütün özəlliklərinə baxmayaraq, insanın da fərd olaraq özünəməxsusluqları yetərincədir. Və həmin özəlliklə özünəməxsusluq bir yolda, rizdə qarşılaşanda və yaxud yolları paralel düşəndə baxıb görürsən ki, bu rəngarəngliyin içərisində bir xaos da var. Elə bir xaoski, onu ipə-sapa düzmək, onu sıralamaq, yerliyerinə gətirmək və sonra da"FƏRƏQƏT!" komandası vermək o qədər asan olmur. Lakin bir məcburiyyət olduğundan insan o yükün altına da çiyin verir. Çünki şəraitdən çıxmağa məcburdu,bəlkə də məhkumdu. Ona görə də mən sözümün ucunda artıq deməyə çalışdığım fikirlərin ətrafında kolkos doğramağı, necə deyərlər, qab-qaşığı bir-birinə vurmağı artıq bir kənara atmaq niyyətindəyəm. İstəyirəm ki, yolu bir az kəsəsalım. Bu fırlanmaları,bu dolayları qatlayıb qoyum dizimin altına. Axı kəsə yol mənzil başına tez çatmaq deməkdir. Doğrudur, dünyada bir mənzil var ki, ora yolun ölçüsü məlum deyil. Başlanğıc nöqtəsi məlum olsa da, son dayanacaq elə doğum anında taleyə yazılsa da, amma neçə illik, neçə aylıq, neçə günlük bir məsafəni keçib gedəcəyimiz öncədən nə yazılı şəkildə, nədə şifahi halda bizə bəyan edilir. Bunun özü hardasa insanın xoşbəxtliyidi. Yənibiz sonuncu günümüzü bilsək,bəlkə də bu dünyanı çoxdan zəlil günə qoymuşduq. İndi hələ heç nə bilməyəbilməyə dünyanın başında türp əkirik, gününü göy əskiyə bükürük, sinəsini müxtəlif sınaqların meydanına çeviririk. Ona görə də təbii fəlakətlərin, müxtəlif xəstəliklərin sayı və çeşidi də artır. Qalırıq dava-dərman axtara-axtara...

Doğrudur,dünyanın müxtəlif nöqtələrində insanlar üçüncü növü təmsil edirlər. Onlar eksperimentlərin, sınaqların qurbanlarıdılar. "Ağ" insanlar, yəni dünyanı idarə edənlər pullarını artırmaq, imkanlarını daha da genişləndirmək üçün məhz həmino qurbanlıqlardan yararlanıblar. Və mən də özümü bəzən həmin o eksperimentlərinən alisinin, ən vacibinin, ən dəyərlisinin, ən önəmlisinin qurbanı sayıram.Çünki həmin eksperiment bir dənə, bir buğdaya nəfsini güdaza verənlərin, yəniAdəmlə Həvvanın zamanından başlayır. Cənnətdə kef içində yaşayan Adəm babamızlaHəvva nənəmiz günlərin bir günü guya bir buğdaya görə qəzəbə tuş gəliblər. Amma mənə elə gəlir ki, onlar sevgi qurbanlarıdılar. Çünki Adəmlə Həvva o boyda sevgidən sonra bir buğdaya tamah salmazdı. Bu, biz insanların uydurmasıdı. Deməli, bu dünyanın ən böyük aşiq-məşuqu elə Adəmlə Həvva olubdu. Bizim sevgimiz isə onların sevgisinin yanında bir şeh damcısıdı.Ona görə də öz-özümə hərdən təsəlli verərək yazıram:

*Nə yaşıma, nəbaşıma uyğundu*
*Bir dəlilik nişanıdı bu sevgi...*
*Həm müqəddəs, həmdə həzin duyğudu -*
*Torpaq, hava, od və mənə su, sevgi!..*

*Gözlərinə uzaqdan, həm yaxından*
*Baxa-baxa asılanda yaxandan...*
*Olub məni yandırandan, yaxandan -*
*Son nəğməsin səsləndirən Qu, sevgi..*

*Xəyal qurmaq,gün keçirmək nağıl tək*
*Sona qalır ortalıqda ağıl - tək...*
*Aç tilsimin,bağladığım daxıl tək -*
*Ürəyini ürəyimdə yu, sevgi!..*

***

Ömrün fəsillərəbölünməsi yəqin ki, ağıllıların ağlına gəlib. Daha çox da bu fikir yəqin ki şairlərə məxsusdu. Çünki yeri gələndə az-az uydurmaq onların işidi. Bax, bu mənada indi təkcə təbiətin deyil, həm də aid olduğun nəslin ömür payına düşən qışı yaşayırıq. Kim çıxacaq bu payızdan... kim çıxacaq bu qışdan... Onları düşünmək belə istəmirəm. Çünki düşünsəm də dəqiq bir qərar verə bilməyəcəm, dəqiq bir nəticə ortaya qoymaq mümkün olmayacaq. Bu, özü-özünü yormaqdan, özü-özünü fikirlərin burulğanında batırmaqdan başqa bir şey deyil. Doğrudur, bəzən insan özü istəmədəndə fikir onun yaxasından tutur. Çünk tökülən, saralan yarpaqlar özü pıçıldayır bu dediklərimi. Və biz də reallığın qarşısında susuruq,o məqama kimi gözləyirik ki, ordan sonra fəsilin yazı başlayır, yayı başlayır.Amma qışdan, payızdan çıxdığımız unudulur. Elə bil ki, heç ömrümüzdə olmayıblar...

İnsana məxsusolan bu qəribəlik, zənnimcə, elə insanın öz yaradıcılığıdı. Ayaqda qalmaq, sabaha inamla getmək yaradıcılığı. Bax, mən də dünyanın (yazımın əvvəlindəsöylədiyim kimi - Ə.M.) bu qarışıq, bu xaotik məqamında özüm üçün bir qərar qəbuletmişəm. Daha doğrusu, bunu öz kəşfim hesab edirəm. Biz azaldıqca dünyada kədərin meydanı genişlənir. Yəni dünya kədərə qalır... kədər sahib olur dünyaya...

Bir az ağrılı,bir az nostalji olsa da, mən indi dünyanın daha çox kədər ünvanı olduğuna,dünyanın daha çox kədərin caynaqlarına keçməsinə şübhə etmirəm. Elə o şübhələrə qalib gəlmək, özümü dözümlü göstərmək üçün yazmışam:

*Bir tənhalıq,bir sükut*
*Hamilə qara bulud...*
*Güllələnmiş son umud -*
*Dünya kədərə qalıb...*

*Bir nişangah,bir nişan*
*Nişangahdı pir,nişan...*
*Yer də, göy də pərişan-*
*Dünya kədərə qalıb...*

*Gündüz qan-tər, gecə qor*
*Bir ağac var oda dor!*
*İçim, çölüm ancaq gor -*
*Dünya kədərə qalıb...*

*Səsim yetim,sözüm nəm*
*Güləşirəm özümnən...*
*Dünya düşüb gözümdən -*
*Dünya kədərə qalıb.*

*Heyrət, diqqət calaqdı*
*Üst-üstədi,qalaqdı...*
*Hər halıyla alaqdı -*
*Dünya kədərə qalıb.*

Bəli, indi sevincdən çox kədərin at oynatdığı, təbəssümdən çox göz yaşımın bəzədiyi budünya mənə görə kədərə qalıb. Sizə görə isə?.. Onu özünüz müəyyənləşdirin.Sonra deməyin ki, haqqınıza şərik çıxdım.

# Sözün qüdrəti, kəlamın hikməti



Oqtay Ərgünəş Əliyev,
Yazıçı-publisist

1. Bu gün dünyanın insanlığa ehtiyacı var...

2. Bu dünyada sevgisinə inandığım yeganə insan anamdır...

3. Ana haqqı ödənməz, onu sevməyəsə övlad ömrü yetməz.

4. Şəhid anaları qürub edən Günəşə bənzər!..

5. Övladı ilə imtahan edilən ata-analar nələr çəkirlər.

6. Bütün dünyanın vardövləti mənim olsa belə, tək anama dəyməz!

7. Zəfər-qələbə haqq yolunda savaşanlarındır!..

8. Nənə qəhərlənib qınayır: dünyadan köçənlər özləriylə nə aparırlar ki, bala?..

Gülalı deyir: Ay nənə, indi dünyasını dəyişənlərin bəziləri törətdikləri bəd əməllərinə görə özləriylə o qədər şərəfsizliklər, söyüş-qarğış, nif-nalə, borc-kredit aparırlar ki... Onlara heç "rəhmət" də demirlər.

9. Vətən torpağında Atan-Anan, əzizlərin uyuyur. Ana-torpağı qoyub, harayasa getmək olarmı?!.

10. Qarabağ uğrunda döyüşlərdə, gözlərini itirmiş qazi qürurla deyir: - görən gözüm azad Azərbaycandır!..

11. Ən gözəl əsərləri canı-qanı bahasına qəhrəman əsgərlər yazırlar.

12. Şəhidin son mənzili əbədiyyətdir.

13. İgid, qəhrəman şəhid, qazi övladlarımızın qanı ilə yoğrulmuş Vətən torpaqları daha çox qəhrəmanlar yetirəcəkdir.

14. Xristian dünyasının dövlətləri bir-birini qırır-çapır, onları barışa, sülhə, dostluğa, insanlığa çağıran isə müsəlman-Türk lideri Ərdoğandır.

15. İnsanın cismində ən gözəl nədir?

- İnsanın daxili aləmi, əsasən, simasından oxunar, ən gözəli məhz üzdür.
- İnsanın simasında daha gözəli nədir?
- Üzdə ən gözəli min bir məna daşıyan gözdür.
- İnsan gözəlliklərini izhar edən nədir?
- İnsanın bütün daxili aləmini və mənəvi gözəlliklərini bildirənsə könüllərdən pərvazlanan sözdür.

17. Haqq-ədalətli və səxavətli insanın yükü ağır olar.

18. Təvazökar ol, amma özünü alçaltma...

19. Geriyə bax, amma geriyə dönmə...

20. Bağışla, amma heç vaxt unutma...

21. Təbii hadisələri anlamaq və təhlil etmək lazımdır.

22. Dinə münasibət və real həqiqətlər.

23. Insanın yaranma təməli - müxtəlifliklər.

24. Yaramaz, bacarıqsız məmurlarla, hətta, yaxşı qanunları olan dövlət də çökdürülə bilər.

25. Məddahların boş qazanlarının danqıltısı qulaq dəlir.

26. Öz əlimizlə küçüklərdən köpəklər böyüdürük.

27. Hernən-zırın fərqini anlamayan məmurlar xalqa divan tuturlar.

28. Qəhrəman Azərbaycan oğlu, Şuşanın azadlığı arzusu ilə döyüşən, ağır yaralı əsgəri də çiynində özü ilə Şuşaya apardı. - : "Heç olmasa, qoy Şuşanı görsün..."

29. Mənəviyyatımızın mənəviyyatsız düşmənləri çoxalıb...

30. Övladlar ailənin və cəmiyyətin güzgüsüdür.

31. Valideynlərdən övladlara qalan bir şərəfli ad, bir də xatirələrdir.

Övladlardansa valideynlərə qalan, o da qismət olsa, bir qəbirüstü abidədir.

32. Səngərdə bir yuvada pas atmış bir ovuc düşmən gülləsi tapdım. Düşündüm ki, neçə Vətən övladı salamat qalıb...

33. Vətən torpağına gömülən igidlərimiz torpaq üstə yaşayan xalqımız üçün əziz yadigarlardır.

34. Səngərdə çiyin-çiyinə döyüşən atalar və oğullar daxilən nələr yaşayırlar...

35. Cəbhədə döyüşən əsgər oğlu vurulanda, ananın evində ürəyi dayandı.

36. Elə zənginlər var ki, lənət qoxuyur, gül üzlü şəhidlərimiz fərqinə varmadan belələrini də müdafiə edirlər.

37. Azərbaycanlılar indi dünyada qəhrəman xalq kimi tanınırlar.

38. Ala qarğa 300 il yaşasa da, həmişə təzək eşələyir...

39. Xoş ləfsi olan insanla birgə yaşamaq xoşbəxtlikdir.

40. Sevdiyin insan da kaşki sevəydi səni...

41. Şəhid övladı: - Biz universitetə gedəndə, Atamız mütləq qayıdacaq...

42. Biqeyrət qeyrətə gələrmiş.

Quru yaşa peyvənd olarmış.

Ana balaya həsrət qalarmış.

Əyri, yolu düz keçərmiş.

Düz, əyri qarşısında diz çökərmiş

Lənətə gələsən, belə dövran...

43. Əsgərin əzizlərinə son sözü: - Sizi sevə-sevə Vətənim uğrunda savaşa gedirəm!..

44. Ağıl-düşüncənin ifadə qərargahıdır.

45. Qarabağ uğrunda döyüşən qəhrəmanların nümunəsi gənclərimizin tərbiyə məktəbidir.

(ardı var)



Arzu Əsəd

## ƏRDOĞAN

Türkün şanlı yürüşü çatırmış kimi sona,
Yenidən gömülürmüş kimi Ərgənəkona,
Bu dəfə qussun deyə yeddi əsrin kinini,
Bəlkə bitirsin deyə Allahın son dinini,
Zülmün, məkrin qoşunu dörd yanını sarırkən,
- Bu dəfə son, bu dəfə nəhayət bitdi! - derkən
O ruh, o qalib ruh ki, hər doğanda sirr doğan,
İndi də səndə doğdu, Rəcəb Tayyib Ərdoğan!

Tarix çökür, zamanın laylarına sıxılır,
İnsanlığın ruhuna, damarına yığılır.
Möhtac olduğun qüdrət damarında qandadır,
Sənin yaşamaq haqqın yaşanmış zamandadır!
Tarix kimə verdi ki sınırsız qüdrətini,
Kim alıb, kim daşıyır haqqın əmanətini?
O ruh, o nadir ruh ki, hər əsrdə bir doğan,
İndi də səndə doğdu, Rəcəb Tayyib Ərdoğan!
Yeri-göyü bölələr, kimlər kimlər gələlər,
Onlar Allahdılarmı bizə yol göstərələr?
Beş qitənin üstünə qalxmadımı beş barmaq,
Əsrin üfüqlərinə türkün açdığı bayraq
Demədimi dünyaya dünya beşdən böyükdür,
Tarix türkün məhşərə daşıyacağı yükdür!
O ruh, o qalib ruh ki, hər doğanda pir doğan,
İndi də səndə doğdu, Rəcəb Tayyib Ərdoğan!

Nə bütlər çökdü sındı sənin yüksəlişinlə,
Siyasət meydanına peyğəmbər gəlişinlə.
Tuzaqları dağıdan, qurğuları uçuran,
Hesabları qapadan, uykuları qaçıran,
Onca adam içində qərib adam, tək adam,
Adam kimi bə adam, qatqısız gerçək adam!
O ruh, o parlaq ruh ki, almaz doğan, dürr doğan,
İndi də səndə doğdu, Rəcəb Tayyib Ərdoğan!

Ey ayağa qalxışı dirilən insanlığın,
Ey canlı yürüyüşü əzmin, qəhrəmanlığın.
Ey türk, nə mutlu sana, ey ruh, nə rəhmət sana
Yarın salam verirkən əbədiyyətdə Ona,
Dörd yanında cənnətin işıl-işıl nurları,
Bədrin, Çanaqqalanın, Qarabağın ərləri!
O ruh, o şəhid ruh ki, aşiq doğan, ər doğan,
İndi də səndə doğdu, Rəcəb Tayyib Ərdoğan!
Çırpınacaq, çatacaq, yüksələcək Türkiyə
İdrakın ulaşdığı o əngin yüksəkliyə.
Daşacaq, daşıracaq nəsillərin hünəri
Fatehin, Atatürkün açdığı üfüqləri.
Türkün ağlı, xəyalı sonsuzluğa yetməzmi?!
İstanbulu fəth edən kosmosu fəth etməzmi?!
O ruh, o yılmaz ruh ki, dəmir doğan, sərt doğan,
İndi də səndə doğdu, Rəcəb Tayyib Ərdoğan!

Kim qıracaq bu əzmi, kim yenəcək bu ruhu?
Bir ruh ki, sevdasından nə dönür, nə yorulur.
Vicdanlara çırpınan türkün dəli inadı,
Ürəklərdə qanayan Qarabağın fəryadı.
Ey yüz ilin insanı, əsrə bərabər insan,
Qoca bir tarix görür sənə baxan hər insan.
O ruh, o qalib ruh ki, tarix boyu hürr doğan,
İndi də səndə doğdu Rəcəb Tayyib Ərdoğan!
Ey türkün taleyinə hər əsrdə bir doğan!

# "TURAN BİRLİYİ" sahiblərinə təqdim edildi

**Aprelin 24-də aldığım bir dəvətin işığına üz tutdum...Doğrusunu deyim ki, öncədən bu getdiyim ünvanda nələr baş verəcəyini, hansı törənin iştirakcısı, həm də şahidi olacağımı bilirdim...Həqiqətən nə mən əvvəldən nə isə hiss etmişdim, nə də dəyərli dostum İlqar Türkoğlu nəyisə hiss etdirməmişdi... Düşünmüşdüm ki, bu bizim növbəti könül bölüşmə mərasimimizdi...**

Bəli , necə deyərlər hadisə yerinə gəlib çatdım və burada mahnılarından tanıdığım, amma heç vaxt qarşılaşmadığım Qəzənvər Bəxtiyarı görəndə , təbii ki, rəsmi bir məclisə dəvətli olduğumu anladım... Elə burada onu da xatırladım ki, kiçik dairədə , yəni AYB katibi yazıçı Elçin Hüseyinbəyli, "Ulduz" jurnalının əməkdaşı , şair Dayandur Sevgin, şair, yazıçı, bəstəkar və müğənni Zəka Vilayətoğlu ,eləcə də İlqar Türkoğlu və bu yazının müəllifindən ibarət olan tərkib maraqlı bir Dəyərləndirmə törəni həyata keçirtdi.

İştirakçıları salamlayan başqan İlqar Türkoğlu bildirdi ki, dünyanı bürümüş pandemiya üzündən 2020-ci ildə sahiblərinə təqdim edilməyən mükafatlar bu gün öz sahiblərinin qarşısına gəlib.Yəni artıq bəlli səbəbdən təqdimatı





gecikmiş medallar indi buradadı və onları sizlərin iştirakı və şahidliyi ilə öz sahiblərinə təqdim etmək çox xoşdur. İlqar bəy medalların sahibləri Qəzənfər Bəxtiyar və Zəka Vilayətoğlu yaradıcılığı barədə xoş sözlər söylədi. O, əmin olduğunu bildirdi ki, medal sahiblərinin uğurları hələ çox olacaq!

Mərasim iştirakçılarının alqışları fonunda medallar öz sahiblərinə təqdim edildi.İştirakçıların hər biri ayrı-ayrılıqda fikir bildirməklə TURAN BİRLİYİ medalının sahiblərinə öz təbriklərini çatdırdılar...Onu da xatırlatmaq yerinə düşər ki, bu medalın təsisçisi Əmir Teymur Fondunun baş direktoru, Mərkəzi Asiya Tarixçilər və Yazarlar Birliyinin sədri Joldoşbek Monoldorovdur. Mükafatlandırılanlar bu dəyərə görə Əmir Teymur Fonduna və onun sədrinə təşəkkürlərini bildirdilər.

**Əbülfət Mədətoğlu**



Musa Xanbabazadə

### Mars qalar

Nə erməni,nə də fars
Türkə gəlməsinlər
qorxu-tars.
Türküm bir gediş edər,
hər ikisi qalar mars.

### Gəbərdi

Bir hünər görmədik biz
Paşinyanın zatında.
Öldü-gəbərdi alcaq
44 günlük savaşda
dəmir yumruq altında.

### Dindaş xəyanəti

İran güclə çıxarır
sudan öz çulunu.
Öz başına çarə qılmır,
əl atır sudan çıxarır
dindaşına çamur atan
bir gavurun oğıunu.

### Yetim qalmasın

Savaşın qızğın çağında
yanıqlı-yanıqlı oxuyurdu ud.
Sanki belə deyirdi haray çəkərək:
Dəliqanlı igidim !
Hər nə edirsənsə - et,
ancaq bu savaşı ud.
Ud ki,yetim qalmasın
bizə əmanət bu yurd.

### Mənəmlik azarı

İki qılınc
girməz oldu bir qına.
Yurd yenildi
gözlənilməz basqına.

### Yıxdıq

Gün ilə batdıq,
gün ilə çıxdıq.
Məmləkətdə hökm sürən
kor qaranlığın
taxtını yıxdıq.

# Natiq Səfərov - 80



**Azərbaycan bədii tərcümə sənətinin yaradıcılarından olan ustad qələm sahibi Natiq Səfərovun anadan olmasının 80 -si ildönümüdür.**

Natiq Səfərov sözü, bədii mətni iliklərinəcən hiss edən, ədəbiyyatın daxili mexanizminə dərindən bələd olan tərcüməçi idi.

Tərcümə sənətində böyük xidmətləri olmuş Natiq müəllim bu sənətin əsas prinsiplərini bilirdi, sözün məsuliyyətini dərk edirdi, tərcümə etdiyi mətni bütün hüceyrələrinə qədər hiss edirdi. Dilimizin məna çalarlarını, harmoniyasını canı ilə, qanı ilə hiss edirdi və bu sevgi onun tərcümələrində də aşkar şəkildə görünür. Oljas Süleymenovun bütün dünyaya səs salmış, qədim türk kültürünün rus dilinə, rus mədəniyyətinə təsirindən bəhs edən "Az i Ya" əsəri məhz onun peşəkar tərcüməsində Azərbaycan oxucusuna yetişib.

Natiq Səfərov Folkner və Markesi Azərbaycan oxucusuna ilk tanıdan tərcüməçilərdən olub. Uilyam Folknerin "Yanğın" və "Qırmızı yarpaqlar", Qabriel Markesin "İsabel Makondada yağışa baxır", "Baltasarın həyatında unudulmaz gün", "Dünyanın ən gözəl ölüsü" hekayələri Azərbaycan oxucusunun dünya ədəbiyyatı ilə bağlı üfüqlərini genişləndirib, ədəbi zövqünün formalaşmasında rol oynayıb.

Natiq Səfərovun tərcümələri ədəbi dühaların siqlətiylə bərabər dilimizin imkanlarını da hiss etdirir. Eləcə də Andrey Platanov, Con Steynbek, İlya İlf və Yevgeni Petrov, Knut Hamsun, Vasili Şukşin, Aleksandr Çxeidze və başqa söz ustalarından çevirləri tərcümə sənətinin parlaq nümunələrindəndir.

Ömrünün son illərdə Robert Dahlın məşhur "Demokratiya haqqında" əsərini dilimizə çevirmişdir.

Onu da qeyd edək ki, ustad tərcüməçinin 80 illiyi ilə bağlı "Sözə Natiqlik" kitabı nəşrə hazırlanıb. Kitabda unudulmaz söz adamı haqqında qələm dostlarının, doğmalarının, oxucuların xatirələri toplanıb.

**Qadın taleyi**

# "O hadisədən sonra ərimin ikinci arvadıyla bir evdə yaşamalı oldum..."



**Adalet.az "qadın taleyi" rubrikasında daha bir qadının həyat hekayəsini təqdim edir.**

Bu dəfə sizə Bənövşənin (adı şərtidir) həyat hekayəsindən bəhs edəcəyik. Bənövşə ərinin bir səhvinə görə çox çətin günlər keçirdiyini bildirib. O, olanları belə nəql edib: "Həyat yoldaşım atamın anamın əmisi oğludur. Elə ailələrimizin razılığı ilə evləndik.

Çünki ərimin ata və anası illər öncə rəhmətə gedib. Onu böyük qardaşı evləndirdi. İki qızımız və bir oğlumuz dünyaya gəldi.

Ərim işləmək üçün Rusiyaya gedirdi. Elə olurdu ki, ilin bir çox ayını Rusiyada qalırdı. Amma sonradan gördüm ki, qızlarım da böyüyür, istəmədim ərim uzaqda olsun. Ona görə də kənddə fermada sürücü işləməyə başladı".

### *"Dedim ki, həyat yoldaşım evdə yoxdur..."*

"Günlərin bir günü gördüm ki, qapımıza bir neçə nəfər kişi gəlib ərimi axtarır. Dedim ki, həyat yoldaşım evdə yoxdur və mənə bir söz deməyib çıxıb getdilər.

Sonradan ərimlə danışanda bildim ki, başına iş gəlib. Sən demə ərim fermada işləyəndə bir qızla tanış olub. Görüşüblər, qız indi hamilədir deyə ərim çıxılmaz vəziyyətə düşüb. Qızın qardaşları da deyib ki, ya bacımızı alacaqsan, ya da şikayət verib səni həbs etdirəcəyik".

### *"Ərimlə söhbətimiz zamanı dedi ki..."*

"O hadisədən sonra nə edəcəyimi bilmədim. Ərimlə söhbətimiz zamanı dedi ki, ya o qadını bu evə gətirməliyəm, ya da övladlarımı mənsiz böyütməli olacaqsan. Qarşımda iki seçimim var idi və ona görə bir müddət fikirləşdim.

Sonda qərara gəldim ki, övladlarımı atasız böyütməkdənsə, elə qoy o qadın da bu evdə yaşasın. Dediyim kimi də oldu, qadın da mənim evimdə yaşamalı oldu".

### *"Hamı bizə təəccüblə baxırdı..."*

"Kənddə yeganə qadın idim ki, ərimin ikinci arvadıyla bir evdə yaşayırdım. Hamı bizə təəccüblə baxırdı, məəttəl qalmışdılar. Ərimin ikinci arvadının bir oğlu dünyaya gəldi. Onu böyütdü və artıq indi uşaq orta məktəbdə oxuyur. Amma ərim yenidən Rusiyaya işləməyə getdi.

Onun evdə olmaması qadına çox sərbəstlik verdi. Bir gün mənə dedi ki, anamın evinə qayıdıram. Hər şeyini yığıb çıxıb getdi və sonradan bildim ki, başqa bir adamla tanış olub və onun təklifi ilə ata evinə qayıdıb. İndi birlikdədilər.

Amma həyatında olduğu kişinin də öz ailəsi var. Mən isə qızlarımı gəlin köçürdüm, oğlumla birlikdə yaşayıram. Ərimin səhvləri isə bizi kənddə biabır elədi".

**Vasif Əlihüseyn**

# *Meymunlar uşağı öldürdülər*



**Hindistanın Katukuri kəndində Devunuri Abhinav adlı 3 yaşlı oğlan həyətdə oynayarkən damdan başına daş düşüb.**

Yerli əhalinin ehtimallarına görə, daşı həmin ərazidə çox görünən və aqressivlikləri ilə tanınan meymunlar atıblar.

Uşaq hadisə yerində keçinib.

Abhinavın bir müddət öncə ağır əməliyyatdan çıxdığı bildirilir. Bu hadisədən yarım il qabaq o, bıçağın üstünə yıxılaraq boynundan ağır yaralanmışdı.

Kənd sakinləri uzun müddətdir ki, onları narahat edən və çətinlik yaradan meymunlardan şikayətçidirlər, lakin bu, ilk ölüm hadisəsidir.

Bütün Hindistan ərazisində meymunların insanlara hücumu elə bir həddə çatıb ki, hökümət aqressiv heyvanlara qarşı sərt tədbirlər görməyi nəzərdən keçirir. Məsələn, meymunları sterilizasiya edəcək peyvəndin hazırlanması və bu yolla onların sayının azaldılması planlaşdırılır.

**Emin**

Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 16 (2340) 28 aprel 2023-cü il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi


# DÜNYANIN ƏN GÖZƏL ŞƏHƏRİ...

**Təbii ki, dünyada bir-birindən gözəl şəhərlər çoxdur və hər şəhərin də öz milli memarlıq üslubu, tarixi elementləri, eyni zamanda gözəllikləri var. Bunlar hamısı aydındır, amma ən təəccüblüsü odur ki, bu şəhəri bir vaxtlar erməni işğalçıları daşı-daş üstündə qoymayıb, yandırıb külə döndəriblər. Əlbəttə, hər şeyi təzədən başlamaq, yenidən inşa etmək, elə özü də orijinal bir formada şəhər salmaq elə də asan deyildi. Bayaq dediyimiz kimi, 1993-cü il avqustun 23-də Füzuli rayonu işğal olunanda ermənilər Horadizi od vurub yandırdılar. Şəhərin tüstüsü ərşə qalxmışdı. Arazdakı körpüdən keçib Aslandüzdə bu faciəli anı seyr edən bir çox sakinlər hönkür-hönkür ağlayırdılar. Və nə yaxşı ki, bu kədər, bu dərd uzun müddət davam eləmədi və 1994-cü ilin yanvarın əvvəllərində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə "Horadiz əməliyyatı" aparıldı. Horadiz şəhəri və Füzulinin 22 kəndi erməni işğalından azad olundu.**

Qısa zaman kəsiyində rayonun sosial-iqtisadi inkişafı zaman-zaman yenidən tərəqqi etməyə başladı. Ulu Öndər Heydər Əliyevin tapşırığı və tövsiyyəsi ilə bu şəhərdə və 22 kənddə çox möhtəşəm abadlıq və quruculuq işlərinə başlanıldı. Uümummilli Lider özü bir neçə dəfə Füzuli rayonuna səfər etdi, görülmüş və tikilmiş bir neçə möhtəşəm obyektin açılışını həyata keçirdi və bu quruculuq işlərinin daha geniş vüsət alması üçün konkret tapşırıqılar verdi. Üstəlik də şəhərin və 22 yaşayış məntəqəsinin yenidən inşa olunması üçün milyonlarla manat vəsait ayrıldı.

Aydındır ki, böyük quruculuq işlərinin həyata keçirilməsi sözün həqiqi mənasında həm məsəuliyətli, həm də qürurverici bir iş idi. Ona görə də ilk növbədə Horadiz şəhərində sosial obyektlərin, yaşayış binalarının tikintisinə və bərpasına başlanıldı. Yol infrastrukturu yenidən quruldu. Şəhərin yandırılmış binaları bir-bir sökülərək müasir üslubda inşa olundu və eyni zamanda Horadizə işıq, qaz, su xətləri çəkildi. Bu isə deməkdi ki, şəhərdə insanların normal yaşaması və işləməsi üçün əlverişli şərait yaradılmışdı. Təbii ki, ilk növbədə adını çəkdiyimiz sosial obbyektlərlə yanaşı, məktəblərin və uşaq bağçalarının, eləcə də xəstəxanalıran iikintisi diqqət mərkəzində saxlanıldı. Zarafat deyildi, yandırılmış və külə dönrdərilmiş şəhər yenidən tikilib, dirçəlir və qurulurdu. Axı bir müddətdən sonra şəhərə minlərlə sakin qayıtmalı idi. Onların yaşayışını, iş yerini təmin etmək üçün ciddi addımlar atılmalı idi. Bu addımlar da zaman-zaman atılırdı. Ən başlıcası o idi ki, yerli sakinlər şəhərə çox böyük sevinclə, həvəslə qaydırdılar. Onlar öz gözlərinə inanmırdalır. Beş-altı ayın içərisində şəhərdə çox möhtəşəm işlər görülmüş, abadlıq-tikinti quruculuq tədbirləri gerçəkləşmiş və bir-birindən yaraşıqlı, gözəl binalar inşa olunmuşdur. Heç şübhəsiz, sakinlər bu mənrəzərəni və bu anı görəndən sonra şəhərdə yaşamağa və işləməyə daha böyük maraq göstərirdilər.





Eyni zamanda, şəhərə qayıdan və orada işləyən sakinlərin təhlükəsizliyi də Azərbaycan Ordusu tərəfindən yüksək səviyyədə təmin edilirdi. Horadizdə Heydər Əliyev parkının tikilməsi və onun möhtəşəm bir formada inşa olunması şəhərə gələn çox insanları təəccübləndirirdi. Bu tikintidə milli memarlıq üslubu ilə yanaşı, tarixi elementlərə də xüsusi diqqət yetirilirdi. Heç şübhəsiz bu möhtəşəm bu parkın inşa olunması şəhərə möhtəşəm bir gözəllik və füsunkarlıq gətirirdi. Parkda bir-birindən gözəl güllər, çiçəklər və yaşıllıqlar adamın diqqətini özünə cəlb edirdi. Sanki bura bir cənnətə bənzəyirdi. Bir müddətdən sonra park daha da gözəlləşdirildi. Onun sahəsi bir qədər də genişlənrdirildi. Parkın içərisində bir-birindən gözəl və müasir üslubda istirahət guşələri inşa edildi. Elə "Gənclər Mərkəzi"nin, YAP-ın Füzuli rayon şöbəsinin yeni binasının inşası nəyə desən dəyər. Eyni zamanda, güllərin və çiçəklərin, yaşıllıqların qorunması, suvarılması və orada səliqə-səhmanın yaranması Rayon Mənzil Kommunal Təsərrüfatının daim diqqət mərkəzində oldu. Heç də təsadüfi deyil ki, Horadiz şəhərində son beş-on ildə yüz mindən çox şam ağacı, çinar və eləcə də digər ağaclar və bəzək kolları əkilib. Hər gün səhər saat 7-8 radələrində Kommunal Təsərrüfatının əməkdaşları orada təmizlik işləri aparır, ağacları sulayır, bir çox ağaclarınsa qurumuş budaqlarını darayır və eyni zamanda onların inkişafı üçün lazımi aqrotexniki tədbirlər həyata keçirilir.



Füzulidə və o cümlədən Horadizdə çox möhtəşəm quruculuq işləri davam edib və bu gün də davam edir. Çoxlu sayda sosial obyektəlr tikilməklə yanaşı, yeni iş yerləri açılır və bu gün tam məsuliyyətlə demək olar ki, Horadiz şəhərində çoxlu sayda insanlar öz vəzifə borclarını yerinə yetirir, qarşıya qoyulmuş tapşırıqları icra edir, bir sözlə, şəhərin inkişaf etməsi üçün hər kəs öz bacardığı qədər bir işin qulpundan yapışır. Yeni istehsalat sahələrinin açılması, sahibkarlıq fəaliyyətinin inkişafı daim diqqət mərkəzində olub. Əlbəttə, insanlar o yerdə duruş tapırlar ki, onların iş yerləri olur və rahat yaşaması üçün lazımi şərait yaradılır. Bax, belə bir şərait sözün həqiqi mənasında Horadiz şəhərində yaradılıb və insanlar bundan çox razıdırlar.

Məsələn, Horadiz sakini Cəfər Nadir oğlu Əhmədov deyir ki, bizim şəhərə kimin yolu düşsə, elə həmin an təəccüblənəcək. Bəlkə kimsə əvvəllər yolunu bu şəhərdən salıb. Yəqin onlar əvvəlki Horadizi də görüblər, bugünkü şəhəri də. Sovet dövründə Horadiz yaxşı şəhər idi və burda demək olar ki, çox böyük ticarət mərkəzləri, tikinti birlikləri və eləcə də digər sosial obyektlər mövcud idi. Amma bu gün, Allah and olsun Horadiz Sovet dövründə olduğundan qat-qat gözəldir. İnanmırsınız, yolunuzu bizim şəhərə salın, görün şəhərimiz necə də gözəldir.

Prezident İlham Əliyev dəfələrlə Horadizə səfər edib və onun çox böyük qayğısı, diqqəti sayəsində şəhərdə möhtəşəm abadlıq işləri görülüb. Prezident hər səfərində şəhərdə neçə-neçə sosial obyektin açılışında iştirak edib. Bütün bnlar onu göstərir ki, Horadiz gündən-günə gözəlləşir və Avropanın şəhərlərinə bənzəyir.

Şəhərin ən gözəl yerlərindən biri də Bayraq Meydanıdır. Bu Bayraq Meydanı öz əzəməti, möhtəşəmliyi ilə seçilir. Ən yüksək yerdə inşa olunmuş bu meydanda minlərlə küknar ağacı əkilib və meydana qeyri-adi bir gözəllik gətirib, üstəlik də həmin ağacların damcı üsulu ilə suvarılması bu ağacların daha yaxşı inkişaf etməsinə şərait yaradır. Əlbəttə, gözəl şəhər salmaq da olar, gözəl park tikmək də mmükündür. Amma gərək o gözəlliyi həm də qorumağı bacarasan. Yayın istisində və qışın soyuğunda kommunal təsərrüfatın işçiləri nəinki Bayraq Meydanında, hətta digər praklarda və meydanlarda yaşıllıqlara və ağaclara yüksək xidmət göstərir, onları vaxtında suvarır, quru budaqları təmizləyir və parklarda səliqə-səhman yaradırlar.

**Bəli, dünyanın çox gözəl şəhərləri var və o gözəl şəhərlərindən biri də Horadizdir. Bəzən onu Avropa şəhərlərinə bənzədirlər. Amma elə Horadiz özü milli memarlıq üslubu ilə və orjinal inşası ilə elə özünə bənzəyir: gözəl, yaraşıqlı və füsunkar!**

**FAİQ QİSMƏTOGLU**

**AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ**

# Parklarımızın görüntüsünü pozan adam

**ESSE**

Tərlanın şeirindən götürdüyüm misradır. Diskurs daxilində yeri çox rahatdır. Amma yuxarı başa çıxarılandan sonra "sancılar"ı başlanıb:

***sən parklarımızın***
***görüntüsünü pozursan-deyib,***
***xətrinə dəymirlər,***
***cərimə etmirlər adamı***
***Rüsum istəmirlər oturan yerdə***
***darıxmağa***
***ən pis halda ayaq üstə darıxırsan,***
***ya da birinə yaxınlaşıb***
***icazə istəyirsən,***
***yanında oturab icazəli-icazəli***
***darıxırsan...***

Çox acı bir "təsəlli"dir. Tərlan bəlkə də onun tamını hiss etmir?! Və bu onun xoşbəxtliyidir.

Niyə?!

Bir az sonra...

***

Özünə kənardan baxmaq "sənəti"nə aludə olanlardan zəhləm gedir. Guya bunlar toplumdan bir baş yuxarıdırlır. Əsas səbəb də özlərinə kənardan baxa bilmələri göstərilir. Öz boyunlarını rəng-bərəng qalstuklara könüllü təslim edən andan (deyəsən, onların həyatda gördüyü yeganə "könüllü" iş elə budur) sutkanın sonuna qədər bu adamların təbəssümü, ritorikası və hərəkət troyektoriyası da öncədən planlanır, üzlərinə irişəcəyi və üz göstərməyəcəyi adamların siyahısı tutulur, bir sözlə, hər şey kənara hesablanır. Belələri şair, yazıçı, ümumən, sənət adamları olanda tablo lap dramatikləşir.

Görəsən, Səttar Bəhlulzadə bu lənətə gəlmiş, ləçər "kənar"dan özünə baxırdımı? Cavad Mircavadov necə? Xaqani, Məhsəti xanım Gəncəvi, Mirzə Şəfi, Vaqif Bayatlı necə?!

Tərlan gözəl deyir:

***Adam özü olmayanda***
***Söyüş də yaxşı çıxmır ağzından, ruh da...***

***

Özünü, şeirini, ölkənin hər yerindən görünən poetik boyunu, günboyu ora-bura bühudə dağıtdığı mükəmməl düşüncə qavramlarını bir qram da vecinə almayan bir adam düşünün. Bax, Tərlan odur!

Təkrar-təkrar məhz sonuncu körpüyə qalxan yoxuşda (ədəbi körpü ucalığında!) səbirsizlənib ötmə əməliyyatına düzgün əməl eləməyən, buna görə də tez-tez cərimələnən və "cəzalı ədəbi arabaçı" adını əbədi olaraq özünə haqq eləyən bir müsafir yada salın: Bax, Tərlan odur!

Ən mükəmməl tablosuna öz imzasını qoymağı unudan bir sərsəri rəssam xatırlayın. Bax, Tərlan odur...

Sutkanın 24 saatını duelə çağırış əhvalına köklənən və əgər duel baş tutarsa, məhz öz şeirini sekundant eləməkdən ötrü dava-dalaş salan 55 yaşlı bir dəliqanlı obrazına fokuslanın. Bax, Tərlan odur!

***Dər məni nəfəstək, çək öz içinə,***
***Adım dodağında yer saxlamasın...***
***Saçların sinəmdə zəmiyə dönsün,***
***Qollarım özgəni qucaqlamasın.***

***Köklənim əlinə, ayağına, qoy***
***Yerini bir kimsə soraqlamasın.***
***Səni məndən başqa bilən olmasın,***
***Məni də özgəsi varaqlamasın.***
***Şeirdə şiddətli duel küləkləri əsir...***

***

Tanrı nəinki istedadlı adamları, həm də onların yaşayacağı məkanları da öncədən seçir. İstedad həmişə məkana uduzur. (Söhbət istedadlı adamlardan gedir, istedadsızlar məkanla həmişə dil tapırlar) Tərlan da əziz məkana - Lənkərana uduzan birisidir.

Necə ki, Anar Həbiboğlu uduzdu...

Bizdə isə istedadlı "məğlub"ları sevmirlər.

Bu gün rəssam Adil Əsədli də çırpınır, Tofiq Həsənli də, Tərlan da... Mümkündür ki, onların məğlubiyyətindən sonra dairəvi qala da təmir olunacaq, milli mətbəximiz bizə bir dənə də qızıl medal bəxş edəcək...

Bəs sonra?!

Rica edirəm, istedadlardan bir az aralı durun.

İmkan verin, onlar özləri özlərini linç eləsinlər...

Anar Həbiboğlu kimi...

Sonra da o qızıl medalı götürüb dünya mətbəxinin gözünə soxarsınız...

İlahi Sözün "ləvəngi"yə və pitiyə uduzduğu yerdə yaşamaq dəhşətdi...

Amma nə yazıq ki, şairlər məhz "dəhşətlər"i sevirlər:

***Bircə ona şükür ki,***
***sevgi hələ də hisslərin***
***ən qədim olanıdır,***
***Bircə ona şükür ki,***
***darıxmaq üçün ölkənin heç bir***
***yerində növbəyə durmur adam...***

Əgər belə bir növbə olsa, Tərlan, sözsüz ki, ilk sırada olacaq...

***

Millət vəkili, tanınmış yazıçı Aqil Abbas və xanımı hər dəfə Lənkərana gələndə Tərlanı tapır, onunla həmsöhbət olur, mənəvi dəstəklərini əsirgəmirlər. Onlar bu aristokratik hərəkətlərilə bizə həm işıqlı, həm də çox ciddi bir mesaj yollayırlar, yəni, Lənkəran bizim üçün həm də Tərlan deməkdir, istedadınızın qədrini bilin! Amma biz nə edirik? Beş addımlığında ola-ola onu görməzdən gəlirik. İllərdir diplomunun olmamasını bəhanə edib işsiz qoymuşuq onu. Lənətə gəlmiş bu diplom nədir axı? Hansı istedadın göstəricisidir? On illərdir ölkədə saxta diplomların yığışdırılması ilə bağlı "təmizlənmə" işləri gedir? Təmizlənirmi? Gedib pulunu verib, diplomunu alan yüzlərlə "alimciyəz"lərimiz var. İşimiz yox onlarla. Amma onlar istedadları parçalamağa hazırdırlar, axı. Özlərindən betərlərini yığırlar ətraflarına...



***Öyrət mənə bu günün əlifbasını,***
***mənə asılqandan palto,***
***divardan şəkil,***
***tavandan nənni asmağı öyrət,***
***adam asmağı yox...***
***Kaş adam asmağı öyrənəydin, Tərlan!***
***Sözün metafizik anlamında...***

***

Və Tanrı Tərlanı onu ən uca diplomla mükafatlandırıb - ona Böyük İstedad verib. Bilmirəm, bu yerdə niyə boğazımı qəhər tutdu və Şəhriyarın qosqoca, yorğun səsi gəldi qulaqlarıma?!

***Tehranın qeyrəti yox Şəhriyarı saxlamağa,***
***Qaçmışam Təbrizə, qoy yaxşı-yaman bəllənsin.***

İndilikdə Lənkəranın poetik səmasında (bu həm də bütöv Azərbaycan səmasıdır!) iki boynubükük durna uçur: Tofiq Həsənli və Tərlan. Onlar Üç nəfər idilər. Anarı deyirəm - Anar Həbiboğlunu...

Qanadlarını özü qırdı.

Çiynindəki ağır yükə tablaşmadı...

İndi siz Tərlanın və Tofiqin ötkəmliyini, dəli-doluluğunu bəyənmirsiniz, öz işinizdir, heç olmasa dayanın, durun! Onların depresiv hala düşməsinə çalışmayın!

Niyyətiniz nədir?

Deyirsiniz ki, Lənkəranda istedad qalmasın?!

Yox, elə bir fon yaranmasın ki, Tərlanın müdafiəmizə ehtiyacı vardır. Və heç kəs də Tərlanı linç eləmək fikrində deyildir. Ustadım Kamal Abdulla deyir: "İlahi, bilməyənləri bilənlərin qəzəbindən qoru". Nə qəzəbliyəm, nə də bilən, sadəcə, "həqiqəti çılpaq görmədiyimə görə" emosionalam.

Məqsədim hamının bildiyi bir həqiqəti qabartmaqdır: Təqaüd yaşına çatdıqdan sonra şan-şöhrət acları kimi ədəbiyyata dürtülən, işi-peşəsi çayxana günclərində özü kimi istedadsızlardan (qoca, ya cavan, fərqi yoxdur!) "həmfikir" tapmaq olan, bununla da ədəbi cameəni sovetdənqalma kollektiv təsərrüfat sahəsinə və məşuqəyə çevirən şəxslərlə ədəbiyyata təmənnasız olaraq ömrünü - canını, qanını, ruhunu bəxş əsl söz adamlarını fərqləndirməyin zamanı gəlib. Bu həm də qan bahasına əldə etdiyimiz Müstəqilliyimizin ən uca mesajıdır. Şüurumuz totalitarizm illüziyaları və avtoritar qarabasmalardan tam xilas olmasa, Müstəqilliyimiz də natamam olacaq...

***

Tərlan daha çox sərbəstdə yazır. Bu vəzn onun xarakterinə çox uyuğundur. Sərbəst şeirlərində qəfil dil dönümləri və çevrilmələr diqqətçəkicidir, burada simvolik obrazlar, real və sürreal detallar qovuşuqdur. Onun heca və əruzda yazdığı şeirlər də orijinallığı ilə seçilir.

Tərlanın qəzəl janrına gətirdiyi yenilikləri isə heç kəs dana bilməz; o sanki anadangəlmə əruzşünasdır, əruzla əlaqəli elmi, polemik söhbətlərə tez-tez qatılır...

Şeirlərinin birində belə bir misra vardır:

***Uçmaq istəyən bir adam***
***dərəyə baxır...***

Mətnin əvvəlində qeyd eləmişdim ki, Tərlan öz-özünə verdiyi acı və acımasız təsəllinin dadını-tamını hiss eləmir sanki. "Niyə"si indicə bilindi; sən demə, nəzərləri dərənin dibinə zillənən adam üçün göyə və ya dərəyə uçmağın heç bir fərqi yoxmuş...

**Mehman Qaraxanoğlu**

# "Rolumu oynadım, 30 manat verdilər, məni ağlamaq tutdu"

## *Ukraynadan gələn aktyorumuz danışdı*

***Müsahibimiz Ukraynada təhsil almış və dünyaca məşhur aktyorlarla birgə filmə çəkilmiş aktyor Fuad Cabbarlıdır.***

**- Fuad, necə oldu ki, yolunuz Ukraynaya düşdü və aktyorluğa başladınız.**

- 2009-2010-cu illərdə hərbi xidməti bitirdikdən sonra 1 ilə yaxın Azərbaycandakı Koreya səfirliyində mühafizə xidmətində işlədim. Orada işlədiyim dövrdə bir çox təkliflər gəldi ki, diplomun olsa, səni göndərərdik Koreyaya, başqa işlərlə təmin edərdik. Diplomum olmadığı üçün hansısa universitetə qəbul olmağa çalışırdım. Bir tanışım dedi ki, Ukraynada universitetlərin birinə düzəldə bilərəm, özün oxuyub bitirərsən. Elə oldu ki, 2012-ci ildə universitetə düzəldim. Təxminən 2014-2015-ci illərdə artıq görünüş olaraq cəlb etdiyim üçün prodüsserlər, kastinq direktorları mənə rollar oynamağı təklif edirdilər. Taekvandodan I dan qara kəmərim var. Nunçakanı çox usta şəkildə oynada bilirəm. Hətta Brusli kimi nunçaka ilə stolüstü tenis də oynaya bilirəm. At çapa bilirəm, futbol oynamağı bacarıram. Aktyor çoxşaxəli olmalıdır. Dünyada bu belədir. Tələbə olduğum üçün bir müddət gələn təkliflərdən imtina edirdim. Zaman keçdikcə gələn təkliflərə baxırdım, məbləğlər məni cəlb edirdi. Məsələn, ukraynalıların özünə verirdilərsə 50-100 dollar, mənə bunun üç qat artığını verirdilər.

Hələ adi massovka kimi. Belə-belə bir də gördüm yaxşı rollara təklif gəlir.

**- Hansı filmlərə çəkilmisiniz?**

- "Yalanın sirri", "Ukrayna tarixi", "Qəhrəmanlar və qorxaqlar" kimi filmlərdə Mel Gibson, Skot Atkins, Robert Hammond Patrik kimi dünya ulduzları ilə birgə filmlərdə rol almışam. "Apple", "British Airlands", "Duracell" kimi dünya brendlərinin reklamına çəkilmişəm. Əsas sima olmasam da, ikinci, üçüncü dərəcəli rollarda olmuşam. Ən sonuncu çəkilişim Zelinskinin prezidentliyinin birinci ilinin tamamında olub, 2020-ci ildə.

**- Orada kimdən dərs almısınız?**

- İvanna Çabakdan şəxsən dərs almışam. O, Bred Pit, Şaron Stone kimi aktyorların şəxsi məşqçisi olub. Kaskadyor kurslarında olmuşam. Bir çox təlimlərdə iştirak etmişəm ki, özümü təkmilləşdirim.

**- Başa düşdüyüm qədər bəxtiniz Ukraynada açılıb. Bəs Azərbaycana niyə qayıtmısınız?**

- Bura qayıtmaqda məqsədim odur ki, əlimdə yaxşı bir maliyyə var idi, mental arifmetikanın distributorunu (uşaqlar üçün sürətli hesablama) aldıq, bu işlə məşğul olmağa başladıq.

**- Aktyorluq hara, bu iş hara?**



- Açığı, bu işi yaxın bir dostum var idi, o təklif etmişdi. Mən də təhsil sahəsilə bağlı olduğu üçün qəbul etdim. Aboks dünyanın 21 ölkəsində fəaliyyət göstərir. Amma təəssüf ki pandemiya səbəbilə iş dayandı, bankrot olduq. Sonralar düşündüm ki, Azərbaycanda qalıb daha başqa işlər görə bilərəm. Mədəniyyət Naziri Anar Kərimovun qəbulunda oldum. Yaxşı layihələr təklif etdim. Amma onu da vəzifəsindən azad etdilər.

**- Hal-hazırda nə işlə məşğulsunuz?**

- Əslən Şuşalıyam. 1991-ci ildə Şuşada doğulmuşam. Elə indi də Şuşa Qoruğunun əməkdaşıyam.

**- Bəs aktyorluq? Bəs kino?**

-Kinomuz üçün bir çox işlər görə bilərəm. Hal-hazırda əlaqələrim var. Məlum məsələdir ki, pandemiyadan dolayı "20 th century" kimi böyük kampaniyalar bankrot oldu. Amerika rejissorlarından bir neçəsilə əlaqələrim var. Onlarla danışanda deyirdilər ki, sizin kim kiçik ölkələrə marağımız var. Sadəcə olaraq nəyəsə cəhd edin ki, sizinlə Amerika adına iş birliyi yaradaq, burada satış təşkil edək. Heyf ki vasitələr tapa bilmədim. Burada iki dəfə çəkilişə getmişəm, 15-20 manat qonorar veriblər. Kiyevdə olana isə çəkilişlərə yüksək məbləğ alırdım, gediş-gəlişim üçün maşın yollayırdılar, yanımda köməkçi verirdilər. Bu kimi şeyləri görüb gəlmiş bir adam gəlib 15-20 manata çəkilişə düşmək çox pisimə gəldi. Bir dəfə mənə A4 vərəqində mətn yolladılar. İvanna Çabak bizə məsləhət görürdü ki, adətən güzgü qarşısında məşq edin ki, özünüzü obrazda görə biləsiniz. Mənim də ağlım gedib Kiyevə, Ulan Batora. İki gün məşq etdim, rolu oynadım, çəkiliş bitəndə mənə 30 manat verdilər. Bir 30 manata baxdım, bir də özümə, məni ağlamaq tutdu. Bir daha çəkilişə getmədim. Özümə söz verdim ki, Azərbaycanda heç bir rola çəkilməyəcəm. Bu, aktyor sənətinə söyüşdür.

**- Ukraynada hansı təcrübəni qazanmısınız ki, onu burada tətbiq etmək olar?!**

- Kino sahəsində dünya standartları deyilən bir şey var. Xatırlayıram, "Zaxar berkut" filmi var, Amerika ilə Ukraynanın birgə layihəsidi. Tutaq ki, 10 milyon Ukrayna, 5 milyon dollar da Amerika qoydu bu işə. Dünya bazarı görəndə ki bu işdə Amerikanın adı var, razılaşır, deyir bu işə baxmaq olar. Amma bugün hansısa dünya səviyyəli aktyoru bura gətirib filmə çəksək, bu effektiv olmayacaq. Birgə əməkdaşlıq lazımdır. O ölkələrlə ki, dünya səviyyəsində kinoda sözlərini deyiblər. Ceyms Kamerunun filmləri milyardlarla gəlir gətirir. Məsələn, "Avatar" 2 milyard gəlir gətirmişdi. Hesab etsək, Azərbaycan hansısa bir filmə 50 milyon dollar sərmayə yatırıb 100 milyon gəlir götürsə bu çox böyük nəticədir. Filmin inkişafı üçün dövlət layihəsi olmalıdır. İşi işi bilənə tapşırmaq lazımdır. Təəssüf ki burada elə deyil.

**Eminquey**

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| «Gəncə Tekstil» ASC | | VÖEN 2300044991 | | | | | | | | |
| Maliyyə Durumu Haqqında Hesabat | | | | | Məcmu Gəlirlər Haqqında Hesabat | | | | | |
| Maddənin №-si | | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il | | Qeyd | 2022-ci il | 2021-ci il | | |
| | Aktivlər | | | | Əsas əməliyyat gəliri | 20 | 1273253,7 | 1142998,76 | | |
| *1* | Uzunmüddətli aktivlər | | 1130258,76 | 1108155,86 | Satışın maya dəyəri | 24 | 1763841,19 | 1361573,64 | | |
| 11 | Torpaq, tikili və avadanlıqlar | 111-112+113 | 671350,95 | 649248,05 | Ümumi mənfəət | | -490587,49 | -218574,88 | | |
| 12 | Qeyri-maddi aktivlər | 101-102 | 0,00 | 0 | Sair əməliyyat gəlirləri | 21 | 99529,38 | 91356,83 | | |
| 17 | Uzunmüddətli debitor borcları | 17X | 458907,81 | 458907,81 | İnzibati xərclər | 25 | | | | |
| 19 | İnvestisiyalar | 19X | | | Əməliyyat (zərəri) | | -391058,11 | -127218,05 | | |
| | CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR | | 1130258,76 | 1108155,86 | Maliyyə gəliri | 22 | x | x | | |
| *2* | Qısamüddətli aktivlər | | 2148775,91 | 2089376,5 | Maliyyə xərcləri | 27 | | | | |
| 20 | Ehtiyatlar | 20X-208 | 634571,80 | 704380,15 | Fövqəladə gəlirlər | 23 | | | | |
| 21 | Qısamüddətli debitor borcları | 21X-218 | 513961,28 | 503583,04 | Fövqəladə xərclər | 26 | | | | |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | 22X | 51026,57 | 1520,09 | Vergitutmadan əvvəl mənfəət (zərər) | | -391058,11 | -127218,05 | | |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | 23X-235 | 709250,86 | 639927,82 | Mənfəət vergisi | 28 | 0,00 | 0,00 | | |
| 24 | Sair qısamüddətli aktivlər | 24X | 239965,40 | 239965,4 | Hesabat dövründə xalis mənfəət (zərəri) | | x(x) | x(x) | | |
| | CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR | | 2148775,91 | 2089376,5 | Mənfəətdə iştirak payı: | | | | | |
| | CƏMİ AKTİVLƏR | | 3279034,67 | 3197532,36 | Səhmdarların payı | | | | | |
| | KAPİTAL | | | | Azlıqların payı | | x | x | | |
| 30 | Ödənilmiş nominal (nizamnamə)kapital | 301-302 | 535142,00 | 535142 | Səhmdarların payına düşən bir səhmin mənfəəti: | | | | | |
| 31 | Kapital ehtiyatları | 31X | | | bir səhmin əsas mənfəəti | 29 | | | | |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 34X-344 | -8452272,18 | -8061214,07 | | | | | | |
| | CƏMİ KAPİTAL | | -7917130,18 | -7526072,07 | Rəhbər | | Baş mühasib | | | |
| | ÖHDƏLİKLƏR | | | | KAPİTALDA DƏYİŞİLİKLƏR HESABATI | | | | | |
| 4 | Uzunmüddətli öhdəliklər | | 616537,67 | 616537,67 | | Azərbaycan manatı ilə | | | | |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | 42X | | | | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
| 43 | Uzunmüddətli kreditor borcları | 43X | | | 1 yanvar 2022 tarixə qalıq | | 535142 | | -8061214,07 | - 7526072,07 |
| 44 | Sair uzunmüddətli öhdəliklər | 44X | 616537,67 | 616537,67 | | | | | | |
| | CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR | | 616537,67 | 616537,67 | Mülkiyyətçilərin karital qoyuluşları | 19 | | | | |
| 5 | Qısamüddətli öhdəliklər | | 10579627,18 | 10107066,76 | Elan edilmiş dividendlər | | | | | |
| | | | | | 1 yanvar 2022 | | 535142,00 | 0 | -8061214,07 | - |

# Pele kim idi yox, nə idi?

**Ta 45 il əvvəl futbolu tərk etsə də, dünyanın savadlı, cahili, ona heç vaxt baxmayan 7 yaşlı uşağından tutmuş, hətta futbolla heç bir əlaqəsi olmayan nənələrimizəqədər hamının tanıdığıən məşhur "adı" idi.Asiyadan Avropaya, Afrikadan Avstraliyaya qədər.**

Yaxşı, heç düşünmüsünüzmü, Pele nədir?

Kim olduğunu soruşmuram.

Pele nədir?

O, Braziliyanın ən kasıb əyalətində, işığı, suyu və kanalizasiyası olmayan daş dövrünü yaşayan şəhərində anadan olub.

Təsadüfən doğuldu, şəhərə elektrik verildi. Qalay dam örtüyü olan kasıb gecəqondularda işıq lampaları yanmağa başladı.

Atası bu vəziyyəti ilahi müjdə kimi qəbul etdi.

O, oğlunun adını lampanı icad edən Edisonun şərəfinə qoydu.

Edson…

Edson atasını örnək götürdü, atası keçmiş futbolçu idi, "Fluminense"də müdafiəçi kimi oynayırdı, amma o illərdə futboldan pul olmadığı üçün ailə maddi cəhətdən sürünürdü.



Edson bir az böyüdü, məhəllələr arasında top qovalamağa başladı, Tanrının verdiyi istedad var idi, qabağına çıxanın belini qırırdı.

Bir gün rəqib uşaqlardan biri onu əsəbiləşdirmək, ruhdan salmaq üçün ona "Pele" deyi Edson çox əsəbiləşir, "Mən Pele deyiləm, mən Edsonam" deyə qışqırır. Rəqib komandanın digər uşaqları da israrla "Sən Pelesən" deyəndə yumruq davası çıxır və o ağlaya-ağlaya evə gedir. "Məni ələ salmaq üçün niyə mənə Pele deyirlər?" deyə soruşur, atasının isə bu sözün nə məna verməyindən xəbəri yox idi. Ən pisi isə odr ki, hətta qızlar belə ona "Pele" deyib gülürdülər.

Edson dəli olurdu.

O, bu ləqəbdən nifrət edirdi.

Pele aşağı Pele yuxarı, Edson beləcə Pele olur.

Sonra nə oldu, bilirsiniz, o, ilk müqaviləsini ayda 10 dollar maaşla bağlayır, dünyanın ən böyük futbolçusu olur, üç dəfə Dünya Kubokunu qazanan ilk şəxs olur, "Əsrin idmançısı" elan edilir. Beynəlxalq Olimpiya Komitəsi olimpiadalarda iştirak etməsə də, ona "yüz ilin atleti" adını verir, Pele əfsanəyə çevrilir.

Dünyanın ən məşhur insanı olanda müsahibələrində ondan Pelenin nə olduğunu soruşurlar, o isə hər dəfə bilmədiyini deyir.

Qəribəsi budur ki, Braziliyada heç kim Pelenin mənasını bilmirdi.

Əslində portuqal dilində belə bir söz yoxdur.

Dünya mətbuatında Pelenin nə olduğu araşdırılır, müəyyən edilir ki, Karib adalarında belə bir vulkan var, amma bu da Pelee vulkanı olub, onun iki e-si var, üstəlik, Karib dənizində yerli inanca görə, Pelee vulkan ilahəsi, yəni qadın olub. D

Nəticə əldə edilə bilməyəndə bu dəfə tarixçilər işə keçir.

Araşdırmalardan sonra yunan mifologiyasında Axillesin atası Peleusu tapırlar.

Amma Braziliyada Peleyə bu ləqəbi verən kasıb məhəllə uşaqları o yaşda ikən Peleus haqqında hardan bilə bilərdilər?!

Beləcə Mənası dünyaya məlum olmayan Pele dünyanın ən məşhur adı olaraq qaldı!

Bu sualı Pele 82 yaşında ölənə qədər ona verdilər.

O, 82 yaşında dünyasını dəyişənə qədər gülümsəyərək eyni cavabı verdi.

"Mən Edsonam, Pele deyiləm, amma bunu dünyaya başa sala bilmədim".

Bəli…

Pele təkcə futbol deyil, o, həyatın özüdür.

Pele əslində istedadlı insanlara həsəd aparan istedadsız insanların vurduğu baltadır.

Pele sizi ruhdan salmaq, incitmək, gördüyünüz işdən uzaqlaşdırmaq, fikrinizdən çəkindirmək istəyən məhəllə təzyiqinin sifətidir.

Bu təzyiqə cavab olaraq Edson kimi davranın.

Həmyaşıdların təzyiqinə boyun əyməyin.

Sizin haqqınızda dediklərinə deyil, etdiklərinizə diqqət yetirin.

Doğru bildiyiniz şeyi etməkdən heç vaxt əl çəkməyin.

**Yılmaz Özdil**
**Dilimizə uyğunlaşdıran: Eminquey**

## Mərhum Xalq artistinin ailəsində xoş gün



**Mərhum Xalq artisti Ağaxan Abdullayevin oğlu Hikmətin toyu olub.**

Adalet.az xəbər verir ki, Əmircanda baş tutan məclis Bakı kəndlərinin adət-ənənələrinə uyğun qurulub.

Sənətçinin övladının toyunda yalnız kişilər iştirak edib. Kamil Cəfərov, Alican Həmid kimi müğənnilərin qonaq olduğu şənlikdən görüntülər sosial şəbəkələrdə paylaşılıb.

## Ayanın şikayətinə baxıldı



**Xəbər verdiyimiz kimi, müğənni Ayan Babakişiyeva Nəsimi ərazisində yerləşən yaşadığı binanın qəzalı vəziyyətə düşməsindən şikayətçidir.**

Adalet.az xəbər verir ki, Tbilisi prospekti, Ənvər Hüseynov küçəsi 7-də yerləşən binanın parkinqinə su dolmasını və sakinlərin təhlükədə olmasını iddia edənlər az deyil. Belə ki, müğənninin meneceri saytımıza bildirdiyi məlumata görə, iki aydır problemlə maraqlanan yoxdur: ”Bu məsələ sakinləri, bizi də çox narahat edir. Bina əməlli-başlı təhlükəli vəziyyətə düşüb. Parkinq ərazisinə yığılan su ekspertizaya göndərilib. Məlum olub ki, bu, ”Şollar” suyudur. Amma qrunt sularıdır deyirlər. Əslində, məsələni çox yaysalar, buna bir əlac qılan olar. Hələ ki, gözləyirik. Tədbir görülməsə, çox güman köçüb gedəcəyik”.

Məsələ ilə əlaqədar Azərsu ASC-nin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Cəbrayıllı ilə əlaqə saxladıq. O, mətbuata açıqlamasında bildirib ki, məsələdən xəbərdardırlar. Qurumun əməkdaşları hadisə yerinə göndərilib. Anar Cəbrayıllı onu da qeyd edib ki,mövcud problem aradan qaldırılacaq.

**Əntiqə**

## Azərbaycan kubokunda yeni rekord

**”Neftçi” Azərbaycan kubokunda yeni rekorda imza atıb.**

Qol.az xəbər verir ki, Bakı klubu finala 11-ci dəfə yüksəlməklə buna nail olub. ”Ağ-qaralar” yarımfinalda ”Turan Tovuz”u mübarizədən kənarlaşdırıb. İlk görüşdə 0:1 hesabı ilə uduzan ”Neftçi” evdə 2 cavabsız qolla qalib gəlib.

Tarixində 11-ci dəfə həlledici matça vəsiqə qazanan paytaxt təmsilçisi bu göstəricidə mütləq rekordçu olub. Bunadək ”Neftçi” və ”Qarabağ” hərəyə 10 dəfə final həyəcanı yaşayıb. 11-ci belə sınağa çıxacaq ”ağ-qaralar” 6, Ağdam klubu 7 dəfə kubokun sahibi olub.

Qeyd edək ki, 1994/1995, 1995/1996, 1998/1999, 2003/2004, 2012/2013, 2013/2014 mövsümlərində kuboku başı üzərinə qaldıran bakılılar dörd dəfə (2000/2001, 2011/2012, 2014/2015, 2015/2016) finalda uduzub (pfl.az).

# "Fikirləşirəm ki, indiki ağlım, dünyagörüşüm, səviyyəm onda olsaydı..."

**”İnsanın yaşına müxtəlif yanaşmalar var. Viktor Hüqo deyir ki, ”yaş pessimizm baxımından qocalığa doğru inkişafdırsa, digər tərəfdən uzunömürlülüyün vasitəsidir”. İnsanlarda yaşa müxtəlif yanaşmalar var. Mənim aləmimdə insanın yaşı mükəmməlləşməkdi, təcrübə qazanmaqdı, daha yüksək dünyagörüşünə malik olmaqdır”**

Bunu Adalet.az-a açıqlamasında 71 yaşı tamam olan tarix üzrə ekspert, publisist Nadir İsrafilov deyib. N.İsrafilov keçdiyi ömür yolundan da söz açıb: ”Bu gün gənclərə daha geniş meydan verirlər, təbiidir. Çünki onlara dəstək olmaq lazımdır ki, inkişaf etsinlər. Amma bu, yaşlı nəslin sıxışdırılması hesabına olmamalıdır. Statistikaya diqqət yetirsək görürərik ki, dünyadakı Nobel mükafatçılarının bir nəfəri 30 yaşına qədər bu mükafata layiq görülüb, qalan 99 faizi 60-70 yaşdan sonra bu mükafatı alıblar. Məni 31 yaşında Bakı şəhərinin Nəsimi rayonunun təhsil şöbəsinin müdiri təyin ediblər. Fikirləşirəm ki, indiki ağlım,



dünyagörüşüm, səviyyəm onda olsaydı, nələr edərdim. O dövrdə çox şey edə bilərdim, amma gənclik, təcrübəsizlik buna imkan vermədi. İnsanın yaşı qismətdi, alın yazısıdır. Əsas odur ki, insan o ömrü şərəflə, vicdanla yaşasın. Həyatımın 20 ili təhsillə bağlı olub. Yaradıcılığımın inkişaf edən, parlaq vaxtları sovet dönəminə düşüb. Sosial şəbəkələr çıxandan müsahibə və yazılarımın sayı 15 mini keçib. Bu hələ internetdən çıxandan sonrakı statistikadı.

Əsas yaradıcılığım isə internet çıxana qədərki dövrdü. O zaman çox yaxşı insanlarla rastlaşmışam və onların sayəsində bir çox uğurları əldə etmişəm”.

**Vasif Əlihüseyn**

# Türkiyədə ev almaq istəyən azərbaycanlılara əla fürsət

**Türkiyədə ev sahibi olmaq istəyən bütün azərbaycanlı dostlarımızı ”PAŞA Bank Türkiyə” ilə görüşə dəvət edirik.**

Adalet.az xəbər verir ki, bu barədə ”PAŞA Bank Türkiyə”nin baş direktorunun müavini Ayşe Hale Yıldırım bildirib.

”Həm yaşayış, həm də investisiya məqsədi ilə mənzil almaq istəyən Azərbaycan vətəndaşları öz yerli valyutaları ilə Bankımızdan ipoteka kreditindən istifadə etməkdə üstünlük əldə edəcək və Türkiyədə kredit ballarına sahib olacaqlar.

Bu məqsədlə mayın 3-də Türkiyədə həyata keçirilən layihələr haqqında məlumat vermək və ipoteka məhsulumuzu tanıtmaq üçün Bakıda tədbir keçirəcəyik”, - A.H.Yıldırım deyib.Baş direktorun müavini qeyd edib ki, görüşə gələnlər bankın fəaliyyəti ilə daha yaxından tanış ola biləcəklər: ”İş ortağımız Incity Investments & T&A Projects ilə birlikdə təşkil etdiyimiz bu tədbirdə iştirakçılarımız Türkiyədəki layihələr və daşınmaz əmlak bazarı haqqında məlumat əldə etməklə yanaşı, ”PAŞA Bank Türkiyə” ilə tanış olmaq, şirkət haqqında ətraflı məlumat əldə etmək imkanı qazanacaqlar.

Görüş iştirakçıları məhsullarımızla tanış olmaqla yanaşı, müştərimiz olmaq imkanı əldə edəcəklər. O axşam bizimlə maraqlanan hər kəsi orada görməkdən çox məmnun olarıq”.

”PAŞA Bank Türkiyə” ilə bağlı məlumat verən Ayşe Hale Yıldırım



bildirib ki, 1987-ci ildə yaradılmış ”PAŞA Bank Türkiyə” ölkənin ilk xarici kapitallı investisiya bankıdır. ”PAŞA Bank Türkiyə olaraq əsas hədəfimiz Türkiyə, Azərbaycan və Gürcüstan üçbucağında ticarət etmək və investisiya etmək istəyən və cari iş həcmini artırmağı hədəfləyən şirkətlər üçün ”maliyyə körpüsü” rolunu üzərinə götürərək ”Bölgədə ilk ağla gələn Bank” olmaqdır”, - deyə o qeyd edib. Ayşe Hale Yıldırımın sözlərinə görə, bu bank Türkiyə və Azərbaycanın iki qardaş ölkə rolu ilə, ”Qardaş ölkədə qonaq deyil, ev sahibi ol” devizi ilə Azərbaycanda yaşayan Azərbaycan vətəndaşlarına, PAŞA Qrup əməkdaşlarına və Türkiyədə məskunlaşan Azərbaycan vətəndaşlarına mənzil krediti verməyə başlayıb:

”Regionda ilk ağla gələn bank olmaq missiyamızla həyata keçirdiyimiz ipoteka məhsulumuzdan Türkiyədə yaşayan Azərbaycan vətəndaşları ilə yanaşı, Azərbaycanda yaşayan Azərbaycan vətəndaşları və PAŞA Qrupun bütün əməkdaşları istifadə edə bilər.

Türkiyədə 10 ilə qədər müddətlə, AZN/USD/EUR valyutalarında, sərfəli faizlə ev sahibi olmaq istəyən bütün azərbaycanlı qardaş və dostlarımızı PAŞA Bank Türkiyə ilə görüşə dəvət edirik. Həm yaşayış, həm də investisiya məqsədi ilə mənzil almaq istəyən Azərbaycan vətəndaşları öz yerli valyutaları ilə Bankımızdan ipoteka kreditindən istifadə etməkdə üstünlük əldə edəcək və Türkiyədə kredit ballarına sahib olacaqlar. Bu məqsədlə mayın 3-də Türkiyədə həyata keçirilən layihələr haqqında məlumat vermək və ipoteka məhsulumuzu tanıtmaq üçün Bakıda tədbir keçiririk”.

Bakıda keçiriləcək tədbirin məqsədi barədə danışan Ayşe Hale Yıldırım bunları deyib:

”Biz ipoteka məhsulumuzu ötən ilin sentyabrında PAŞA Qrup əməkdaşları ilə birlikdə satışa çıxardıq. İndi isə qardaş ölkəmiz Türkiyədə ev sahibi olmaq istəyən hər kəsi mayın 3-də keçirəcəyimiz tədbirə gözləyirik.

İş ortağımız Incity Investments & T&A Projects ilə birlikdə təşkil etdiyimiz bu tədbirdə iştirakçılarımız Türkiyədəki layihələr və daşınmaz əmlak bazarında da ”PAŞA Bank Türkiyə” ilə tanış olmaq, məhsullarımız haqqında ətraflı məlumat almaq və bankımızın müştərisi olmaq imkanı əldə edəcəklər”.

## Aynur Dadaşova: “Dosta düşmən demirəm”



**Müğənni Aynur Dadaşova və Niyam Salami arasında sərin küləklər əsməkdə davam edir.**

Adalet.az xəbər verir ki, müğənni Aynur Dadaşova ”Səhər mərkəzi” verilişində müğənni Niyam Salami ilə küsülü olması ilə bağlı yayılan söz-söhbətdən danışıb: ”Bütün dostlarımın uğurlarına sevinən insanam. Hamının fikirlərinə hörmətlə yanaşıram. Mənim düşmənim yoxdur. Dosta düşmən demirəm”.

Dadaşova Salami ilə münasibətləri soyuq olsa da, bu barədə çox da danışmayıb. Fikrini qısa və qapalı şəkildə ifadə edib:

”Əgər dost, qardaş demişəmsə, çörək kəsmişəmsə, nə qədər mənə söz desələr də, bacardığım qədər xanımlığımı və alicənablığımı qorumağa çalışmışam. 34 ildir sənətdəyəm. Qalmaqallarla, söz-söhbətlə gündəmdə qalmağa ehtiyacım yoxdur. Heç kimdən küsülülüyüm, incikliyim yoxdur”.

Aparaıcı isə bildirib ki, Dadaşovanının heç bir incikliyi olmasa da, Salami həmkarından küsüb. Dadaşova bu sözlərə ” bilsəydim, gəlməzdim” fikri ilə reaksiya verib.

## Şəbnəm Tovuzlu: “Qızım iş xanımıdır”



**Müğənni Şəbnəm Tovuzlu qızı Günelin biznesinin olduğunu söyləyib.**

Adalet.az xəbər verir ki, müğənni bu barədə ”Maqazin plyus” verilişində danışıb. Tovuzlu qeyd edib ki, qızı ikinci kurs tələbəsidir. Onun övladının gözəllik salonu var: ”Günel indidən çalışır, iş xanımıdır. Özünün gözəllik məkanı var”.

Qeyd edək ki, Şəbnəm Tovuzlunun Əli adlı oğul övladı da var.

**Əntiqə**

**Hərbi qulluqçu Abdullayev Samir Abdulla oğluna verilmiş hərbi vəsiqə İkinci Qarabağ müharibəsində naməlum şəraitdə itdiyi üçün etibarsız sayılır.**

Səməndər Məmmədov və Faiq Qismətoğlu **Musa Nəbioğluna** qardaşı

**Səməd həkimin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Faiq Qismətoğlu dostu **Vahid Qurbanova** əzizi

**Yetər xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 127**
Çapa imzalanmışdır: 27.04.2023